# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# NÖVBƏDƏNKƏNAR
# VII SESSİYASI İCLASININ

## PROTOKOLU № 78

*Milli Məclisin iclas salonu.*
*7 iyul 2026-cı il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 113 deputatı iştirak etmişdir.**

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 108 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Elmin Məmmədov**, Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini.

**Fərid Osmanov**, Azərbaycan Respublikası İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi İdarə Heyətinin sədri.

**Fərid Zeynalov**, Azərbaycan Respublikası Milli Kibertəhlükəsizlik Agentliyi İdarə Heyətinin sədri.

**Kaul Məmmədov**, Azərbaycan Respublikası İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Hüquq departamentinin müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. “Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında”, “İctimai iştirakçılıq haqqında” və “Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
2. “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

3. “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

4. “Büdcə sistemi haqqında”, “Sığorta fəaliyyəti haqqında” və “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

5. “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

7. Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, “Yol hərəkəti haqqında”, “Nəqliyyat haqqında”, “Dövlət rüsumu haqqında”, “Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında”, “Avtomobil nəqliyyatı haqqında” və “Aviasiya haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. Kraudfandinq haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Dövlət rüsumu haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında”, “Qiymətli kağızlar bazarı haqqında”, “Lisenziyalar və icazələr haqqında”, “Nağdsız hesablaşmalar haqqında”, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, “Valyuta tənzimi haqqında”, “Banklar haqqında”, “İnvestisiya fondları haqqında” və “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

12. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, “Sosial sığorta haqqında”, “Gömrük tarifi haqqında”, “Lisenziyalar və icazələr haqqında” və “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

14. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

15. Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

16. “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

17. “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**1. “Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında”, “İctimai iştirakçılıq haqqında” və “Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**2. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Anar İsgəndərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.05 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

**3. "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Musa Quliyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**4. "Büdcə sistemi haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.09 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.09 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.10 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.10 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.10 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**5. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.12 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.13 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.13 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.14 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan**

**Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Zahid Oruc

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.17 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.17 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.17 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.18 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, “Yol hərəkəti haqqında”, “Nəqliyyat haqqında”, “Dövlət rüsumu haqqında”, “Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış)**

**əşyaların siyahısı haqqında", "Avtomobil nəqliyyatı haqqında" və "Aviasiya haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Badamov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–7-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.24 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.24 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**8. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan**

**Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Badamov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.27 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.27 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.28 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.28 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.28 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**9. Kraudfandinq haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Zahid Oruc, Razi Nurullayev, Nizami Səfərov, Şahin İsmayılov, Müşfiq Cəfərov, Sahib Alıyev, Bəhruz Məhərrəmov, Mehriban Vəliyeva, Azər Allahverənov, Aydın Mirzəzadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

**10. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Dövlət rüsumu haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında”, “Qiymətli kağızlar bazarı haqqında”, “Lisenziyalar və icazələr haqqında”, “Nağdsız hesablaşmalar haqqında”, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

**11. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Banklar haqqında", "İnvestisiya fondları haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**12. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Sosial sığorta haqqında", "Gömrük tarifi haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**13. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Kamal Cəfərov, Bəhruz Məhərrəmov, Hikmət Məmmədov, Fazil Mustafa, Rizvan Nəbiyev, Müşfiq Məmmədli, Sevil Mikayılova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 108 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**14. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**15. Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**16. “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Rəşad Mahmudov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

**17. "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Elçin Mirzəbəyli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*7 iyul 2026-cı il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*

***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük.

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| --- | --- |
| İştirak edir | 108 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasa başlayırıq.

Hörmətli həmkarlar, bildiyiniz kimi, Milli Məclis sədrinin başçılığı ilə Azərbaycan Respublikasının nümayəndə heyəti iyulun 3-də İran İslam Respublikasında səfərdə olmuşdur. Səfərdə məqsəd İranın mərhum Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin vida mərasimində iştirak etmək idi.

Mən İran İslam Respublikasının Prezidenti cənab Məsud Pezeşkian, İslam Şurası Məclisinin sədri cənab Məhəmməd Baqer Qalibaf və digər rəsmilərlə görüşdüm. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin adından başsağlığı ifadə etdim, Azərbaycan xalqının dərin hüzn və ehtiramını İran xalqına çatdırdım.

Hörmətli həmkarlar, indi isə xahiş edirəm, gündəliyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Gündəliyin məsələlərinə keçirik. Bu gün bizim gündəliyimizdə, bildiyiniz kimi, 17 məsələ var. Gündəliyin ilk iki məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. İndi biz 1-ci məsələyə başlayırıq. Bu məsələ "Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında" Qanunda və digər iki qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Əli müəllimə söz verirəm. Əli Hüseynli. Buyurun.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli deputat həmkarlar, bu layihə barədə birinci və ikinci oxunuşlarda geniş məlumat verilmişdir. Layihənin məqsədi bir sıra sahələrdə Elektron Hökumət İnformasiya Sisteminin tətbiqi ilə bağlıdır. Həmkarlarımız tərəfindən dəstəklənib, üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Bu qanun layihəsi ilə bağlı heç kimin sözü, sualı yoxdur? Səsə qoyuram. Xahiş edirəm, üçüncü oxunuşda münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
|---|---|

| | |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi, çox sağ olun.

Növbəti məsələyə keçirik. “Ümumi təhsil haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Elm və təhsil komitəsində baxılıb. Komitənin sədri hörmətli Anar müəllim İsgəndərova söz verirəm. Anar müəllim, buyurun, məlumat verin.

**Anar İsgəndərov,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, birinci və ikinci oxunuşlardan sonra komitəyə hər hansı təklif daxil olmamışdır. Komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsi üçüncü oxunuşda səsə qoyulur. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.05 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi, çox sağ olun.

Növbəti məsələyə keçirik. Hörmətli həmkarlar, gündəliyin 3-cü məsələsi “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında

dəyişikliklərin təsdiq edilməsi haqqında" 2026-cı il 2 fevral tarixli Konstitusiya Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, layihə uyğunlaşdırma xarakteri daşıyır və ona görə də, bildiyiniz kimi, bir oxunuşda qəbul ediləcək. Onu da xatırladım ki, bu, Konstitusiya Qanununun tələbidir.

Hörmətli həmkarlar, qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Mən yenə də Əli müəllimə söz vermək istəyirəm. Əli müəllim, buyurun, məlumat verin.

**Əli Hüseynli.** Çox sağ olun. Hörmətli sədr, məlumdur ki, biz "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Konstitusiya Qanununu geniş müzakirə etdik, qəbul etdik. İndi məhz həmin Konstitusiya qanununun tətbiqi ilə bağlı, söylədiyiniz kimi, bizim komitənin profilinə uyğun olaraq, iki qanuna uyğunlaşdırma xarakterli dəyişikliklər edilir. "Məhkəmələr və hakimlər haqqında" Qanundan "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri" sözləri və "Dövlət qulluğu haqqında" Qanundan isə "Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin Aparatı" sözləri çıxarılır. Bu, sırf uyğunlaşdırma xarakterlidir. Digər düzəliş isə hörmətli həmkarım Musa müəllimin komitəsi ilə bağlıdır.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Musa müəllim, qanun layihəsinə sizin komitənizdə də baxılıb. Xahiş edirəm, məlumat verin. Buyurun.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, hörmətli xanım sədr, Sizin və hörmətli Əli müəllimin söylədiyiniz kimi, dəyişikliklər

uyğunlaşdırma xarakterlidir. Bizim komitənin profilinə uyğun olaraq “Əmək pensiyaları haqqında” Qanuna uyğunlaşdırma xarakterli dəyişiklik təklif edilir. Komitədə müzakirə olunubdur, komitənin rəyi müsbətdir. Səsə qoymağı və qəbul etməyi xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim.

Hörmətli həmkarlar, Əmək və sosial siyasət komitəsinin rəyini öyrəndik. Müzakirəyə heç kim yazılmayıb, ona görə də səsverməyə keçirik. Xahiş edirəm, münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Növbəti məsələlərə keçirik. Hörmətli həmkarlar, növbəti 5 məsələ ikinci oxunuşda olan qanun layihələridir. İndi biz gündəliyin 4-cü məsələsinə keçirik. Bu məsələ “Büdcə sistemi haqqında”, “Sığorta fəaliyyəti haqqında” və “Hesablama Palatası haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Komitənin rəyini bildirmək üçün mən sözü komitə sədri hörmətli Azər Əmiraslanova verirəm. Azər müəllim, buyurun, söz Sizindir.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Təqdim olunmuş qanun layihəsi ilə bağlı birinci oxunuşda tərəfimizdən ətraflı, geniş məlumat verilmişdir. Təqdim olunan qanun layihəsi Hesablama Palatasının fəaliyyətinin təşkilati, institusional və hüquqi əsaslarının təkmilləşdirilməsinə xidmət edir.

Birinci oxunuşda hörmətli həmkarlarımız tərəfindən hər hansı bir təklif, qeyd edilməmişdir. Layihənin ikinci oxunuşda da müzakirə edilməsini və qəbul olunmasını məqsədəuyğun hesab edirik.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, ikinci oxunuşdur və biz qanun layihəsini əsas kimi qəbul etməliyik. Mən indi qanun layihəsini əsas kimi səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.09 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi, çox sağ olun.

Müzakirəyə keçirik. Heç kim yazılmayıb, heç kimin sözü, sualı yoxdur. Ona görə də səsverməyə keçirik. Hörmətli həmkarlar, ikinci oxunuşdur, biz qanun layihəsinə əvvəlcə maddələr üzrə səs verməliyik. Bu qanun layihəsində üç maddə var, mən onları bir-bir səsə qoyacağam. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.09 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

İndi 2-ci maddəni səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.10 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə qəbul edildi.

İndi isə 3-cü maddəni səsə qoyuram, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.10 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.10 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi, çox sağ olun.

Növbəti məsələyə keçirik. Bu, “Gömrük tarifi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Hörmətli Azər müəllim, layihəyə sizin komitənizdə – İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Xahiş edirəm, məlumat verin. Buyurun.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, təqdim olunmuş qanun layihəsi ilə bağlı birinci oxunuşda geniş məlumat verilmişdi. Bir daha xatırlatmaq istərdim ki, təqdim olunan qanun layihəsi Ələt azad iqtisadi zonasından ölkəmizin əsas iqtisadi ərazisinə, yəni əsas iqtisadiyyata gətirilən məhsullar, istehsal və emal olunmuş mallar üçün gömrük güzəştinin tətbiq olunmasını nəzərdə tutur.

Bunun üçün bir neçə şərt tələb olunur: həmin məhsul Azərbaycan Respublikası mənşəli olmalıdır. İkincisi, istehsal və yaxud da emal olunmuş məhsulların azı 50 faizi ixrac olunmalı və son emal mərhələsinə çatdırılmalıdır.

Biz hesab edirik ki, bu layihənin qəbul edilməsi ilə ölkəmizin əsas aparıcı məhsulları üzrə idxalın əvəzlənməsi prosesi həyata keçiriləcək. Bu, qeyri-neft sektorunun inkişafına xidmət edəcək.

Hörmətli həmkarlarımız tərəfindən birinci oxunuşda layihə ilə bağlı hər hansı qeyd, təklif olmamışdı. Bu layihənin ikinci oxunuşda da olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, ikinci oxunuşdur, biz qanun layihəsini əsas kimi qəbul etməliyik. Səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.12 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Heç kim yazılmayıb. Səsverməyə keçirik. Maddələr üzrə səs verəcəyik. Qanun layihəsi 2 maddədən ibarətdir. Bir-bir səsə qoyacağam. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.13 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

İndi 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.13 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verмədi | 1 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə qanun layihəsini mən ikinci oxunuşda bütövlükdə səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.14 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin 6-cı məsələsinə keçirik və bu məsələ Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəllədə və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Əli müəllim, mən yenə də Sizdən xahiş edirəm, məlumat verin. Buyurun.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli sədr. Bu layihə barədə geniş məlumat vermişəm. Layihə, həqiqətən, çox əhəmiyyətlidir. Cinayət Məcəlləsində iki sahəni – iqtisadi fəaliyyət sahəsində olan bəzi cinayətləri və qumar oyunlarının təşkili, onların keçirilməsi ilə bağlı məsələləri özündə ehtiva edir.

Çıxış edən həmkarlarıma təşəkkür edirəm ki, layihəni dəstəklədilər. O cümlədən Cinayət Məcəlləsindən çıxarılan bir maddə – 208-ci maddə xarici valyuta vəsaitlərinin xaricdən qaytarılmaması ilə bağlı vacib bir məsələ idi. Öz çıxışlarında bunu müdafiə etdiklərinə görə həmkarlarım Fazil müəllimə, Razi müəllimə təşəkkürümü bildirirəm.

Bir sıra təkliflər oldu, burada münasibət bildirildi. Sahibkarlığın inkişafı ilə bağlı digər təkliflər isə müvafiq dövlət orqanlarının diqqətinə çatdırılmışdır.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Qanun layihəsinə İnsan hüquqları komitəsində də baxılıb. Komitənin sədri hörmətli Zahid Oruca söz vermək istəyirəm. Zahid müəllim, buyurun, Siz də komitənin rəyini bildirin.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli millət vəkilləri. Burada qeyd olundu, müzakirə edilən qanun layihəsi haqqında birinci oxunuşda ətraflı məlumat verilmişdi və o, rəqəmsal məkanda hüquqi tənzimlənmə tədbirləri kimi dəyərləndirilmişdi. Komitəmizin aid olduğu istiqamət “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanunda edilən dəyişikliklər idi. Bir daha xatırladırıq ki, layihəyə əsasən internet informasiya ehtiyatlarında yayılması qanunla qadağan edilən məlumatların yerləşdirilməsi ilə bağlı mövcud hüquqi mexanizm daha da dəqiqləşdirilir.

Əgər söhbət dövlət sirri, terrorçuluq, zorakılıq, ekstremizm, uşaqlara qarşı qeyri-əxlaqi hərəkətlər, narkotik vasitələrin təbliği və qanunla yayılması qadağan edilmiş digər məlumatlardan gedirsə, onların internet

resurslarında yerləşdirilməsinin qarşısının alınması üçün daha operativ hüquqi prosedur müəyyən olunur.

Birinci oxunuşdan sonra qanun layihəsi ilə bağlı əlavə təklif və dəyişiklik edilmədiyini nəzərə alaraq, onun ikinci oxunuşda da dəstəklənməsini xahiş edirik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Zahid müəllim.

Hörmətli həmkarlar, yenə də xatırladıram, ikinci oxunuşdur. Biz qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 11.17 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb. Səsverməyə keçirik. Hörmətli həmkarlar, maddələr üzrə səs verəcəyik. Bu qanun layihəsində 4 maddə var, mən onları iki-iki səsə qoyacağam. İndi isə xahiş edirəm, 1-ci və 2-ci maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.17dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

1-ci və 2-ci maddələr qəbul edildi, çox sağ olun.

İndi 3-cü və 4-cü maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.17 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.18 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi, çox sağ olun.

Biz növbəti məsələyə keçirik. Bu, gündəliyimizdəki 7-ci məsələdir. Ticarət Gəmiçiliyi Məcəlləsində, “Yol hərəkəti haqqında” Qanunda və digər 5 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitə sədrinin müavini hörmətli Azər Badamova söz vermək istəyirəm. Azər müəllim, buyurun.

**Azər Badamov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Minnətdaram, hörmətli Sahibə xanım. Hörmətli həmkarlar, qanun layihəsinin birinci oxunuşu zamanı geniş məlumat verilmişdir. İkinci oxunuşun tələblərinə uyğun olaraq qeyd etmək istəyirəm ki, layihənin hazırlanması Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli 953 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı”ndan irəli gələn tapşırıqların icrasına xidmət edir. Qanun layihəsi avtomobil, dəmir yolu, metro, tramvay, dəniz və hava nəqliyyatı da daxil olmaqla, bütün nəqliyyat növləri üzrə avtonom nəqliyyat vasitələrinin tətbiqi üçün zəruri normativ hüquqi, texnoloji və institusional bazanın yaradılması məqsədi ilə hazırlanmışdır.

Qanun layihəsi ilə ilk növbədə qanunvericiliyə “avtonom nəqliyyat vasitəsi”, “operator” və “məsafədən idarəetmə mərkəzi” anlayışları daxil edilir, avtomatlaşdırılmış idarəetmənin yüksək və tam səviyyələri müəyyən olunur. Bununla yanaşı, avtonom nəqliyyat vasitələrinin istismarına, operatorların fəaliyyətinə, məsafədən idarəetmə mərkəzlərinə və avtomatlaşdırılmış idarəetmə sistemlərinə dair əsas hüquqi tələblər müəyyən edilir.

Layihəyə əsasən avtonom nəqliyyat vasitələri yalnız dövlət qeydiyyatına alındıqdan sonra səlahiyyətli dövlət orqanlarının müəyyən etdiyi ərazilərdə istismar edilə biləcəkdir. Operator fəaliyyəti isə müvafiq şəhadətnamə əsasında həyata keçiriləcək. Həmin şəhadətnamə 5 il müddətinə veriləcək və onun verilməsinə görə 20 manat dövlət rüsumu müəyyən ediləcək.

Eyni zamanda, operatorların avtomatlaşdırılmış idarəetmə sisteminə daim nəzarət etməsi, təhlükə yarandıqda operativ müdaxilə etməsi, istismar zamanı formalaşan məlumatların real vaxt rejimində dövlət informasiya sisteminə ötürülməsi və həmin məlumatların ən azı 6 ay müddətində mühafizə olunması nəzərdə tutulur.

Qanun layihəsində təhlükəsizlik məsələlərinə də xüsusi diqqət yetirilmişdir. Belə ki, avtomobil nəqliyyatı vasitələrinin tənzimləyici test mühitində sınaqdan keçirilməsi, onların hərəkət edəcəyi ərazilərin müəyyən olunması, qəza və ya digər hadisələr nəticəsində dəyən zərərə görə nəqliyyat vasitəsinin mülkiyyətçisi, istismarçısı, operatoru və istehsalçısı arasında məsuliyyət bölgüsünün dəqiq müəyyən edilməsi təklif olunur.

Bununla yanaşı, avtomobil nəqliyyatı vasitələrinin fərqləndirilməsi məqsədi ilə xüsusi  tanınma nişanı  tətbiq edilir, həmçinin mülki təyinatlı avtonom pilotsuz uçuş aparatları  dövriyyəsi xüsusi icazə tələb olunan əşyaların siyahısına daxil edilir.

Hörmətli deputatlar, birinci oxunuş zamanı çıxış edən həmkarlar qanun layihəsinin əhəmiyyətini yüksək dəyərləndirmiş və əlavə təkliflər səsləndirməmişlər. Qanun layihəsinin qəbulu ölkəmizdə rəqəmsal nəqliyyat ekosisteminin formalaşdırılmasına, innovativ texnologiyaların təhlükəsiz tətbiqinə və bu sahədə hüquqi tənzimləmənin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsinə mühüm töhfə verəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm və qanun layihəsinin ikinci oxunuşda dəstəklənməsini xahiş edirəm.

**Sədrlik edən.** Azər müəllim, ətraflı məlumata görə çox sağ olun.

Hörmətli həmkarlar, bu qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılmışdır. Əli müəllim, məlumatı özünüz verəcəksiniz. Buyurun.

**Əli Hüseynli.** Hörmətli sədr, komitəmizin profilinə uyğun olaraq “Yol hərəkəti haqqında” Qanuna baxılmışdır. Biz birgə komitə iclasında da iştirak etmişik. Artıq hörmətli Azər müəllim geniş məlumat verdi. Burada məqsəd bütövlükdə avtomobil nəqliyyatı sisteminin avtonom istifadəsi ilə bağlı həm hüquqi əsaslardır, – komitəmiz tərəfindən dəstəklənir, – həm də nəqliyyat sistemində həyata keçirilən islahatların gələcəyə çox pozitiv bir baxışıdır.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Hörmətli həmkarlar, ikinci oxunuşdur deyə, xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Yazılan yoxdur. Səsverməyə keçirik, maddələr üzrə səs verəcəyik. Bu qanun layihəsində 7 maddə var. Mən onların üçünü bir, dördünü də bir səsə qoyacağam. İndi isə xahiş edirəm, 1–3-cü maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
| --- | --- |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

1–3-cü maddələr qəbul edildi.

İndi mən qalan 4 maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.24 dəq.) |
| --- | --- |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.24 dəq.) |
| --- | --- |
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” 2025-ci il 9 dekabr tarixli Qanunun

icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün yenə də mən Azər Badamova söz vermək istəyirəm. Azər müəllim, buyurun.

**Azər Badamov.** Minnətdaram. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. Bu qanun layihəsi də birinci oxunuş zamanı ətraflı təqdim edilmişdir.

İkinci oxunuşun tələblərinə uyğun olaraq qısa şəkildə bildirmək istərdim ki, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda mopedlərin dövlət qeydiyyatına alınması, onlara dövlət qeydiyyat nişanının verilməsi və onların "A1" kateqoriyalı sürücülük vəsiqəsi əsasında idarə olunması müəyyən edilmişdir. Təklif olunan qanun layihəsi isə bu dəyişikliklərdən irəli gələn əlaqədar qanunların uyğunlaşdırılmasını nəzərdə tutur. Bununla bağlı "Avtomobil yolları haqqında", "Dövlət rüsumu haqqında", "İcbari sığortalar haqqında" qanunlara müvafiq dəyişikliklər təklif edilir. Belə ki, layihəyə əsasən mopedlər avtomobil yollarından istifadə edən nəqliyyat vasitələri sırasına daxil edilir. Onların texniki baxışdan keçirilməsi, dövlət qeydiyyatına alınması, onlara dövlət qeydiyyat nişanının, qeydiyyat şəhadətnaməsinin verilməsi, habelə sürücülük vəsiqəsinin verilməsi və dəyişdirilməsi ilə bağlı dövlət rüsumlarının tətbiqi müəyyən olunur.

Eyni zamanda, qeydiyyata alınmış mopedlərin istifadəsi ilə bağlı üçüncü şəxslər qarşısında mülki məsuliyyətin icbari sığortalanması da nəzərdə tutulur. Bu dəyişikliklər mopedlərin yol hərəkətində tamhüquqlu iştirakçı kimi hüquqi tənzimləməni təmin etməklə yanaşı, yol hərəkəti təhlükəsizliyinin gücləndirilməsinə və bu nəqliyyat vasitələrinin istismarı

zamanı yarana biləcək risklərin daha səmərəli idarə olunmasına xidmət edir.

Hörmətli həmkarlar, qanun layihəsi birinci oxunuş zamanı plenar iclasda dəstəklənmiş, onun konsepsiyasına dair hər hansı irad və ya əlavə təklif irəli sürülməmişdir. Qanun layihəsini ikinci oxunuşda da dəstəkləməyinizi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Mən əsas kimi səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.27 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda əsas kimi qəbul edildi.

Görürəm ki, çıxış etmək istəyən yoxdur. Biz səsverməyə keçirik. Hörmətli həmkarlar, maddələr üzrə səs verəcəyik. Layihə 3 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.27 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci maddə qəbul edildi.

İndi 2-ci maddəni səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.28 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə qəbul edildi.

Növbəti 3-cü maddəni səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.28 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.28 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə 9 məsələ qalır və bu məsələlərin hamısı birinci oxunuşda olan qanun layihələridir. Ona görə yenə də xatırladıram, xahiş edirəm, birinci oxunuşun tələblərinə riayət edin.

Növbəti 5 məsələmiz möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Bu məsələlərin 4-ü mahiyyətcə bir-birinə yaxındır.

9-cu məsələ Kraudfandinq haqqında qanun layihəsidir, 10-cu məsələ Mülki Məcəllədə və daha 3 məcəllədə, “Dövlət rüsumu haqqında” Qanunda və digər 7 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir, 11-ci məsələ  Əmək Məcəlləsində və Mülki Məcəllədə, “Valyuta tənzimi haqqında” Qanunda və daha 3 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir, 12-ci məsələ isə Vergi və Miqrasiya məcəllələrində, “Sosial sığorta haqqında” Qanunda və daha 3 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir.

Hörmətli deputatlar, bu məsələlər və sonrakı 13-cü məsələ ilə əlaqədar dəvət edilən şəxslər var.  Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini hörmətli Elmin Məmmədov bizimlədir. Milli Kibertəhlükəsizlik Agentliyi İdarə Heyətinin sədri  hörmətli Fərid Zeynalov, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi İdarə Heyətinin sədri hörmətli Fərid Osmanov və agentliyin Hüquq departamentinin müdiri hörmətli Kaul Məmmədov iclasımızda iştirak edirlər. Mən qonaqlarımızı bir daha salamlayıram.

Hörmətli həmkarlar, təklif edirəm ki, əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək, daha sonra isə onları, həmişə olduğu kimi, birlikdə müzakirə edək, ancaq səsvermə, təbii ki, ayrı-ayrı qanunlar üzrə olacaq.

Qeyd edim ki, qanun layihələrinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələlərə dair məlumat vermək üçün, Azər müəllim, mən Sizə söz verirəm. Buyurun.

**Azər Əmiraslanov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisin müzakirəsinə təqdim edilmiş innovativ fəaliyyətin dəstəklənməsinə dair qanun layihələri dövlətimizin yeni mərhələdə rəqəmsal və texnoloji inkişaf sahəsində təşəbbüslərini və strateji hədəflərini əks etdirir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında qanun layihələrinin geniş təqdimatı keçirilmişdir. Aparılmış müzakirələr çərçivəsində səsləndirilən bəzi təklif və tövsiyələr hazırda qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırılmaqdadır. İkinci oxunuşda bu barədə məlumat veriləcəkdir.

Hörmətli xanım sədr, gündəliyə daxil olan dörd qanun layihəsinin birgə təqdimatını məqsədəuyğun hesab etdiyinizə görə Sizə təşəkkür edirəm. Çünki bu layihələr mahiyyətcə ayrı-ayrı sənədlər deyil, əslində, bir-biri ilə sıx bağlı olan vahid innovasiya zəncirinin hüquqi təminatını yaradan, inteqrasiya olunmuş qanunvericilik paketidir. Bu səbəbdən də həmin layihələri birləşdirən vahid dövlət strategiyasını, innovasiyalar sahəsində qanunvericilik təşəbbüslərini birinci oxunuşun tələblərinə uyğun konseptual olaraq təqdim etmək istərdim. Bu kontekstdə hazırkı təqdimatla qanun nəyi dəyişir sualına deyil, niyə bu qanunları qəbul edirik  sualına cavab verilməsini məqsədəuyğun hesab edirik.

Hörmətli həmkarlar, təbii ki, hər şeydən əvvəl ölkəmizdə qurulmaqda olan vahid rəqəmsal inkişaf arxitekturasını vurğulamalıyıq. O, bir tərəfdən, rəqəmsallaşma, süni intellekt, innovasiya ekosistemini və kibertəhlükəsizlik

üzrə fəaliyyət istiqamətlərini əhatə edir. Digər tərəfdən də, bütöv bir sistem kimi rəqəmsal dövlət idarəçiliyini, rəqəmsal iqtisadiyyatı və rəqəmsal cəmiyyəti özündə birləşdirir.

Əsas məqsəd ölkənin texnoloji potensialını gücləndirmək, innovasiyaya əsaslanan iqtisadi modelə keçidi sürətləndirmək və bu sahədə vahid dövlət siyasətini koordinasiyalı şəkildə həyata keçirməkdir.

İnnovasiyaların dövlət siyasətinin əsas istiqaməti olaraq elan edilməsi və müəyyənləşdirilməsi düşünülmüş, müasir çağırışları nəzərə alan uzunmüddətli strategiyadır. Strategiya dövlət siyasətini müəyyən edir, dövlət siyasəti innovativ iqtisadi modeli formalaşdırır, qanunvericilik isə həmin modeli dayanıqlı hüquqi sistemə çevirir.

Təsadüfi deyildir ki, Prezident İlham Əliyev rəqəmsal inkişafı dövlətimizin gələcəyini müəyyən edən mühüm amil kimi xüsusi vurğulamışdır. Təqdim etdiyimiz qanun layihələri də məhz həmin strateji baxışın qanunvericilik müstəvisində həyata keçirilməsinə xidmət edir.

Xatırlatmaq istərdim ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in üçüncü strateji istiqaməti rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı adlandırılmışdır. Azərbaycanda rəqəmsal inkişaf sahəsində həm strateji baxışı müəyyən edən rəqəmsal inkişaf konsepsiyası, süni intellekt strategiyası, həm də icranı təmin edən rəqəmsal inkişafın sürətləndirilməsinə dair fəaliyyət planı təsdiq olunmuşdur. Bunun məntiqi davamı olaraq 2026-cı il fevral ayının 11-də dövlət başçısının sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə keçirilmişdir. Bu tədbir rəqəmsal inkişafla bağlı siyasi iradəni bir daha nümayiş etdirdi.

Hörmətli deputat həmkarlar, rəqəmsal keçidin sürətlənməsi, nəzərdə tutulan tədbirlərin səmərəli icrası prosesin institusional aspektlərinə zəruri diqqət yetirilməsini şərtləndirir. Rəqəmsal transformasiya sistemli xarakter daşıdığına görə bu sahədə dövlət orqanlarının birgə fəaliyyəti və müvafiq təşkilati mexanizmin yaradılması tələb olunur.

Bu kontekstdə xatırlatmaq istərdim ki, 11 fevral tarixli müşavirədə Prezident İlham Əliyev rəqəmsal keçid sahəsində dövlət qurumları arasında sıx koordinasiyanın aparılmasını, pərakəndəliyə yol verilməməsini xüsusi olaraq tapşırmışdı. Bu məqsədlə az bir müddətdən sonra Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Rəqəmsal İnkişaf Şurası yaradılmışdır. Şuranın ilk iclasında müvafiq proqramların icrası, innovasiya siyasətinin vahid yanaşma əsasında həyata keçirilməsi və bu sahədə qanunvericilik bazasının formalaşdırılması məsələləri geniş müzakirə edilmişdir.

Formalaşmış institusional çərçivə rəqəmsallaşma ilə bağlı hər bir qurumun fəaliyyət dairəsini və mandatını müəyyən edir. Belə ki, rəqəmsal inkişaf strategiyası Prezident tərəfindən müəyyən edildikdən sonra onun icrasını hökumət həyata keçirir, hüquqi bazasını isə parlament formalaşdırır.

Hörmətli həmkarlar, Azərbaycanın rəqəmsal inkişaf arxitekturası, siyasi iradəyə əsaslanan strateji baxış artıq ölkə ictimaiyyətinə təqdim edilmişdir. İndi isə bu strategiyanın hüquqi arxitekturasının qurulması zərurəti yaranır. Strategiya inkişafın məqsədini və istiqamətini müəyyən edir, qanunvericilik isə həmin inkişafın dayanıqlığını, hüquqi mexanizmlərini təmin edir. Strategiya siyasi iradəni ifadə edir, qanunlar isə həmin siyasi iradəni hüquqi normaya çevirir.

İnnovativ iqtisadiyyat platformasında yeni maliyyələşdirmə mexanizmləri, investorların hüquqlarının etibarlı müdafiəsi, intellektual mülkiyyətin qorunması, startapların təşviqi, heç şübhəsiz, qanunla təmin edilməlidir.

Müzakirəyə çıxarılan qanun layihələri ölkə rəhbərliyi tərəfindən elan edilmiş strateji kursun məntiqi davamıdır və mahiyyət etibarı ilə innovativ iqtisadiyyatın hüquqi əsaslarının yaradılmasına xidmət edir. Eyni zamanda, bu layihələr innovasiyalar sahəsində özəl sektorun genişlənməsini, bu sahəyə investisiyaların cəlb edilməsini və Azərbaycanın regional innovasiya mərkəzlərindən birinə çevrilməsini dəstəkləyən mühüm qanunvericilik təşəbbüsü kimi dəyərləndirilməlidir.

Hörmətli həmkarlar, Azərbaycan rəqəmsallaşma üzrə qlobal transformasiyanın iştirakçısı olduğuna, ciddi hədəflər qarşıya qoyduğuna görə dünyada bu sahədə baş verən meyillərin öyrənilməsini və təhlil olunmasını vacib hesab edirik. Nəzərə almalıyıq ki, dünya iqtisadiyyatı yeni inkişaf mərhələsinə daxil olmuşdur. İndi ölkələrin iqtisadi gücü və rəqabət üstünlüyü ənənəvi istehsal amilləri, o cümlədən təbii sərvətlərlə deyil, innovasiya və yeni texnologiyalar yaratmaq, onları iqtisadi dövriyyəyə cəlb etmək və yüksək əlavə dəyər formalaşdırmaq qabiliyyəti ilə ölçülür.

Təsadüfi deyildir ki, hazırda qlobal rəqəmsal iqtisadiyyatın həcmi təxminən 24 trilyon dollara çataraq dünya üzrə ümumi daxili məhsulun 21 faizini təşkil edir. Bu o deməkdir ki, dünyada yaradılan hər 5 dollarlıq əlavə dəyərin təxminən 1 dolları innovativ iqtisadiyyatın payına düşür. Rəqəmsal sektor üzrə illik artım tempi 8-9 faiz olmaqla ənənəvi iqtisadiyyatdakı 3,1 faizlik artımı təxminən üç dəfəyədək qabaqlayır.

Dünyada rəqəmsal xidmətlərin ixracı 4 trilyon dolları keçib. Bu rəqəmlər onu göstərir ki, gələcəyin iqtisadiyyatında əsas ixrac məhsulu xammal deyil, yüksək əlavə dəyər yaradan texnoloji xidmətlər olacaqdır.

Hörmətli həmkarlar, sual oluna bilər ki, Azərbaycanda rəqəmsal iqtisadiyyatın qurulması niyə bu qədər strateji və həyati əhəmiyyət kəsb edir? Hansı səbəbdən dövlət özünün bütün inzibati və iqtisadi resurslarını bu məqsəd naminə səfərbər edir? İnnovasiya təşəbbüslərinin dəstəklənməsi nə üçün bu qədər vacibdir?

Son illər dünya iqtisadiyyatında müşahidə olunan inqilabi texnoloji dəyişikliklər ölkələrarası rəqabətin daha da artması ilə bağlıdır. Perspektiv dövr dərin rəqəmsallaşma, yeni texnologiyaların aktiv tətbiqi ilə səciyyəvi olacaqdır. Məhz buna görə də innovativ inkişaf bizim üçün artıq seçim deyil, zərurətdir.

Azərbaycan dünyada artan rəqabətə hazır olmaq məqsədi ilə yüksək rəqabətqabiliyyətli insan kapitalını formalaşdırmalıdır. İnnovativ iqtisadiyyat da elə insan kapitalından başlayır. Bundan ötrü maariflənmiş rəqəmsal cəmiyyət, müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait ən vacib şərtlərdən biridir.

Rəqəmsallaşma strategiyası, əslində, innovasiyaya əsaslanan yeni iqtisadi artım konsepsiyasına keçidi nəzərdə tutur. Bunun real nəticələri rəqəmsal sektorun milli iqtisadiyyatda, o cümlədən ixracın strukturunda payının artması ilə xarakterizə olunacaqdır. Hazırda bu göstəricilər ölkəmizin potensialını əks etdirmir. Belə ki, innovasiya sektorunun gəlirləri təxminən 1 milyard manat, ixrac həcmi isə 100 milyon dollar təşkil edir. Müvafiq strategiya çərçivəsində bu rəqəmlərin azı 10 dəfəyədək artırılması hədəflənir. Buna nail olmaq üçün yeni dəyər yarada bilən innovasiya

ekosisteminə xüsusi əlverişli şərait yaratmalıyıq. Müzakirə etdiyimiz qanunvericilik paketi məhz bu məqsədə xidmət edir.

Hörmətli millət vəkilləri, innovasiya yeni ideyanın yaranması deməkdir. Lakin ideya öz-özlüyündə iqtisadi dəyər yaratmır. O, yalnız maliyyələşdirildikdə, biznesə çevrildikdə, bazara çıxarıldıqda və kommersiyalaşdırıldıqda yeni iqtisadi dəyər yaradır. Əgər rəqəmsal iqtisadiyyat yeni inkişaf modelidirsə, innovasiya onun hərəkətverici qüvvəsidir. Startaplar isə innovasiyanın əsas daşıyıcısıdır.

İnnovativ iqtisadiyyatın mahiyyətini innovasiya zənciri vasitəsi ilə daha aydın təsəvvür etmək mümkündür. Bu zəncir bilikdən başlayır, ideya, innovasiya və startapa çevrilir, daha sonra vençur kapitalı və digər müasir maliyyələşdirmə alətləri ilə dəstəklənir. Nəticədə innovativ məhsul və xidmətlər yaranır, ixrac genişlənir, yüksək əlavə dəyər formalaşır, dayanıqlı və keyfiyyətli iqtisadi artım təmin edilir. Təklif olunan qanunvericilik paketi də məhz bu innovasiya zəncirinin ayrı-ayrı həlqələrinin hüquqi əsaslarını formalaşdırır.

Hazırda ölkəmizdə startapların inkişafını təmin edən müasir maliyyələşdirmə mexanizmlərinin hüquqi bazası kifayət qədər formalaşmayıb. Təklif olunan qanun layihələri bu boşluğu aradan qaldırmaqla yerli və xarici investorların texnoloji sektora cəlb edilməsinə, innovasiya ekosisteminin genişlənməsinə təkan verəcəkdir.

Hörmətli həmkarlar, təqdim olunan qanun layihələrinin müddəalarını, sadəcə, yeni tənzimləyici hüquq normalarının təsbiti, qanunlara ənənəvi dəyişikliklər kimi qəbul etməməliyik. Bu təşəbbüslər innovasiya iqtisadiyyatının təşəkkülü istiqamətində atılan sistemli addımlardır və onun əsas missiyası Azərbaycan iqtisadiyyatını daha texnologiyayönümlü və

daha dayanıqlı etməkdir. Tarixi təcrübə göstərir ki, texnologiyalar iqtisadiyyatı dəyişir, amma qanunlar həmin dəyişiklikləri davamlı və dayanıqlı inkişaf modelinə çevirir.

Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Təqdim edilən innovativ qanun layihələri həm də “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı”nın icrasından irəli gəlir. Layihələrin məqsədi vençur, kraudfandinq və mələk investor kimi maliyyələşmə alətlərinin milli qanunvericilikdə tanınmasını təmin etməkdir. Həmçinin bu layihələr rəqəmsal cəmiyyətin çoxsaylı anlayışlardan ibarət müasir innovativ leksikonunu da formalaşdırır.

Qanunvericilik paketi innovasiya layihələrinin həyata keçirilməsində özəl sektoru ciddi şəkildə təşviq edəcəkdir. Nəzərə almalıyıq ki, dövlət innovasiyanı yaratmır. Dövlət innovasiyanın yaranması üçün hüquqi, institusional və maliyyə mühitini formalaşdırır. İnnovasiyanın əsas daşıyıcısı özəl sektor, startaplar, investorlar və təhsil və tədqiqat müəssisələridir.

Hörmətli həmkarlar, gündəliyin 9-cu məsələsi olan Kraudfandinq haqqında qanun layihəsi innovasiya layihələrinin yeni maliyyələşmə mexanizmini hüquqi müstəviyə gətirir. Kraudfandinq vasitəsi ilə sahibkarlar, xüsusi ilə startaplar və kiçik biznes subyektləri çoxsaylı investorlardan rəqəmsal platformalar üzərindən vəsait cəlb edə biləcəklər.

Gündəliyin 10-cu məsələsi olan layihə 12 qanuna dəyişiklikləri nəzərdə tutmaqla uyğunlaşdırma xarakteri daşıyır. Bu, Kraudfandinq haqqında qanun layihəsinin qəbul edilməsindən sonra onun tətbiqi üçün zəruri və tamamlayıcı hüquqi baza yaradır. Müxtəlif məcəllə və qanunlarda edilən

dəyişikliklər kraudfandinq platformalarının fəaliyyətini ümumi hüquq sisteminə inteqrasiya edir.

Gündəliyin 11-ci məsələsi olan layihə 6 qanuna dəyişiklikləri təklif etməklə, mahiyyətcə innovativ sahibkarlığın maliyyələşdirilməsi üçün müasir investisiya və korporativ idarəetmə mexanizmlərini milli qanunvericiliyə gətirir, xüsusi ilə vençur kapitalı ekosisteminin formalaşdırılmasından ötrü hüquqi baza yaradır.

Gündəliyin 12-ci məsələsi olan qanun layihəsi 6 qanuna dəyişikliklərdən ibarət olmaqla innovasiya, rəqəmsal texnologiyalar və süni intellekt sahəsində çoxşaxəli güzəştlər və təşviqlər nəzərdə tutur.

Hörmətli xanım sədr, hörmətli həmkarlar. Əminik ki, təqdim edilən qanunvericilik paketi Azərbaycanın innovasiya əsaslı inkişaf modelinə keçidində mühüm hüquqi mərhələ olmaqla innovativ sahibkarlığın maliyyələşdirilməsi üçün yeni imkanlar yaradacaq və milli iqtisadiyyatımızda ciddi keyfiyyət dəyişikliklərinə təkan verəcəkdir. Bu baxımdan layihələrin birinci oxunuşda qəbul edilməsini məqsədəuyğun hesab edirik.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, 10-cu, 11-ci və 12-ci məsələlərə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılmışdır. Məsələlərə dair komitənin rəyini bildirmək üçün yenə də komitə sədri hörmətli Əli Hüseynliyə söz vermək istəyirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarım Azər Əmiraslanov bu layihələrin konseptual baxımdan çox geniş təqdimatını etdi. Həqiqətən, cənab Prezidentin yanında keçirilmiş

müşavirə, sonra fərman və yaradılmış işçi qrupu qısa zaman çərçivəsində çox böyük işlər görüblər. Əlbəttə, bizim vəzifəmiz isə bu yeni innovativ yanaşmanın qanunvericilik əsasını yaratmaqdan ibarətdir.

Əsas layihə Kraudfandinq haqqında qanun layihəsidir. Bununla bağlı onu qeyd edə bilərəm ki, Mülki Məcəllədə, Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunda və digər layihələrdə, Azər müəllimin söylədiyi kimi, uyğunlaşdırma xarakterli dəyişikliklərdir. Amma, əlbəttə, bu dəyişikliklər uyğunlaşdırma xarakterli olsa da, bizim söylədiyimiz kimi, xüsusən də Mülki Məcəlləyə yeni anlayışlar, yeni tələblər gəlir. Əminəm ki, həqiqətən, bu yanaşma sahibkarlığın inkişafına, ölkənin iqtisadi inkişafına xüsusi töhfə verəcəkdir.

Biz komitə olaraq bütün layihələri dəstəkləyirik. Bu, gələcəyə baxışdır. Bir daha söyləmək istəyirəm ki, ölkəmizin iqtisadi inkişafına çox böyük töhfə verəcəkdir.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Hörmətli həmkarlar, 11-ci və 12-ci məsələlərə Əmək və sosial siyasət komitəsində də baxılmışdır. Musa müəllim, buyurun, komitənin rəyini bildirin.

**Musa Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Qanun layihəsinin fəlsəfəsi və konsepsiyası barədə hörmətli həmkarımız Azər müəllim və hörmətli Əli müəllim ətraflı məlumat verdilər.

Bizim komitənin profilinə uyğun olaraq söyləmək istəyirəm ki, qanun layihəsində Əmək Məcəlləsinə və “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununa dəyişikliklər təklif olunur. Əmək Məcəlləsinə təklif olunan dəyişikliyə görə məcəlləyə işçilərin pay iştirakı planı haqqında müqavilə anlayışı daxil edilir, müqavilənin şərtləri və əmək münasibətlərinə xitam verilməsinin işçilərin pay iştirakı planı haqqında müqaviləyə təsiri qaydaları müəyyən edilir. İşçilərin pay və səhm iştirakı planı haqqında müqavilə startap və texnologiya şirkətlərinin idarə olunmasında və uğur əldə edilməsində mütəxəssislərin məsuliyyətini və marağını daha da artıracaqdır. Bu mexanizm şirkətlərə yüksək ixtisaslı mütəxəssislərin cəlb edilməsi və davamlı fəaliyyət göstərməsi üçün vacib alətdir. İşçi şirkətdə əməkhaqqı almaqla yanaşı, onun uğuru daha da maraqlı olacaqdır. Çünki şirkət böyüdükcə, gəlirlər artdıqca işçinin də payı və səhmlərinin dəyəri artacaqdır.

“Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununa təklif olunan dəyişikliyə görə rəqəmsal iqtisadiyyat subyektləri üçün diferensiallaşdırılmış güzəştli rejim nəzərdə tutulur. Rəqəmsal texnologiyalar, süni intellekt texnologiyaları, kibertəhlükəsizlik və innovasiya sektorunda çalışan şəxslər üçün aylıq gəlirin 200 manatadək olan hissəsinə 14 faiz, 200 manatdan 8000 manatadək olan hissəsinə 12 faiz, 8000 manatdan çox olan hissəsinə isə 10 faiz güzəştli dərəcə tətbiq edilir.

Təklif edilən dəyişikliklərin qəbul olunması süni intellekt və rəqəmsal texnologiya əsaslı iqtisadiyyatın inkişafı üçün geniş hüquqi baza yaradacaqdır, bu sahədə münasibətlərin tənzimlənməsinə xidmət etməklə yanaşı, əmək bazarında və məşğulluq sahəsində canlanmaya səbəb

olacaqdır. Rəqəmsal məhsul və xidmətlərin çeşidi çox olacaq, bu sahədə yeni mütərəqqi layihələrin ortaya çıxmasına stimul verəcəkdir.

Əmək və sosial siyasət komitəsində layihələr ətraflı müzakirə olunmuşdur. Komitənin rəyi müsbətdir və millət vəkillərindən dəstəkləmələrini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim.

Hörmətli həmkarlar, biz komitələrin rəylərini dinlədik. İndi isə müzakirəyə keçirik. Təklif var, 5 dəqiqəyə keçək. Hamı razıdır? Səsə qoymağa ehtiyac var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri. Azərbaycan iqtisadiyyatının yeni inkişaf mərhələsinə keçidi müxtəlif maliyyə mexanizmlərinin formalaşdırılmasını zəruri edir.

XXI əsrdə iqtisadiyyat artıq yalnız bank kreditləri, dövlət investisiyaları və iri maliyyə institutları üzərində qurulmur. Dünyada milyonlarca insan rəqəmsal platformalar vasitəsi ilə kiçik məbləğlərlə yeni ideyalara, innovativ layihələrə və sahibkarlıq təşəbbüslərinə sərmayə qoyur. Əslində, kraudfandinqin mahiyyəti çox sadədir. Təsəvvür edin ki, gənc bir mühəndis yeni texnologiya hazırlayıb və ya bir fermer istehsalını genişləndirmək istəyir, yeni məhsullarını bazara çıxarmağa hazırlaşır. Yaxşı ideyası var, amma bankın tələb etdiyi girovu yoxdur, ənənəvi maliyyə mənbələrinə çıxışı da məhduddur. Kraudfandinq isə minlərcə insanın belə layihələrə kiçik məbləğlərlə qoşulmasına imkan yaradır. Bir nəfərin gerçəkləşdirə bilmədiyi layihəni yüzlərcə, hətta minlərcə insan birlikdə maliyyələşdirir.

Məhz buna görə də dünyanın aparıcı iqtisadiyyatları kraudfandinqi innovasiyanın, sahibkarlığın və iqtisadi fəallığın mühüm maliyyə alətlərindən biri sayırlar.

Azərbaycan da son illərdə iqtisadiyyatın şaxələnməsinə, qeyri-neft sektorunun inkişafına, kiçik və orta sahibkarlığın güclənməsinə çalışır. Belə bir şəraitdə kraudfandinq haqqında ayrıca qanunun qəbul edilməsi tamamilə zəruri addımdır.

Son 15 ildə dünya maliyyə bazarlarında baş verən ən mühüm yeniliklərdən biri məhz kraudfandinqin meydana çıxmasıdır. Əvvəllər yeni biznes qurmaq istəyən insanın yalnız iki yolu var idi: ya banka müraciət etməli idi, ya da imkanlı investor tapmalı idi. Lakin indi üçüncü maliyyələşmə modeli formalaşır. Minlərcə insan kiçik məbləğlərlə müxtəlif layihələrin investoruna çevrilə bilir.

Beynəlxalq araşdırmalar göstərir ki, minlərcə texnologiya şirkəti, istehsal müəssisəsi, sosial layihə və yaradıcı biznes ilk maliyyəsini məhz kraudfandinq vasitəsi ilə əldə edir. Qlobal kraudfandinq bazarının həcmi də ona görə son illərdə 100 milyard ABŞ dollarını ötüb. Dünya liderlərindən “Oculus” şirkəti məhz o əsaslarla yaranıb. Onlarca digər şirkətin adlarını saymaq olar.

1990-cı illərdə Azərbaycanda maliyyə piramidaları və qeyri-sağlam maliyyə modelləri minlərcə insanın vəsaitini təhlükə altına almışdı. Ona görə də qanunun əsas məqsədi yeni maliyyə aləti yaratmaqla birlikdə, həm də belə münasibətləri dövlət nəzarətinə götürmək, vətəndaşların vəsaitlərini qorumaqdır.

Maliyyə piramidasında və ya beynəlxalq praktikada məşhur olan Ponzi sxemində əvvəlki iştirakçılara ödəniş yeni cəlb olunan insanların vəsaiti

hesabına edilirdi. Real iqtisadi fəaliyyət və ya investisiya layihəsi olmurdu, sistem yalnız yeni iştirakçılar gəldiyi müddətdə yaşayır, sonda da qaçılmaz şəkildə dağılırdı. Kraudfandinqdə isə vəsait konkret layihəyə və biznesə yönəldilir. İnvestor əvvəldən bilir ki, investisiya riski var və gəlir yalnız layihənin uğurundan asılıdır. Ona görə də bu, kapitaldan çox ictimai etimad əsaslı bir prosesdir.

Ona görə təqdim olunan layihə Mərkəzi Banka mühüm tənzimləmə səlahiyyətləri verir. Fəaliyyət şərtlərinin müəyyən edilməsi, investorların məlumatlandırılması, risklərin açıqlanması və nəzarət mexanizmlərinin yaradılması bilavasitə Mərkəzi Banka həvalə edilir. Bu, təkcə texnologiya sferalarında deyil, kənd təsərrüfatı, sənaye və enerji layihələrində, turizm sahəsində də tətbiq olunur. Eyni zamanda, bu, yalnız paytaxt əsaslı iqtisadiyyat deyil. Bunun regionlarda, daha geniş coğrafiyalarda yayılmaq imkanları var.

Avropa İttifaqı ölkələrinin hamısında bu, uğurlu bir layihəyə çevrilib. Burada hörmətli Azər müəllim qeyd etdi, xüsusi ilə bank kreditləri, qiymətli kağızlar bazarı, investisiya fondları, sığorta sektoru bu prosesin əsas aktiv iştirakçılarından biridir. Ona görə də bu sahədə ən məşhur şüar belədir: “Yaxşı ideya maliyyə çatışmazlığı ucbatından yarımçıq qalmamalıdır”.

Düşünürük ki, layihə çox yerində, yəni zamanında hazırlanıb və ona səs verəcəyik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar və media nümayəndələri. Kraudfandinq haqqında qanun layihəsi, sadəcə, növbəti hüquqi sənəd deyil. Əgər bu sahə bürokratik əngəllərə, inzibati

süründürməçiliyə və bazarda müəyyən təcrübəsi olanların yaratdığı inhisarçılığa qurban verilməzsə, bu qanun ölkəmizin rəqəmsal iqtisadiyyat ekosistemində, xüsusi ilə startapların və kiçik sahibkarlığın maliyyələşməsində inqilabi dönüşün hüquqi bazasını yaradacaq.

Hamımıza məlumdur ki, yaxşı ideyası olan gənclərimiz və startaplarımız bankdan kredit almaq istəyəndə ağır girov tələbləri və yüksək faizlər ilə üzləşirlər. Bu qanun isə onlara rəqəmsal platformalar vasitəsi ilə birbaşa insanlardan və investorlardan vəsait toplamaq, öz ideyalarını həyata keçirmək üçün lazım olan alternativ maliyyə imkanları yaradır və bu, çox gözəldir.

Bu qanunun qəbulu ilə kapital bazarlarına çıxış daha əlçatan olur. Ümid edirəm ki, bu sahəyə, həqiqətən, sərbəstlik veriləcək, əlavə maneələr yaradılmayacaq və sağlam rəqabət təmin olunacaq. Belə olan halda, artıq təkcə böyük şirkətlər və imkanlı investorlar deyil, cibində cəmi 100 manatı olan vətəndaş da perspektivli bir startapa yatırım edə biləcək, onun inkişafında pay sahibi ola biləcək. Bu, həm insanların yığımlarının iqtisadiyyata cəlb olunmasına, həm də yeni ideyaların daha sürətlə reallaşmasına ciddi töhfə verəcək. Bunun üçün də elə bu gündən hər bir kəs səfərbər olaraq maarifləndirmə işlərinə başlamalıdır. Çünki cəmiyyətimizin bu sahədə bilik və məlumat səviyyəsi hələ də çox aşağıdır. İnsanlar həm imkanları, həm də riskləri düzgün başa düşməlidirlər ki, düzgün də qərar verə bilsinlər.

Layihənin müsbət cəhətləri çoxdur. Layihədə həm pay müqabilində, həm də borc şəklində vəsait toplamaq imkanının nəzərdə tutulması yaxşıdır. Eyni zamanda, investorların vəsaitlərinin qorunması, məlumatların açıq şəkildə təqdim edilməsi və mümkün risklər barədə

əvvəlcədən xəbərdarlıq edilməsi kimi vacib qaydalar da qanunda öz əksini tapıb. Bu da çox yaxşıdır.

Amma bir narahatlığı da deməliyik. Bu qanun həddindən artıq bürokratik tətbiq olunsa, istənilən nəticə əldə edilməyəcək. Əgər platforma yaratmaq üçün aylarla icazə gözləmək, çoxsaylı sənəd toplamaq, hər xırda dəyişiklik üçün ağır prosedur keçmək lazım olacaqsa, bu sahə inkişaf edə bilməz.

Kraudfandinqin ruhu çeviklikdir. Startapın vaxtı yoxdur. İdeya bu gün aktualdırsa, maliyyə də bu gün tapılmalıdır. Deməyim odur ki, ən azı bu sahədə fəaliyyətə başlamaq istəyənlər üçün qeydiyyat prosesi mümkün qədər sadə olmalıdır. İlkin mərhələdə müəyyən səhvlərin olması qaçılmazdır. Çünki bu sahədə təcrübəmiz hələ yoxdur. Ona görə də bazara giriş üçün imkan yaradılmalı, sonrakı mərhələdə isə təbii seçilmə prosesi getməlidir.

Eyni zamanda, Mərkəzi Bank tərəfindən ciddi nəzarət həyata keçiriləcək ki, dələduzlar və maliyyə fırıldaqçıları insanların maliyyə savadsızlığından istifadə edərək onları aldatmasınlar.

Ona görə də təklifim budur ki, qanunun icrasında üç əsas prinsip rəhbər tutulsun: sadə qeydiyyat, şəffaf nəzarət və investorların maarifləndirilməsi. İnsan bilməlidir ki, kraudfandinq bank əmanəti deyil, burada risk də var, amma, eyni zamanda, yüksək gəlir əldə etmək imkanı da.

Qanunu dəstəkləyirəm, lehinə səs verəcəyəm. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Nizami Səfərov. Buyurun.

**Nizami Səfərov.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisin müzakirəsinə təqdim olunan Kraudfandinq haqqında qanun layihəsi rəqəmsal transformasiya dövründə müvafiq startapın, biznes layihəsinin, investorların pul vəsaitlərinin cəlb edilməsi məqsədi ilə kraudfandinq platforması vasitəsi ilə maliyyələşdirməni nəzərdə tutan unikal iqtisadi, sosial və texnoloji instrumentin fəaliyyəti üçün hüquqi əsasları formalaşdırır.

Azərbaycanın hüquqi məkanında “kraudfandinq” termini ilk dəfə dövlət başçısının 2025-ci il 10 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün Strategiya”da əksini tapmışdır. İnnovasiya fəaliyyətinin təşviqi müasir dövrün tələblərinə cavab verən və gələcək inkişafa töhfə vermək potensialı olan layihələrin, proqramların, biznesin dəstəklənməsini ehtiva edir. Ənənəvi kredit təşkilatları ilə, banklarla, Vençur fondları ilə, birjalarla müqayisədə kraudfandinq daha əlçatan, sadə formada, yəni girov, kredit tarixçəsi tələb edilmədən və digər şərtlərdən asılı olmayaraq reallaşdırıla bilir. Maliyyə resurslarının maneəsiz cəlb olunması üçün əlverişli vəsaitdir.

Kraudfandinqin nisbətən qısa tarixçəsi var. İlk dəfə 2000-ci illərin əvvəlində Amerika Birləşmiş Ştatlarında təsis olunan rəqəmsal investisiya platformaları bu əhəmiyyətli institutun başlanğıcı idi. Sonradan isə dünyanın bir çox ölkələrində kraudfandinq mexanizmi fəaliyyətə başladı. Geniş yayılan beynəlxalq iqtisadi və hüquqi termini amerikalı jurnalist Ceff Hau 2006-cı ildə leksikona daxil etmişdir. Məlumat üçün bildirmək istərdim

ki, onlayn platformalar vasitəsi ilə maliyyə vəsaitlərinin cəlb olunmasının ümumi həcmi 2025-ci ildə 29 milyard ABŞ dollarına çatmışdır.

Hörmətli deputatlar, Milli Məclisin müzakirəsinə təqdim olunan layihənin hazırlanması Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı” üzrə tədbirlər planında müəyyən edilmişdir. Konseptual baxımdan milli qanunvericilik sisteminə yeni hüquqi tənzimləməni nəzərdə tutan normativ hüquqi aktın daxil edilməsi bir sıra əhəmiyyətli faktorlarla şərtləndirilir.

İlk növbədə qeyd olunmalıdır ki, müzakirəyə təqdim edilən layihə ölkədə uğurla həyata keçirilən rəqəmsallaşmanın və rəqəmsal iqtisadiyyatın formalaşması istiqamətində fəaliyyətin mühüm nəticəsidir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclasında qeyd olunduğu kimi, rəqəmsallaşma irimiqyaslı hüquqi islahatlar, innovasiya və rəqəmsal iqtisadiyyatın səmərəliliyinin artırılmasına xidmət edən hüquqi mühitin təkmilləşdirilməsini əhatə edir və qabaqcıl beynəlxalq təcrübəyə əsaslanır.

Layihənin hüquqi çərçivəsi daxilində kraudfandinqin ümumi xarakter daşıyan definisiyaları, operatorun yaradılması, reyestrə daxil olunması və fəaliyyətinə dair tələblər, onlayn platformanın fəaliyyəti, layihə sahibinin və operatorun vəzifələri, investorlar qarşısında məsuliyyəti, kraudfandinq sahəsində dövlət tənzimləməsi və nəzarət məsələləri əhatə olunmuşdur.

Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin layihələrinin alternativ maliyyə mənbələrinə çıxışını, ümumiyyətlə, maliyyələşdirmənin

əlçatanlığını təmin edən yeni sosial-hüquqi institut əhəmiyyətli dərəcədə innovativ layihələrin gerçəkləşməsində və startapların inkişafında mühüm rol oynayacaq.

Qanun layihəsinin qəbulu əhəmiyyətli xarakter daşıyır və xüsusi ilə bank kreditlərinə alternativ olan müasir rəqəmsal maliyyələşdirmənin formalaşmasına ciddi təkan verəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Şahin İsmayılov. Buyurun.

**Şahin İsmayılov.** Çox sağ olun. Hörmətli xanım sədr, əziz həmkarlar, bu gün müzakirə etdiyimiz Kraudfandinq haqqında qanun layihəsinə yeni maliyyə alətinin hüquqi tənzimlənməsi kimi baxmalı deyilik. Bu qanun layihəsi ölkəmizdə innovasiyanın, sahibkarlığın və vətəndaşların investisiya imkanlarının genişləndirilməsi istiqamətində mühüm bir sənəddir.

Müasir dövrdə iqtisadi inkişaf yalnız iri şirkətlər və ya banklar hesabına təmin edilmir. Dünyanın qabaqcıl ölkələrinin təcrübəsi göstərir ki, iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən biri məhz innovativ ideyalar, kiçik və orta biznes, yaradıcı təşəbbüslər və texnologiya startaplarıdır. Lakin belə layihələrin ən böyük problemi həmişə maliyyə resurslarına çıxış olmuşdur. Kraudfandinq məhz bu problemi həll edən müasir maliyyələşdirmə modelidir. O, minlərcə insanın kiçik məbləğlərlə böyük layihələrin maliyyələşdirilməsində iştirakına imkan yaradır. Beləliklə, cəmiyyət yalnız istehlakçı kimi deyil, eyni zamanda, iqtisadi inkişaf prosesinin fəal iştirakçısına çevrilir.

Bu qanunun qəbulunun bir neçə mühüm nəticəsi olacaqdır. Əvvəla, startapların və innovativ sahibkarlığın inkişafı sürətlənəcək. Bu gün bir çox gəncin uğurlu biznes ideyası olsa da, bank krediti əldə etməkdə çətinlik çəkir və ya girov təqdim edə bilmir. Kraudfandinq həmin ideyaların bazara çıxmasına real imkan yaradacaqdır.

İkincisi, kiçik və orta sahibkarlığın maliyyəyə çıxışı genişlənəcək. Bu isə yeni müəssisələrin yaranmasına, istehsalın artmasına və yeni iş yerlərinin açılmasına xidmət edəcəkdir.

Üçüncüsü, ölkədə investisiya mədəniyyəti formalaşacaqdır. Vətəndaşlar həm də investor kimi iqtisadi proseslərdə iştirak edəcəklər. Hətta kiçik məbləğlərlə belə perspektivli layihələrə sərmayə qoymaq mümkün olacaqdır.

Dördüncüsü, rəqəmsal və maliyyə ekosistemi inkişaf edəcək. Elektron ödəniş sistemləri və innovativ maliyyə platformaları üçün yeni imkanlar yaranacaqdır.

Beşincisi, qanunun şəffaflığı investorların hüquqlarının müdafiəsini təmin edəcəkdir. Hüquqi tənzimləmə olmadığı halda həm təşəbbüs müəllifləri, həm də investorlar risklərlə üzləşirlər. Yeni qanun bu münasibətləri aydın qaydalar əsasında formalaşdıracaq.

Dünya təcrübəsi göstərir ki, kraudfandinq iqtisadi inkişaf üçün çox uğurlu mexanizmdir. Birləşmiş Krallıq bu sahədə dünyanın ən uğurlu ölkələrindən biridir. Burada kraudfandinq vasitəsi ilə minlərcə kiçik biznes maliyyələşdirilib və ölkə Avropanın aparıcı startap mərkəzlərindən birinə çevrilib.

Avropa İttifaqı isə vahid kraudfandinq qaydaları tətbiq etməklə üzv ölkələrdə sərhədlərarası investisiyaları asanlaşdırıb, investorların müdafiəsini gücləndirib və bu, bazarın sürətli inkişafına təkan veribdir.

Bu təcrübələr sübut edir ki, düzgün hüquqi tənzimləmə olduqda kraudfandinq innovasiyanın, sahibkarlığın və məşğulluğun inkişafına xidmət edən güclü iqtisadi alətdir.

Azərbaycan son illər rəqəmsal iqtisadiyyatın inkişafı, innovasiya, startap ekosisteminin gücləndirilməsi və qeyri-neft sektorunun genişləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirir. Kraudfandinq haqqında qanun layihəsi də bu strateji xəttin məntiqi davamıdır.

Bu qanunun qəbul edilməsi gənclərin ideyalarını biznesə çevirməyə, alimlərin və tədqiqatçıların innovativ layihələrini maliyyələşdirməyə, yaradıcı sənayelərin inkişafına, sosial layihələrin həyata keçirilməsinə və regionlarda sahibkarlığın genişlənməsinə imkan yaradacaq.

Ən vacib olan isə odur ki, bu qanun insanların iqtisadi inkişafa birbaşa qoşulmasına şərait yaradacaq. Vətəndaşlar öz vəsaitlərini ölkənin gələcəyinə, yeni texnologiyalara, innovativ müəssisələrə və perspektivli biznesə yönəldə biləcəklər.

Əminəm ki, bu qanunun qəbul edilməsi Azərbaycan iqtisadiyyatının daha çevik, daha innovativ və daha rəqabətqabiliyyətli inkişafına mühüm töhfə verəcəkdir.

**Sədrlik edən.** Çox sağ olun, Şahin müəllim. Siz Gənclər və idman komitəsinin sədrisiniz. Təbii ki, bu qanun gənclər üçün çox geniş imkanlar yaradacaq. Bununla bağlı Siz başda olmaqla komitənizin üzvləri mediada açıqlamalar verə bilərsiniz. Xahiş edirəm, bunu edin.

Müşfiq Cəfərov. Buyurun.

**Müşfiq Cəfərov.** Hörmətli xanım sədr, dəyərli millət vəkilləri, hörmətli hökumət nümayəndələri və media üzvləri. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində birinci oxunuşda müzakirə olunan Kraudfandinq haqqında qanun layihəsi ölkəmiz üçün tamamilə yeni bir səhifə açır. Lakin biz hamımız yaxşı anlayırıq ki, ən mükəmməl yazılmış qanun belə əgər vətəndaşda etibar qazandıra bilmirsə, sadəcə, kağız üzərində qalmağa məhkumdur.

Azərbaycan reallığında vətəndaşımızın yeni maliyyə alətlərinə qarşı təbii və haqlı bir ehtiyatı var. İnsanlarımız acı təcrübələrdən, müxtəlif maliyyə piramidalarından, internet üzərindən qurulan saxta layihələrdən ehtiyat edirlər. Buna görə də bu qanunun işlək olması üçün biz "bu layihə innovativdir" şüarından keçib, vətəndaşa sizin pulunuz necə qorunur sualının konkret cavabını verməliyik.

Dünyada kraudfandinqi populyar edən onun rəqəmsallığı deyil, dövlətlərin qurduğu sarsılmaz təhlükəsizlik divarıdır. Bu mənada iki fərqli və maraqlı qlobal təcrübəni diqqətinizə çatdırmaq istərdim. Birinci təcrübə inamı sarı vərəqə ilə qoruyan Malayziya təcrübəsidir. Malayziya kraudfandinqi tənzimləyən ilk islam ölkələrindən biridir. Onlar vətəndaşın etibarını qazanmaq üçün belə bir sistem qurdular. Platformada layihə yerləşdirən hər bir sahibkarın və operatorun keçmişi, məhkəmə tarixi, hətta sosial media nüfuzu belə Mərkəzi Bank tərəfindən maliyyə filtrindən keçirilir. Əgər ən kiçik bir şübhə olarsa, layihə bloklanır. Nəticədə vətəndaş bilir ki, dövlətin icazə verdiyi platformada saxtakarlıq şansı sıfıra bərabərdir.

Fransanın kollektiv hesabatlıq modeli. Fransada kraudfandinq vasitəsi ilə vəsait toplayan şirkətlər hər rüb qəpik-qəpik yığılan pulun hara xərcləndiyini vizual qrafiklərlə platformada xalqa hesabat verməlidirlər. Pul

yatıran sadə vətəndaş şirkətin daxili auditinə nəzarət edir. Şəffaflıq etibar yaradır, etibar isə milyardlarla avroluq investisiyanın axınına səbəb olur.

Bu qanunu Azərbaycanda necə işlək edəcəyik? Dəyərli həmkarlar, bizim qanun layihəsində məhz bu etibar mexanizmlərinin təməli də qoyulub. Bu sistemin Azərbaycanda real işləməsi üçün üç əsas sütunumuz var.

Birinci, ciddi dövlət filtri. Hər kəs kraudfandinq platforması aça bilməyəcək. Mərkəzi Bank bu operatorları ciddi reyestr nəzarətində saxlayacaq. Onların təsisçilərinin və benefisiar mülkiyyətçilərinin qüsursuz işgüzar nüfuzunu yoxlayacaq.

İkinci, dondurulmuş hesablar sistemi. Vətəndaşın layihəyə yatırdığı pul birbaşa sahibkarın cibinə getmir. Pul bankda xüsusi hesabda toplanır. Əgər layihə hədəflənən məbləği toplaya bilməsə və ya sahibkar vədini yerinə yetirməsə, Mərkəzi Bankın qaydalarına əsasən o vəsait avtomatik olaraq vətəndaşın hesabına geri qayıdır. Yəni “pulu topladım və qaçdım” ssenarisi texniki olaraq qeyri-mümkündür.

Üçüncü, emosional qorunma. Vətəndaşımız layihənin təsirinə düşüb emosional qərar verərsə, qanunun ona verdiyi yeddi günlük müddətdə heç bir cərimə ödəmədən fikrindən daşına bilər. Milli Məclis olaraq bizim hədəfimiz, sadəcə, bir qanun qəbul etmək deyil, Azərbaycanda rəqəmsal investor mədəniyyəti formalaşdırmaqdır. Vətəndaşımız əmin olmalıdır ki, onun “yastıq altında” saxladığı və ya bankda olan kiçik sərbəst vəsaiti dövlətin tam hüquqi zəmanəti altında ölkəmizin real sektoruna – kənd təsərrüfatına, gənclərin startaplarına yatırıla bilər və bunun nəticəsində həm vətəndaş, həm də dövlət qazanacaq.

Bu qanun layihəsi ölkədə şəffaf risklərdən sığortalanmış və tam tənzimlənən yeni bir maliyyə ekosisteminin əsasını qoyur. Layihəni dəstəkləyirəm və həmkarlarımı da bu inam ekosisteminin qurulmasının lehinə səs verməklə dəstək olmağa çağırıram.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Siz çıxışınıza başlayanda ehtiyatdan danışdınız. Dediniz ki, insanlar ehtiyat edəcək və sair. Suallar qoydunuz, özünüz də həmin suallara cavab verdiniz. Mənim Şahin müəllimə etdiyim təklif Sizə də aiddir. Görüşlərdə camaatı başa salmaq lazımdır. Mediaya açıqlamalar verin. İnsanlar oxuyurlar, onlar bizim seçicilərimizdir. Xahiş edirəm, Siz də o prosesə qatılın. Həmişə gənclər haqqında məsələlər qaldırırsınız. Bax, bu məsələdə də fəal olun, Siz də gəncsiniz.

Sahib Alıyev. Buyurun.

**Sahib Alıyev.** Hörmətli xanım sədr, dəyərli həmkarlar. Öncə mən gündəlikdəki qanunvericilik haqları ilə bağlı əhatəli çıxışına görə hörmətli Azər Əmiraslanova təşəkkürümü bildirirəm. Azər müəllimin bu çıxışı göstərdi ki, doğrudan, indiki rəqəmsal transformasiya dövrünün əsas reallıqlarından biri də ondan ibarətdir ki, gələcək əvvəlki dönəmlərdən daha sürətli gəlir, hətta bizim təsəvvür etdiyimizdən də qat-qat sürətlə gəlir. Bu baxımdan dövlətimiz onun fərqindədir və ona hazırdır.

Mən isə digər həmkarlarım kimi daha çox Kraudfandinq haqqında qanun layihəsi barədə öz fikirlərimi bildirmək istəyirəm. Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın sədrliyi ilə keçirilən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk toplantısından bir neçə gün sonra bu layihənin bizə təqdim edilməsi, fikrimcə, təsadüfi deyil. Burada birinci toplantıda qaldırılan məsələlərin bəzilərinin həlli

yönündə artıq çevik addımların atılmağa başlandığını görürük ki, onlardan biri məhz qanunvericiliyə ediləcək dəyişikliklərlə bağlıdır.

İkincisi, Kraudfandinq haqqında qanun rəqəmsal platformaların yaradılmasını, iqtisadiyyatda innovasiya və startapların önəmli mövqe qazanmalarını şərtləndirir ki, bu da sözügedən toplantıda üzərində dayanılan məsələlərdən idi.

Ümumiyyətlə, inkişaf etməkdə olan ölkələrdə kraudfandinq qanununun qəbulu maliyyə inklüzivliyini artırmaq, yəni bank hesabı və girovu olmadığı üçün kredit ala bilməyən sahibkarların maliyyə əldə etmək, kölgə iqtisadiyyatını azaltmaq və maliyyə mənbələrini şaxələndirmək, eləcə də şəffaflıq baxımından olduqca önəmlidir. Əlbəttə, kraudfandinq sahəsində inkişaf etmiş ölkələrin daha böyük uğurları var və az öncə həmkarlarım bunu Birləşmiş Ştatların, Fransanın timsalında göstərdilər. Eyni zamanda, inkişaf etməkdə olan ölkələrdən də Malayziyanın adı çəkildi ki, bəli, doğrudan da, Malayziyada bu qanundan sonra insanların məhz startaplara investisiya yatırımlarında dövlət nəzarətinin yerində olmasının çox mühüm rolu olub. Oradakı qiymətli kağızlar komissiyasının hesabatına görə, nəticədə vətəndaşların startaplara, investisiyalara yatırımları hər il orta hesabla 70-80 faiz artır.

Bu təcrübələri bölüşməyi mən ona görə uyğun sayıram, çünki biz özümüz də eyni ölkələrdən hesab olunuruq və bu baxımdan Mərakeşin də çox maraqlı təcrübəsi var. Bu qanunun tətbiqindən sonra xaricdə yaşayan mərakeşlilər də ölkələrində startaplara vəsait yönləndirməyə başladılar. Bundan gələcəkdə biz də faydalana bilərik. Çünki bizim yüz minlərcə soydaşımız başqa ölkələrdə yaşayır. Həmin ölkələrdən biri də Rusiyadır və yeri gəlmişkən, orada da kraudfandinqin hər iki forması tətbiq olunur. Bizim

layihədə nəzərdə tutulduğu kimi, məhz bütün proseslərə Mərkəzi Bank nəzarət edir. Nəticədə orada da 70-100 faiz arası hər il artım nəzərə alınır. Amma biz görürük ki, Rusiya ilə eyni vaxtda bu qanunu qəbul edən qardaş Qazaxıstanda vəziyyət bir az fərqlidir. Çünki orada insanlar bəzən kraudfandinqi maliyyə piramidaları ilə, ianələrlə dəyişik salırlar. Təəssüf ki, bu da etimad mühitinə mənfi təsir edir. Bu baxımdan mən fikirləşirəm ki, biz bütün platformalarda, hörmətli xanım sədr, Sizin də qeyd etdiyiniz kimi, bu məsələni təbliğ etməliyik. Bizim vətəndaşlar dərk etməlidirlər ki, xüsusi ilə də borc əsaslı kraudfandinq, əslində, bir növ, necə deyərlər, sələmdir, amma qanunun təşviq etdiyi, oksimoron kimi səslənəcək, xeyirxah sələmdir. Molla Pənah Vaqifin “Görmədim” müxəmməsindəkindən fərqli olaraq zər əhlini kərəm, kərəm əhlini zər qazandırır.

Üstəlik də, az öncə qeyd edildi, bizim iqtisadiyyatın həssas tərəfləri var. Bilirik ki, ümumi daxili məhsulun formalaşdırılmasında startapların, innovasiya sektorunun rolunun artırılması ilə bağlı müəyyən məsələlər var ki, orada da uğurlar əldə ediləcək.

Mən bu qanun layihəsinin lehinə səs verəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Sahib müəllim. Deyirsiniz təbliğ etmək. Burada təkcə təbliğ etmək deyil, maarifləndirmək, insanları başa salmaq lazımdır. Siz hər biriniz ayda iki dəfə seçicilərlə görüşürsünüz. Bu görüşlərdə həm təbliğ, həm də maarifləndirmə işi apara bilərsiniz. Eyni zamanda, mən həmişə deyirəm, jurnalistlər buradadırlar, xahiş edirəm, açıqlamalar verin, bu da bizim köməyimiz olar. Bu qanunu biz qəbul edirik. Bu qanunu yazanlardan başqa, burada oturanlar onun mahiyyətini yaxşı bilirlər. Çox sağ olun.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Çox təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar, son dövrlərdə dünya iqtisadiyyatında müşahidə olunan inqilabi-texnoloji dəyişikliklər şəraitində görünən odur ki, perspektiv həyat dərin rəqəmsallaşma, yeni texnologiyaların fəal tətbiqi ilə səciyyəvidir.

Bu gün müzakirə etdiyimiz Kraudfandinq haqqında qanun layihəsi və əlaqəli qanunlar ölkəmizin rəqəmsal gələcəyinə, startap ekosisteminə və gənc sahibkarlara verilən ən böyük strateji dəstək addımlarından biridir.

Biz yaxşı bilirik ki, bu gün startapların və kiçik bizneslərin qarşısında duran böyük maneə adətən maliyyə resurslarının əlçatanlığı olur. Çünki ənənəvi bank mexanizmləri çox vaxt yüksək riskli innovativ ideyaları maliyyələşdirməkdə çətinlik çəkir və ya ağır girov şərtləri tələb edir. Bu qanun layihəsi isə həmin maneələri tamamilə aradan qaldırır, rəqəmsal platformalar vasitəsilə hər bir parlaq ideya sahibinə, geniş investor kütləsinə birbaşa çıxış imkanı yaradır.

Burada ən təqdirəlayiq məqam həm də odur ki, qanun yalnız maliyyə tapmağı asanlaşdırmır, həm də Mərkəzi Bankın tənzimləyici rolu, xüsusi reyestr sistemi və investorların vəsaitlərinin tam toxunulmaz şəkildə qorunması mexanizmləri ilə bazarda güclü bir güvən mühiti formalaşdırır. İnvestorların hüquqlarının bu dərəcədə peşəkarlıqla qorunması ölkəmizə həm daxili, həm də xarici rəqəmsal investisiyaların axınını kəskin şəkildə sürətləndirəcəkdir.

Bu layihə möhtərəm Prezidentin rəqəmsal inkişafla bağlı fəaliyyət planının ruhuna tamamilə uyğundur və çox hörmətli Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Rəqəmsal İnkişaf Şurasının fəaliyyətinin çevik və effektivliyinin əyani sübutudur.

Biz burada haqlı olaraq xarici ölkələrin nümunəsi haqqında danışırıq. Amma unutmayaq ki, Azərbaycan müharibədən çıxmış bir ölkədir, çox mürəkkəb coğrafiyada yerləşir və bu şəraitdə inqilabi-texnoloji yeniliklərin realizəsi, əslində, tam yeni nümunə yaratmaq deməkdir. Görünən də odur ki, Azərbaycan, sözün əsl mənasında, öz nümunəsini bu sahədə də yaradır.

Əminliklə deyə bilərik ki, sənədin qəbulu Azərbaycanda yeni nəsil texnoloji şirkətlərin və milyardlıq startapların yaranmasına çox güclü təkan verəcəkdir. Buna görə də möhtərəm Prezidentin rəqəmsal inkişaf strategiyasının sütunlarından birinə çevriləcək bu mütərəqqi qanun layihəsini dəstəkləyirəm.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Mehriban Vəliyeva. Buyurun.

**Mehriban Vəliyeva.** Hörmətli sədr, hörmətli həmkarlar, hörmətli media mənsubları və qonaqlar. Bu gün birinci oxunuşda müzakirə etdiyimiz Kraudfandinq haqqında qanun layihəsi yeni maliyyələşdirmə mexanizmini tənzimləyən hüquqi sənəd olmaqla yanaşı, həmçinin ölkəmizdə innovasiya iqtisadiyyatının inkişafını sürətləndirən, sahibkarlığın maliyyə imkanlarını genişləndirən, özəl investisiyaların cəlb edilməsinə xidmət edən və gənc nəsli yaradıcı inkişafa yönləndirən mühüm islahatlardan biridir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətin əsas prioritetlərindən biri bilik, innovasiya və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli iqtisadiyyatın qurulmasıdır. Məhz bu məqsədlə cari ilin fevral ayında ölkənin rəqəmsal gələcəyini müəyyən edən mühüm qərarlar qəbul edildi,

Rəqəmsal İnkişaf Şurası yaradıldı və 2026–2028-ci illəri əhatə edən rəqəmsal inkişaf üzrə fəaliyyət planı təsdiq olundu. Bu sənəd rəqəmsallaşma, süni intellekt, innovativ ekosistem və kibertəhlükəsizlik sahələrində dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edir.

Bu strateji yanaşmanın davamı olaraq Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın sədrliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclasında innovasiya ekosisteminin maliyyə dayanıqlığının gücləndirilməsi, startapların dəstəklənməsi, rəqəmsal iqtisadiyyatın inkişafı və investisiya mühitinin daha da təkmilləşdirilməsi əsas prioritetlər kimi müəyyən edilmişdir.

Bu məqsədlə vençur maliyyələşdirilməsi, kraudfandinq və eyni zamanda, mələk investorlar institutunun hüquqi bazasının yaradılması, fondlar fondunun formalaşdırılması, yerli innovativ məhsulların dövlət satınalmalarında dəstəklənməsi, açıq məlumatların API-lar vasitəsi ilə biznes üçün əlçatan edilməsi, “Rəqəmsal Səyyah” və “Rəqəmsal İstedad” vizalarının tətbiqi, eləcə də frilanserlər üçün vergi güzəştləri nəzərdə tutulur.

Hörmətli həmkarlar, bu hədəflərə nail olmaq üçün hazırlanmış qanunvericilik paketi son illərin ən əhatəli hüquqi islahatlarından biri hesab edilir. Paket çərçivəsində 34 qanuna, 9 Prezident fərmanına və 3 Nazirlər Kabineti qərarına dəyişikliklərin edilməsi nəzərdə tutulur.

İlk dəfə olaraq innovasiya maliyyələşdirilməsinin bütün əsas alətləri vahid hüquqi sistemdə birləşdirilir, vençur kapital fondlarının fəaliyyəti üçün hüquqi baza yaradılır, tədqiqat və inkişaf fəaliyyətinə vergi stimulları tətbiq olunur, texnologiya şirkətləri üçün daha rəqabətqabiliyyətli fiskal mühit formalaşdırılır.

Bu sistemin mühüm elementlərindən biri də məhz bu gün müzakirə etdiyimiz Kraudfandinq haqqında qanun layihəsidir. Dünyanın aparıcı texnologiya şirkətlərinin əhəmiyyətli hissəsi fəaliyyətinin ilk mərhələsində məhz alternativ maliyyələşdirmə, o cümlədən kraudfandinq imkanlarından istifadə edib. Kraudfandinq yalnız maliyyə toplamaq vasitəsi deyil. Bu, innovativ ideyaya verilən ictimai etimaddır. Bu, gənc ixtiraçıya "sənin ideyana inanırıq" mesajıdır. Bu, kiçik sahibkara bank kreditindən asılı olmadan inkişaf etmək imkanıdır. Bu, investor üçün böyük kapitala malik olmadan perspektivli layihələrə sərmayə qoymaq fürsətidir. Ən əsası isə kraudfandinq innovasiyanı yalnız dövlətin deyil, bütün cəmiyyətin ortaq məsuliyyətinə çevirən müasir maliyyələşdirmə modelidir.

Bu sahədə hüquqi çərçivənin yaradılması investorların hüquqlarının qorunmasına, platformaların etibarlılığının artırılmasına və bazara inamın möhkəmlənməsinə xidmət edəcək.

Hörmətli həmkarlar, bununla yanaşı, hesab edirəm ki, qanun layihəsinin bəzi müddəalarına ikinci oxunuşa qədər yenidən baxılması faydalı olardı. Xüsusi ilə platforma operatorlarının məhdud məsuliyyətli cəmiyyət və yaxud səhmdar cəmiyyət formasının yaradılması, eləcə də operatorlar üçün ali təhsil tələbinin müəyyən edilməsi daha çevik yanaşmalar ilə əvəzlənə bilər. Düşünürəm ki, bu sahədə əlçatanlığın təmin edilməsi ən vacib məsələlərdən biridir. Bürokratik əngəllər olmadan texniki həllər və mexanizmlərin tətbiqi imkanları genişləndirilə bilər.

Beynəlxalq təcrübə göstərir ki, innovasiyanın əsas meyarı diplom deyil, bacarıq, təcrübə, yaradıcı düşüncədir. Bu gün dünyada ali təhsili olmadan qlobal innovasiyalara imza atan sahibkarlar kifayət qədərdir. Eyni zamanda, ölkəmizdə də tələbələr, peşə təhsili alan gənclər və hətta

məktəblilər arasında uğurlu startap müəllifləri, patent alan innovatorlar var və yetişir. Onların da bu imkanlardan bərabər şəkildə faydalanması innovasiya ekosisteminin daha da genişlənməsinə xidmət edəcək.

İnanıram ki, bu məsələlər müzakirə olunacaq.

Hörmətli həmkarlar, bu gün innovativ ideyaların əsas problemi ideyanın olmaması deyil, həmin ideyaların maliyyəyə çıxışıdır. Kraudfandinq haqqında qanun məhz bu maneəni aradan...

**Sədrlik edən.** Fikrinizi bitirdiniz? Çox sağ olun.

Azər Allahverənov. Buyurun.

**Azər Allahverənov**. Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli hökumət nümayəndələri və media təmsilçiləri. Burada biz bir sıra qanun layihələri ətrafında çox vacib müzakirələr aparırıq. Mən əsas diqqətimi Kraudfandinq haqqında qanun layihəsinə yönəltmək istəyirəm.

Məsələ bundadır ki, hörmətli Azər müəllim, hörmətli Zahid müəllim və digər həmkarlarımız da çıxışlarında qeyd etdilər ki, kraudfandinq layihəsi daha çox startap layihələrinin idarə olunması, sahibkarlığın inkişaf etdirilməsi, xüsusi ilə də gənclərin müəyyən innovativ ideyalarının həyata keçirilməsi üçün çox vacib bir alətdir. Müəyyən mənada mən də bu fikri dəstəkləyirəm, ən azından o səbəbdən ki, əgər dünya praktikasına nəzər salsaq, il ərzində ilkin xarici maliyyə mənbəyi kimi kraudfandinqdən istifadə olunma dinamikasına diqqət yetirsək, görürük ki, təqribən 42 faiz startap layihələrinin əsasında məhz kraudfandinq maliyyəsi və ya mənbəyi durur. Bu da çox geniş şəkildə istifadə olunur. Hətta dünya üzrə təqribən 120 milyondan çox investor bu prosesə cəlb edilib ki, nəticə etibarı ilə hörmətli

Zahid müəllim demişkən, il ərzində bura 100 milyarda qədər vəsait cəlb etmək mümkündür.

Bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Hörmətli Mehriban xanım kraudfandinq mexanizmlərinin məhdud məsuliyyətli cəmiyyətlər üzərindən və ya operator olaraq istifadə olunması məsələsini qeyd etdi. Biz yenə də dünya praktikasına diqqət yetiririk və görürük ki, kifayət qədər çox sayda beynəlxalq təşkilatlar var ki, orada mexanizm “donation-based crowdfunding” adlanır və onlar öz fəaliyyətlərini bütövlükdə məhz həmin kraudfandinq  hesabına qurmuş olurlar və bununla da bağlı dünya miqyasında humanitar, sosial xarakterli, xeyriyyə formatlı çoxsaylı tədbirlər həyata keçirirlər. Hətta geniş şəkildə qeyri-hökumət təşkilatlarında bu və ya digər layihələri, təşəbbüsləri dəstəkləmiş olurlar.

Azərbaycanda da buna bənzər nümunələr var. Düzdür, bəzi halda bu, fraqmentardır, bəzi halda, ola bilsin ki, burada pərakəndəlik var. Amma düşünürəm ki, bu qanun qəbul olunduqdan sonra yeni hüquqi çərçivələr müəyyən ediləcək, nəticə etibarı ilə qeyri-hökumət təşkilatları üçün, xüsusi ilə də qeyri-hökumət təşkilatlarının fəaliyyətlərini dəstəkləyən milli donor institutları üçün də yeni imkanlar açılmış olacaq ki, bu da nəticə etibarı ilə operator çevrəsinin bir qədər genişləndirilməsini zəruri edir.

Biz, eyni zamanda, burada kofandinq mexanizminin çox uğurlu şəkildə, məhz kraudfandinq mexanizmi üzərindən həyata keçirilməsinə də müvəffəq ola bilərik ki, bu da nəticə etibarı ilə bizim vətəndaş cəmiyyəti institutları üçün əlavə imkanlar yaratmış olar. Bu baxımdan da hesab edirəm ki, çox vacib və günün tələblərinə cavab verən bir qanun layihəsidir.

Yeri gəlmişkən, onu da deyim ki, burada önəmli olan məsələ həm də şəffaflıq və hesabatlılıqdır. Həmkarlarım da çıxışlarında bir neçə dəfə

“piramida” və digər ifadələrdən istifadə etdilər. Düşünürəm ki, bu da dövlət qurumlarının nəzarətində olmaq şərti ilə şəffaflıq və hesabatlılıq mexanizmini geniş şəkildə tətbiq etməklə kraudfandinq mexanizminə olan inamın, etimadın artırılmasına gətirib çıxara bilər. Nəticə etibarı ilə bu, ilkin addım kimi dəyərləndirilir. Düşünürəm ki, bizim qanunvericilikdə bu, “Qrant haqqında” Qanunu və ümumiyyətlə, qeyri-hökumət təşkilatlarının fəaliyyətini tənzimləyir. Bundan başqa, yerli idarəetmə orqanları və digər təsisatlar üçün də çox əlverişli imkanlar yarada biləcək bir qanun layihəsidir. Onun da qəbul olunmasını mən çox təqdir edirəm və bu qanun layihəsinə səs verəcəyəm.

Yeri gəlmişkən, gündəlikdə yer alan 12-ci məsələ ilə bağlı fikrimi də söyləmək istəyirəm. Miqrasiya Məcəlləsinə yeni termin daxil edilir. Bu, “rəqəmsal səyyah” terminidir. Biz beynəlxalq praktikaya diqqət yetirsək, elə miqrasiya qanunvericiliyində də “digital nomad” və “digital traveller” – bu iki termin çox uğurlu şəkildə istifadə olunur. Əksər ölkələrdə xüsusi ilə də “digital nomad”a daha çox üstünlük verirlər.

Burada da mən fikir verdim ki, rəqəmsal səyyahın üzərində olan o funksional təyinatlar həm də “digital nomad”dan irəli gəlir. Bu da yüksək ixtisaslı miqrantların distant şəkildə Azərbaycanın əmək bazarında geniş şəkildə təmsil olunmaqla çox uğurlu əmək fəaliyyəti ilə məşğul olmalarına imkan verir. Bu da, təbii ki, bizim ölkəmizə töhfə vermək istəyən və rəqəmsal texnologiyalardan istifadə edən şəxslərin çox yaxından işə cəlb olunması üçün əlverişli şərait yaratmış olar.

Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Sonuncu çıxış. Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. İlk növbədə Sizin rəhbərliyinizlə Azərbaycan nümayəndə heyətinin İranın Ali Rəhbərinin dəfnində iştirakını dəyərləndirmək istəyirəm.

Azərbaycan İranla ümumi tarixə, ümumi mədəniyyətə, ümumi dinə, hətta eyni dilə malik olan ölkələrdir. Azərbaycan İranla həmişə mehriban qonşuluq münasibətləri qurmaq istəyir və bunu daim göstərib. İran üçün çətin günlərdə onlara ilk humanitar yardım edən Azərbaycan olub. Azərbaycan, eyni zamanda, İrandan 60-dan çox ölkənin 3 mindən artıq vətəndaşının təxliyə edilməsində iştirak edib. Təsadüfi deyil ki, İranda fəaliyyət göstərən xarici ölkə səfirliklərinin bir qismi sonra fəaliyyətlərini Bakıda davam etdirmişlər.

İran parlamentinin sədri bu günlərdə Azərbaycana səfərində də bildirdi ki, İran çətin günündə kimin onun yanında olduğunu gördü. Azərbaycan İrana həmişə mehriban qonşuluq münasibətindədir və İran rəhbərlərinin son dövrdə bəyanatlarında da bunları eşitmək, əlbəttə, xoşdur.

Qanun layihəsi ilə tanış oldum. Bunun ilk növbədə startaplara, mikro, kiçik və orta sahibkarlığa dəstək üçün hazırlandığını yüksək qiymətləndirirəm. Hesab edirəm ki, dünyada kiçik sahibkarlığın inkişafına dəstək verən bütün yeniliklərin Azərbaycana gəlməsi çox düzgündür. Bu, qeyri-neft sektorunun inkişafına böyük bir dəstəkdir. Bu, insanların, ilk növbədə də gənclərin bizneslərini qurmaları üçün çox yaxşı bir şəraitdir.

Hörmətli həmkarımız Azər müəllimin verdiyi izahat bizi tam qane edir. Bununla belə, layihə ilə bağlı müəyyən fikrimi söyləmək istəyirəm.

Qanun layihəsinin dili çox ağırdır, akademik terminlər çox işlənir. Hansısa bir sahibkar, o cümlədən startap, kiçik sahibkar bundan yararlanmağa çalışsa, xüsusi bir hüquqşünasla birlikdə işləməlidir ki,

qanunun tələblərini tam anlaya bilsin. Ona görə də qanunun dilinin sadələşdirilməsini təklif edirəm.

Eyni zamanda, gələcəkdə qanunun imkanlarından yaxşı mənada istifadə edilməsi üçün xüsusi bir mərkəzin yaradılmasına, onun sosial şəbəkələrdə, mətbuatda imkanları barədə vaxtaşırı izahların verilməsinə böyük ehtiyac vardır.

Qanun layihəsini dəstəkləyirəm, ona səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, biz səsverməyə keçirik. Dediyim kimi, qanun layihələrini mən bir-bir səsə qoyacağam. İndi isə xahiş edirəm, 9-cu məsələyə – Kraudfandinq haqqında qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi 10-cu məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Bu qanun layihəsi də birinci oxunuşda qəbul edildi.

İndi isə 11-ci məsələdə olan qanun layihəsinə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Nəhayət, 12-ci məsələdə olan qanun layihəsinə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin 13-cü məsələsinə keçirik. Bu məsələ "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İnsan hüquqları komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Zahid müəllim, sözü Sizə verirəm. Buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli millət vəkilləri. Müzakirəyə təqdim olunan "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə layihə ölkəmizin rəqəmsal inkişaf strategiyasında yeni mərhələnin hüquqi əsaslarını müəyyənləşdirir.

Layihənin hazırlanmasını zəruri edən əsas səbəb XXI əsrdə milli təhlükəsizlik anlayışının və mühitinin kəskin şəkildə dəyişməsidir. Əgər əvvəllər dövlətlərin təhlükəsizliyi, əsasən, quru, hava və dəniz sərhədləri ilə ölçülürdüsə, yeni yüz ildə rəqəmsal suverenlik, enerji sistemləri, bank infrastrukturu, elektron hökumət platformaları, dövlət informasiya ehtiyatları, rabitə şəbəkələri, rəqəmsal xidmətlər və vətəndaşların fərdi məlumatları da milli təhlükəsizliyin ayrılmaz hissəsinə çevrilib. Dövlətə zərbə vurmaq üçün artıq sərhədləri tanklarla keçmək tələb olunmur. Dövlət informasiya sistemlərinə müdaxilə, maliyyə sektoruna kiberhücum, enerji şəbəkələrinin iflici və ya kritik informasiya infrastrukturunun sıradan çıxarılması milli təhlükəsizliyə yönəlmiş ən ciddi təhdidlərdir.

Ölkəmizdə rəqəmsal dövlət siyasətinin əsası Ulu Öndər Heydər Əliyevin 2003-cü ildə təsdiq etdiyi "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya" ilə qoyulub. Prezident İlham Əliyevin rəhbərliyi ilə elektron hökumət quruculuğu, rəqəmsal xidmətlərin genişləndirilməsi, kibertəhlükəsizlik sisteminin formalaşdırılması və rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilib.

Vətən müharibəsində müasir texnologiyaların tətbiqi dövlət qarşısında yeni vəzifələr müəyyənləşdirdi və rəqəmsal məkanı milli təhlükəsizliyin ayrılmaz parçası kimi qiymətləndirməyə imkan verdi.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sədrliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclasında qəbul olunan qərarlar da yeni rəqəmsal suverenlik siyasətinin sistemli xarakter daşıdığının sübutudur. Şurada 58 təşəbbüs, – burada qeyd olundu, – 34 qanunvericilik aktına dəyişiklik, 9 Prezident fərmanına və 3 Nazirlər Kabinetinin qərarına dəyişiklik nəzərdə tutulur. O cümlədən rəqəmsal xidmətlərin vahid platformada inteqrasiyası, milli məlumat mühitinin və rəqəmsal identifikasiya sistemlərinin inkişafı, kibertəhlükəsizlik institutlarının gücləndirilməsi kimi prioritetlər də müəyyən olunur.

Rəqəmsal sferada fəaliyyət göstərən şirkətlər üçün 20 illik vergi güzəştləri nəzərdə tutulur. Yüksək ixtisaslı İT mütəxəssisləri isə gəlir vergisindən tam azad olunacaqlar. “Mygov” platforması hamı üçün bir rəqəmsal pəncərəyə çevrilir. “E-sosial”, “e-təbib”, “e-su” artıq tam şəkildə vahid platformaya inteqrasiya edilib. “E-polis”, “Mobil notariat”, “Azərişıq”, “Reseptim” və daha bir neçə xidmət isə hələlik qismən inteqrasiya edilib. Amma ilin sonuna qədər onlar da başa çatacaq. 3 ay ərzində “Mygov” platformasının istifadəçi sayı 2,7 milyondan 3,5 milyona, təxminən üçdə bir qədər artaraq belə bir səviyyəyə çatıb. Son 10 ildə ölkəmizdə ali təhsil müəssisələrində İT ixtisaslarına qəbul təxminən 5 dəfə artıb. Lakin qəbul planının genişlənməsi ilə peşəkar müəllim heyəti, müasir laboratoriyalar və qabaqcıl təhsil proqramları eyni sürətlə inkişaf etmir. Ona görə də yeni addımların əsas hədəfi odur.

İndi müzakirəyə çıxarılan hüquqi akt və qarşıdakı dövrdə rəqəmsal məcəllənin hazırlanması da islahatların məntiqi davamı olacaq.

Layihəni zəruri edən əsas şərtlər nədir? Birinci növbədə kibercinayətkarlıq, məlumat sızmaları, fidyə proqramları, saxta domenlər,

sosial mühəndislik hücumları və süni intellektdən istifadə etməklə həyata keçirilən manipulyasiyaların sürətlə artmasıdır. Belə şəraitdə dövlət yalnız baş verən hücumlara reaksiya verməklə kifayətlənə bilməz.

Qanun layihəsinin əsas məqsədi kritik informasiya infrastrukturunun, maliyyə sistemlərinin, rəqəmsal hüquqların və rəqəmsal dəlillərin hüquqi müdafiəsini gücləndirməklə qabaqcıl kibertəhlükəsizliyi təmin etməkdir.

Yeni mütərəqqi yanaşma beynəlxalq təcrübəyə də tam uyğundur. Mən burada zaman alaraq sadalamaq istəmirəm. Avropa İttifaqının müvafiq direktivləri var. O cümlədən ən qabaqcıl ölkələrdən biri Azərbaycana partnyor dövlətlərdən biridir. Estoniya özü 2007-ci ildə kiberhücuma məruz qalmışdı. Ondan sonra unikal bir model meydana gətiriblər.

O cümlədən Finlandiya özünün maliyyə sistemlərini unikal qoruyan bir dövlətdir. Birləşmiş Ştatlar milli kibertəhlükəsizlik strategiyasını qəbul edərək kritik infrastrukturun qorunması sahəsində öndədir.

Qanun layihəsinin mühüm yeniliklərindən biri anlayışlar sisteminin müasir tələblərə uyğunlaşdırılmasıdır. İlk dəfə olaraq kiberməkan, kibertəhlükəsizlik, kibergigiyena, rəqəmsal dəlil, rəqəmsal tədqiqat, rəqəmsal tədqiqatlar mərkəzi, milli kiberinsidentlərə cavab mərkəzi, dövlət kiberinsidentlərə cavab mərkəzi və digər sahəvi qurumlar da müvafiq iyerarxiya ilə müəyyən olunur.

Layihənin digər mühüm yeniliyi rəqəmsal dəlil institutunun hüquqi əsaslarının formalaşdırılmasıdır, yəni daha sadə dillə desək, rəqəmsal hüquqların formalaşmasıdır. Müasir dövrdə kibercinayətlərin araşdırılmasında server qeydləri, sistem jurnalları, İP məlumatları, elektron izlər və digər rəqəmsal məlumatların düzgün toplanması gərəkdir ki, bu sferada olan cinayətlərin ifşası mümkün olsun.

Milli kibertəhlükəsizlik üzrə indekslər var, beynəlxalq məkanda aparıcı yer alır və Azərbaycan burada 83,33 balla 31-ci yerdədir, Gürcüstan 64,17 balla 64-cü yerdə, Ermənistan isə 38,33 balla 97-ci yerdə qərarlaşıb.

Qanun layihəsinin mühüm istiqamətlərindən biri də dövlət informasiya sistemlərinin təhlükəsizlik auditidir. İnformasiya sistemlərinin təhlükəsizliyi birdəfəlik yoxlama ilə təmin oluna bilməz. Proqram təminatları, bulud texnologiyaları və informasiya sistemləri davamlı yeniləndikcə, risklər də xaraktercə dəyişir.

Son illər, məsələn, bank sektorunda müşahidə olunan fişinq hücumları vətəndaşlarımız tərəfindən də narahatlıqla qarşılanır. Mərkəzi Bankın məlumatına görə, 2025-ci ildə Azərbaycan banklarına məxsus ödəniş kartları üzrə 28 min 766 rəqəmsal dələduzluq əməliyyatı qeydə alınıb və vətəndaşlara dəymiş zərər 5 milyon 41 min manat təşkil edir. Bunlardan 7184 fakt ölkə daxilində, 21 min 582-si isə ölkə xaricindən olan əməliyyatlardır.

Mərkəzi Bankın təhlilləri göstərir ki, rəqəmsal kriminallıq hallarının əksəriyyəti istifadəçilərin kart məlumatlarını, təsdiq kodlarını və digər həssas məlumatları kiberdələduzlara təqdim etməsi ilə yaranır. Ona görə də təkcə ad, ünvan, bank rekvizitləri deyil, həm də insanların biometrik məlumatları, rəqəmsal imzası, səsi, görüntüsü və virtual şəxsiyyəti də etibarlı hüquqi müdafiə olunmalıdır. Bununla bağlı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Milli Kibertəhlükəsizlik Agentliyi yaradılıb ki, qanunvericiliyin müvafiq müddəaları o barədədir.

Milli təhlükəsizlik konsepsiyası 2007-ci ildə, hərbi doktrinamız isə 2010-cu ildə qəbul olunubdur. Həmin dövrdə nə 44 günlük Vətən müharibəsinin parlaq yekunu, nə tam bərpa olunmuş dövlət suverenliyimiz, nə

kibermüharibə, süni intellekt, pilotsuz sistemlər, “deepfake” texnologiyaları, nə də rəqəmsal iqtisadiyyat indiki səviyyədə deyildi. Həmin qanunlar bu gün də qüvvədədir və öz səmərəsini verir. Lakin təklif edirik ki, həm milli təhlükəsizlik konsepsiyası, həm də hərbi doktrina yenilənsin.

Sonda bir daha Rəqəmsal İnkişaf Şurasının müəyyən etdiyi prioritetlərə uyğun olan bu hüquqi aktı yüksək qiymətləndiririk. Ümidvarıq ki, parlament üzvləri də ona səs verəcəklər. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Zahid müəllim. Bu, həm qanun layihəsinin təqdimatı idi, həm də çıxış idi.

Müzakirəyə keçirik. Kamal Cəfərov. Buyurun.

**Kamal Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Qanun layihəsi ölkəmizin kibertəhlükəsizlik arxitekturası üçün strateji əhəmiyyət daşıyır. Məhz bu dəyişiklik bundan öncə müzakirə etdiyimiz digər dəyişikliklərlə birgə bir neçə gün öncə Rəqəmsal İnkişaf Şurasının ilk iclasında Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın sədrliyi ilə müzakirə olunan məsələlərin məntiqi nəticəsidir. Bu cür çevik fəaliyyət ölkəmizdə rəqəmsal inkişafın ən yüksək icra səviyyəsinin göstəricisidir.

Kibertəhlükəsizlik arxitekturası bu sahədə inkişafın onurğa sütunudur. Elə bu məsələ ilə bağlı Mehriban xanım qeyd etdi ki, süni intellektin inkişafı fonunda yaranan yeni təhlükələrə, xüsusi ilə informasiya təhlükəsizliyi risklərinə hazır olmalıyıq və bu sahədə atılan bütün addımlar milli maraqlarımıza cavab verməlidir.

Mən bu gün məsələyə məhz süni intellektin etik və hüquqi idarəçiliyi prizmasından yanaşmaq istəyirəm. Çünki qanun layihəsinə istifadəçilərin kibertəhlükəsizliyini təmin etmək, riskləri azaltmaq üçün davranış

qaydalarını özündə cəmləşdirən yeni kibergigiyena kimi mühüm bir anlayış gətirilir.

Kibertəhlükəsizliyi təmin etmək dövlətin vəzifəsidir. Kibergigiyena isə vətəndaşın məsuliyyətidir. Bu gün vətəndaşlarımız – dövlət qulluqçuları, sahibkarlar gündəlik işlərini asanlaşdırmaq üçün “ChatGPT” kimi böyük dil modellərindən istifadə edirlər. Lakin burada çox mühüm bir nüans var. Süni intellektlə paylaşdığınız şəxsi və həssas məlumatlar, sirlər sizin əleyhinizə istifadə oluna bilər. Çünki süni intellekt sizin sirdaşınız deyil, nəhəng bir məlumat toplayıcısıdır. Bunun səbəbi isə bu texnologiyanın öz təbiətindədir. “ChatGPT” nin rəsmi məxfilik siyasətində – “privacy policy”ndə çox açıq şəkildə qeyd olunur ki, istifadəçilərin sistemə daxil etdiyi məlumatlar alqoritmlərin və modellərin təkmilləşdirilməsi üçün istifadə edilə bilər. Bundan əlavə, süni intellekt alətlərinə daxil etdiyiniz məlumatlar modelin daha da təkmilləşdirilməsi məqsədi ilə real insanlar tərəfindən, mütəxəssislər tərəfindən oxunub analiz oluna bilər. Siz ekranda “sil” düyməsini bassanız belə, o daxil etdiyiniz həssas məlumat artıq qlobal “qara qutu”nun yaddaşının ən azı 5 il tərkib hissəsidir.

Bunun nə qədər ciddi təhlükə olduğunu sübut edən bir nümunəni qeyd etmək istəyirəm. Bu hadisə 2023-cü ilin mart ayında baş verib. “ChatGPT”dəki texniki xəta nəticəsində bəzi istifadəçilərin şəxsi yazışmalarının başlıqları, hətta bir qisminin profili və ödəniş məlumatları digər istifadəçilərin ekranlarında görünüb. Təsəvvür edirsiniz, insanlar ora ailə münasibətləri, biznes planları, hüquqi sənədlər, xəstəlik tarixçiləri ilə bağlı məlumatları yükləyir. Ancaq onların məxfi hesab etdiyi söhbət başqa bir istifadəçinin ekranında görünür.

Biz rəqəmsal inkişafı təmin etmək üçün ən innovativ həlləri dövlət idarəetməsinə gətiririk. Amma, eyni zamanda, rəqəmsal savadlılığı və bu qanun layihəsində qeyd olunan kibergigiyena davranışlarını cəmiyyətimizdə formalaşdırmalıyıq. Süni intellekt çox güclü bir alətdir, lakin ondan məsuliyyətlə və etik yolla istifadə etmək, məlumat suverenliyimizi qorumaq bizim əsas prioritetlərimizdən biridir.

Bu məqsədlə təklif edirəm ki, ixtisaslaşmış dövlət qurumları tərəfindən süni intellektdən məsuliyyətlə istifadəyə dair təlim proqramları hazırlansın, fərdi və həssas məlumatlarla işləyən dövlət orqanlarının əməkdaşlarına xüsusi və praktiki təlim proqramları keçirilsin.

Ümumiyyətlə, müzakirəyə çıxarılan qanun layihəsini dəstəkləyirəm və hər kəsi də lehinə səs verməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Çox sağ olun. Çox hörmətli sədr, əziz həmkarlar, bu gün qlobal rəqabətin getdiyi rəqəmsal mühitdə kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi sahəsində risklərə hazır olmaq, sadəcə, texnoloji yenilik deyil, həm də milli suverenlik məsələsidir.

Süni intellektin artıq, sadəcə, iqtisadi deyil, dövlət təhlükəsizliyinin mərkəzi faktoru kimi qəbul edilməsi şəraitində, təbii ki, bu sahədə infrastrukturun qurulması, milli kadr potensialının güclənməsi, dövlət qurumlarının sinxron fəaliyyəti, habelə qlobal trendləri mənimsəyərək milli maraqlara uyğun modelin yaradılması vacib vəzifə kimi önə çıxmaqdadır.

Möhtərəm Prezident də məhz bu məqsədlə dörd ay əvvəl Rəqəmsal İnkişaf Şurasını yaratmış, həmçinin rəqəmsallaşma əsasında dayanıqlı inkişafın təmin edilməsi məqsədi ilə 2026–2028-ci illər üçün fəaliyyət

planını təsdiq etmişdir. Bu çərçivədə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurasının bu günlərdə ilk iclası qeyd olunan niyyətlərin praktik mərhələyə daşınması istiqamətində mühüm bir mərhələ kimi müasir çağırışlara çevik və qətiyyətli reaksiya oldu.

Görünən odur ki, ölkəmiz rəqəmsal platformalarda təhdidlərə qarşı mübarizə ilə kifayətlənmək niyyətində deyil. Mehriban xanım nümayiş etdirdi ki, dövlət yeni çağırışlardan faydalanan tərəf kimi çıxmaq, daha konkret desək, regionda rəqəmsal qovşağa çevrilmək, innovativ daxili bazarın stimullaşdırılmasına nail olmaq, dövlət xidmətlərinin tam rəqəmsallaşması ilə şəffaflıq kimi prinsipial istiqamətlərdə aydın yol xəritəsinə malikdir.

Bu gün müzakirəmizə təqdim olunan "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi də bu mənada, sadəcə, hüquqi redaktə, yaxud texniki yenilik xarakteri daşımır. Bu layihə müasir dünyada müstəqil dövlətimizin suverenliyinin rəqəmsal sərhədlərini müəyyən edən və qoruyan strateji bir qalxandır.

Hamımız şahidik ki, XXI əsrdə müharibələr və münaqişələr təkcə fiziki məkanda deyil, həm də görünməyən cəbhədə – kibermərkanda aparılır. Bu gün dövlətlərin kritik informasiya infrastrukturuna, enerji sistemlərinə, bank sektoruna və dövlət idarəçiliyi resurslarına edilən kiberhücumlar bəzən ənənəvi hərbi təhdidlərdən daha dağıdıcı nəticələrə yol aça bilir.

Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan, bilirsiniz ki, rəqəmsal transformasiya dövrünə qədəm qoyub və bu proses ölkəmizin həm iqtisadi, həm də institusional qüdrətini artırır. Lakin rəqəmsallaşma sürətləndikcə onun təhlükəsizlik səddi də, təbii ki, eyni dərəcədə güclənməlidir.

Təqdim edilən qanun layihəsi ilk növbədə müasir dövrün tələblərinə cavab verən mükəmməl bir anlayışlar aparatı yaratmaqla, rəqəmsal mühitdə törədilən hüquqazidd əməllərə qarşı mübarizənin effektivliyini təmin etməklə mümkün boşluğu fundamental şəkildə doldurmuş olur. Eyni zamanda, layihə institusional mexanizmlərin dəqiqləşməsi, aidiyyəti strukturların səlahiyyətlərinin genişlənməsi, kiberinsidentlərin təkcə qeydə alınması deyil, həm də onların vaxtında aşkarlanması, qarşısının alınması və tamamilə aradan qaldırılması üçün effektiv fəaliyyət alətləri formalaşdırmaqla, eləcə də internet və host provayderlərin üzərinə qanunla yeni öhdəliklər qoymaqla ölkə daxilində informasiya təhlükəsizliyi mədəniyyətini və məsuliyyətini tamamilə yeni mərhələyə qaldıracaqdır.

Bütövlükdə sənəd həm konseptual baxımdan mükəmməl işlənib, həm də milli prioritetlərimiz ilə üst-üstə düşərək dövlətimizin təhlükəsizlik strategiyasına tam cavab verir və dəstəklənməsi vacibdir.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. İyun ayının 29-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Rəqəmsal İnkişaf Şurasının iclasının keçirilməsi və orada qoyulan məsələlər, mənə elə gəlir ki, dövlət institutlarının səmərəliliyinin artırılması, optimallaşdırılması, vahid mərkəzdən idarə olunması və dövlət xidmətlərinin vətəndaşlara daha əlçatan olması istiqamətində atılan mühüm bir addım idi. Bu, faktiki olaraq idarəetmədə yeni bir eranın başlanğıcı hesab oluna bilər. Çünki müasir

texnologiyaların həyatımıza daxil olması idarəetmə orqanlarının, dövlət və vətəndaş münasibətlərinin də yeni keyfiyyət mərhələsini təyin edir.

Hörmətli Birinci vitse-prezidentimiz həm də Rəqəmsal İnkişaf Şurasının qarşısında dayanan məqsədlərdən danışdı. O qeyd etdi ki, süni intellekt və rəqəmsal texnologiyaların tətbiqində Azərbaycan regionun ən qabaqcıl ölkəsinə çevrilməlidir. Mən düşünürəm ki, bu iclasdan dərhal sonra bizə daxil olan qanun layihələri bu istiqamətdə hansı sürətlə və dinamika ilə hərəkət edəcəyimizin göstəricisidir.

Hörmətli xanım sədr, çox mühüm məsələlər müzakirə edildi, 58 istiqamət müəyyənləşdirildi, burada artıq qeyd olundu. Mən ən əsas olanları üzərində dayanmaq istəyirəm, onlar birbaşa müzakirə etdiyimiz qanun layihəsi ilə bağlıdır.

Əvvəla, qeyd etmək lazımdır ki, biz "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanuna dəyişiklik edirik. Amma məzmununa və tutumuna görə bu, yeni qanun layihəsi qədər əhəmiyyətlidir. Çünki burada çox mühüm məsələlər öz əksini tapır, yeni terminlər yeni hüquqi münasibətlər sistemini təyin edir. Ona görə də bu, çox əhəmiyyətli bir dəyişiklikdir.

Süni intellekt texnologiyalarının idarəetmədə tətbiqi, kibertəhlükəsizlik məsələlərinin həll olunması, üzərində dayanılacaq və bəlkə də gələcəkdə xüsusi qanunlarla nizamlanacaq vahid məlumat bazası – data mərkəzlərinin yaradılması burada qeyd olundu. Əgər biz informasiya təhlükəsizliyindən danışırıqsa, informasiya məkanını dövlətin suverenliyinin xüsusi yeni virtual sahəsi kimi təyin ediriksə, onun qorunmasını ən azı fiziki sərhədlərimizin qorunması qədər əhəmiyyətli

hesab ediriksə, bax, burada data mərkəzlərinin yaradılması və onların idarə olunması da mühüm əhəmiyyət kəsb edir.

Məsələ ondadır ki, bu, kütləvi xarakterli bir məsələdir. Bu gün postmodernist cəmiyyətlərin informasiya cəmiyyətinə ötürdüyü əsas xarakteristikalardan biri dataların yaradılması məsələsidir. Bu, sadəcə, məlumatların əldə edilməsi və mühafizəsi deyil, həm də bu məlumatların təhlil olunması, emal edilməsi və onlardan gələcəkdə daha səmərəli istifadənin təşkili üçün vacibdir. Bu kontekstdə “Mygov” platformasının daha da aktivləşdirilməsi, ondan istifadənin genişləndirilməsi, rəqəmsal iqtisadiyyata keçidin təyin olunması kimi məsələlər də olduqca mühüm əhəmiyyət kəsb edir.

İndi isə süni intellektin tətbiqi məsələsi ilə bağlı. Doğrudan da, maraqlı bir tarixi mərhələyə qədəm qoymuşuq. Süni intellekt öz-özlüyündə sadəcə, bizi məlumatlandırmır, internet resurslarındakı “ChatGPT” kimi qurumlardan istifadə edən zaman Markesin “Dünyanın ən böyük yazıçısı kimdir?” hekayəsində olduğu kimi, bir də görürsünüz ki, “ChatGPT” qarşısındakının düşünməyi bacardığını hiss etdikdə ona sual verir: “Sizin bu barədə fikriniz nədir?” Yəni birbaşa dialoq qurmağı bacarır. Ona görə mən düşünürəm ki, bütün bunlar, əlbəttə, milli intellektual bazanın formalaşdırılması və onun qorunması baxımından da mühüm əhəmiyyət kəsb edir.

Bu, vacib qanun layihəsidir. Ona görə səs verəcəyəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Fazil Mustafa. Buyurun.

**Fazil Mustafa.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən də bu dəyişiklikləri çox mühüm, vacib dəyişikliklər hesab edirəm. Bizim son 150 ildəki bütün tarixi mətnlərimizə diqqət edəndə görürük ki, çox işlədilən ifadələrdən biri "gec qalmaq" ifadəsidir. Yəni məktəb açmaqda gec qaldıq, ona görə müəyyən prosesləri uduzduq. Ordu quruculuğunda gec qaldıq, hansısa ictimai prosesləri irəli aparmaqda gec qaldıq və bu da bizim sonrakı taleyimizə ciddi təsir göstərmiş oldu.

Əvvəllər hansısa prosesdə 5 il, 10 il gec qalanda onu bərpa etmək mümkün idi. Rəqəmsal texnologiya ilə bağlı addımlarda isə 1 gün, 1 saat geri qalmaq artıq ölkənin başqa dövlətlərlə rəqabətinə əhəmiyyətli şəkildə təsir göstərir.

Ona görə də bu, olduqca vacib qanun layihəsidir və onun vacibliyini göstərən əsas əlamətlərdən biri ötən günlərdə ölkənin Birinci vitse-prezidenti hörmətli Mehriban xanımın bu sahəyə səlahiyyətli qurumların rəhbərləri ilə birlikdə keçirdiyi müşavirədir. Orada da bunun əhəmiyyəti xüsusi vurğulandı və ondan sonra da təcili, vaxt itirmədən bu qanun layihələrinin təqdim olunması onu göstərdi ki, dövlət artıq buna prioritet məsələ kimi yanaşmaqdadır. Amma bu, həm də ona görə vacibdir ki, burada hörmətli Zahid Orucun da qeyd etdiyi kimi, informasiya məkanımız hansısa bir şəkildə sərhədlərin tanklarla keçilməsi üzərindən təhlükəsizliyə baxılmamağını artıq bizə diktə edir.

Azərbaycan informasiya məkanına hər gün, hər saat ayrı-ayrı ölkələrin informasiya dronları göndərilir və bu dronlar da özümüz hiss etmədən bizim çox strateji sahələrimizə zərbələrini endirirlər. Ona görə də biz bu dronların təhlükəsiz şəkildə aradan qaldırılması, qarşısının alınması üçün məhz bu sahəni gücləndirməliyik.

Burada xüsusi ilə rəqəmsal tədqiqat məsələsi çox önəmlidir. Biz bir sıra publik hüquqi şəxslərin fəaliyyətlərini müəyyən dərəcədə dayandırdıq. İndi bu istiqamətdə mühüm işlər görülməlidir. Bu qanun layihəsində yalnız dövlətin müəyyən etdiyi qurumdan söhbət gedir. Amma, əslində, xarici ölkələrin təcrübəsində də göstərilir ki, bu sahəyə çox sayda qeyri-hökumət təşkilatlarının cəlb olunması vacibdir. Bu, qanunvericilikdə də əksini tapmalıdır. Çünki iqtisadi, rəqəmsal təhlillə bağlı onların bir çox töhfələri ola bilər. Bu, tənzimləyici test mühitinin həyata keçirilməsində də xüsusi rol oynaya bilər. Bunu kənara qoymaq, məncə, doğru olmaz. Onların əksinə daha çox yeni QHT-lərin yaranmasına və bu sahədə ixtisaslaşmasına kömək göstərən addımlar atılmalıdır.

Bizim Konstitusiyanın 7-ci maddəsində Azərbaycan dövlətinin çox önəmli prinsipləri əks olunmuşdur. Bu, Azərbaycanın dünyəvi və unitar dövlət olma prinsipləridir. Biz unitar dövlət olma prinsipini ölkə Prezidentinin Ali Baş Komandan kimi qabiliyyəti və Azərbaycan əsgərinin rəşadəti nəticəsində ərazi bütövlüyümüzü bərpa etməklə həll etdik. Azərbaycanın dünyəvi dövlət prinsipinin qorunması isə elə unitarlığın qorunması qədər önəmli məsələdir.

Son vaxtlar xüsusi ilə də bu zəmində Cənubdan, Qərbdən, azərbaycanlıların yaşadığı müxtəlif xarici ölkələrdə olan mühitdən Azərbaycana çox mənfi istiqamətlərdə təsiredici addımlar atılır. Hətta Azərbaycanın özündə belə bu məsələnin qorunmasına həssaslığımız yetərincə deyil. Bu yaxınlarda qaydasız döyüş üzrə idman yarışı keçirilirdi. Baxırsan ki, Azərbaycanı təmsil edən idmançı artıq uvertüra və ya “Cəngi” sədaları altında deyil, mərsiyə sədaları ilə meydana çıxır və o sədalarla özünün hansısa bir dini-ideoloji təbliğatını aparır. Qalib gələndən sonra da

Azərbaycan Bayrağı əvəzinə hansısa ölkələrdə populyar olan dini-ideoloji şüarlar səsləndirir. Hamımız sakitcə bunu müşahidə edirik. Bunlar addım-addım çoxaldıqca Azərbaycanda dünyəvi dövlət prinsiplərinin mahiyyətinin zədələnməsinə gətirib çıxara bilər. Ona görə də bu qanunda biz rəqəmsal müdafiə texnologiyalarımızın həssaslıqla nəzərə alınmasını mütləq qeyd etməliyik.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, saat 1-dir,  əslində, fasilə vaxtıdır.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fasiləsiz? Səsə qoyum? Hamı razıdır? Oldu. Bizim bundan sonra hələ 4 məsələmiz var. Nəzərə alın.

Rizvan Nəbiyev. Buyurun.

**Rizvan Nəbiyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli mətbuat nümayəndələri. Azərbaycan Respublikasının rəqəmsal suverenliyinin möhkəmləndirilməsi Azərbaycan dövlətinin əsas hədəflərindəndir. Bu fikri Prezident İlham Əliyev beynəlxalq platformalardan birində səsləndirdi və bu günlərdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının iclasında da müəyyən edilən strateji hədəflər sırasında yer aldı.

Digər strateji hədəf isə Azərbaycanı regionun texnologiya və innovasiya mərkəzlərindən birinə çevirməkdir. Deməli, rəqəmsal suverenliyin möhkəmləndirilməsi və eyni zamanda, innovasiya mərkəzinə çevirmək kimi hədəflər çoxşaxəli fəaliyyətləri özündə ehtiva edir.

İnnovasiya ekosisteminin maliyyə dayanıqlığının yaradılması və eyni zamanda, rəqəmsal təhlükəsizliyin təmini. Biz bundan əvvəlki blokda və hazırda bu məqsədlə 30-a yaxın qanuna və məcəlləyə dəyişiklik etməklə, yaxud da yeni qanun qəbul etməklə bu məsələyə töhfə veririk. Çünki Mehriban xanımın rəhbərliyi ilə keçirilən həmin iclasda, eyni zamanda, qanunvericilik bazasının möhkəmləndirilməsi və beynəlxalq təcrübədən bəhrələnmək də müəyyən edilən hədəflər sırasında idi. Ümumilikdə qeyd etsək, keçirilən ilk iclasdan ötən qısa müddət ərzində biz artıq dönüş yaradılmasını vurğulaya bilərik. Çünki ölkəmizin sərhədlərindən kənarda da rəqabət çox sərtdir. Belə ki, qlobal rəqəmsal iqtisadiyyat hazırda dünya ümumi daxili məhsulunda  17 faizlik paya malikdir. Hörmətli Azər müəllim bununla bağlı çox ətraflı məlumat verdi. Bunun da çox sadə bir səbəbi var. Çünki digital sahədə iqtisadi inkişaf ənənəvi sahə ilə müqayisədə daha sürətlə gedir, hətta onu ən azı 2,5-3 dəfə arxada qoyur.

Bilirsiniz, bu gün dünyada haradasa 5 milyarddan artıq insan sosial şəbəkə istifadəçisidir. Bir gündə isə haradasa 400 terabayt informasiya istehsal olunur. Belə bir şəraitdə, təbii ki, müəyyən sahələr daha çox transformasiyaya uğrayır. Bunlardan biri də müəyyən iş yerlərinin 2030-cu ilə qədər, yəni növbəti 4 il ərzində rəqəmsal bacarıqları tələb etməsidir. Deməli, 40 faizə qədər iş yeri bunu tələb edir. Nəticədə 30 faizdən çox inzibati xərclərə qənaət olunacaq və 90 faiz isə zamana qənaət etmək imkanı yaradılacaq.

Bunu nəzərə alaraq, Rəqəmsal İnkişaf Şurasının ilk iclasında əsas hədəflər sırasında bunlar müəyyən edildi: qlobal texnologiya ekosisteminə inteqrasiya, beynəlxalq investorlar üçün rəqabətqabiliyyətli innovasiya mühitini formalaşdırmaq və digər hədəflər. Burada fəaliyyət çoxşaxəlidir və

xüsusi ilə bizə İT sahəsində mütəxəssislərin və innovasiya sahibkarlarının da cəlb edilməsi çox vacibdir. Dünyada bu sahədə ciddi rəqabət gedir və bu mənada “Digital Nomad Visa” mexanizminin tətbiqi çox təqdirəlayiqdir.

Digər məsələ isə elektron diplom və attestatların beynəlxalq səviyyədə tanınmasının təmin edilməsidir. Bunu nəzərə alaraq, mən, eyni zamanda, beynəlxalq ölçü və bu sahədə həyata keçirilən fəaliyyətləri vurğulamaq istərdim. Çünki bizim bu istiqamətdə beynəlxalq tərəfdaşlarımızla əməkdaşlığı genişləndirmək çox vacibdir. Son aylarda həyata keçirilən fəaliyyət da bunu təsdiq edir. Yəni beynəlxalq texnologiya tərəfdaşlıqlarının qazanılması, dərinləşdirilməsi həm Avropa İttifaqı, həm də ABŞ ilə həyata keçirilən əməkdaşlıqda öz əksini tapmışdır. Belə ki, bu il mart ayının 11-də Prezident İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın adından yayılan birgə mətbuat bəyanatında bu sahələr öz əksini tapdı: rəqəmsal transformasiya, süni intellekt, innovasiya və inkişaf etməkdə olan texnologiyalar sahəsində əməkdaşlıq və bunun strateji xarakter daşıyan əməkdaşlıq kimi xarakterizə edilməsi.

Xanım Ursula fon der Leyenin Bakı səfərində isə bir addım da irəli atıldı və Azərbaycan–Avropa İttifaqı bağlantı tərəfdaşlığının yaradılması təklif edildi. Hətta bu məqsədlə 200 milyon avro məbləğində qrantın ayrılması və bunun nəticəsində isə 2 milyard avroya qədər investisiyanın cəlb edilməsi planlaşdırılır.

Digər bir vacib istiqamət isə Birləşmiş Ştatlarla olan tərəfdaşlıqdır. Fevralın 10-da imzalanmış xartiyada da bu istiqamətlər vurğulanır və xüsusi ilə qeyd etmək istərdim ki, həmin xartiyanın 1-ci və 2-ci bölmələrində rəqəmsal transformasiya, süni intellekt sahələrində əməkdaşlıq nəzərdə tutulur. Birləşmiş Ştatlarla bu, strateji tərəfdaşlıq səviyyəsinə qaldırılmışdır.

Azərbaycan Mehriban xanım Əliyevanın rəhbərliyi ilə keçirilən iclasda qarşıya qoyduğu strateji hədəfə doğru əməkdaşlıq şəraitində ciddi addımlar atır. Bizim bugünkü qanun da həmin istiqamətdə rəqəmsal təhlükəsizliyin təmin olunmasına xidmət edir.

Qanun layihəsini dəstəkləyirəm və lehinə səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun.

Müşfiq Məmmədli. Buyurun.

**Müşfiq Məmmədli.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, müzakirə etdiyimiz qanun layihəsi rəqəmsal transformasiyanın sürətləndiyi, kibertəhdidlərin isə getdikcə mürəkkəbləşdiyi müasir dövrdə ölkəmizin informasiya təhlükəsizliyinin hüquqi əsaslarının gücləndirilməsinə xidmət edən mühüm sənəddir.

Bu gün artıq informasiya təhlükəsizliyi yalnız texniki məsələ deyil. Bu, milli təhlükəsizliyin, iqtisadi sabitliyin, dövlət idarəçiliyinin və vətəndaş hüquqlarının qorunmasının ayrılmaz tərkib hissəsidir. Dövlət xidmətlərindən bank əməliyyatlarına, səhiyyədən təhsilə qədər bütün sahələr rəqəmsal platformalara əsaslanır. Deməli, həmin platformaların təhlükəsizliyi də dövlətin strateji prioritetlərindən biri olmalıdır.

Qanun layihəsinin əsas üstünlüyü ondan ibarətdir ki, ilk dəfə olaraq "informasiya təhlükəsizliyi", "kibertəhlükəsizlik", "kritik informasiya infrastrukturu", "milli "CERT", "rəqəmsal tədqiqat", "rəqəmsal dəlil" kimi anlayışlar vahid hüquqi sistem daxilində dəqiq müəyyən edilir və onların fəaliyyət mexanizmləri tənzimlənir.

Xüsusi ilə diqqətəlayiq məqamlardan biri ictimai əhəmiyyətli funksiyaları yerinə yetirən informasiya infrastrukturunun kibertəhlükəsizliyinin təmin olunması ilə bağlı ayrıca hüquqi mexanizmlərin

müəyyən edilməsidir. Bu, enerji, nəqliyyat, rabitə, maliyyə, səhiyyə və digər strateji sahələrin dayanıqlığının artırılması baxımından olduqca vacibdir.

Mən həkim və Səhiyyə komitəsinin üzvü kimi xüsusi ilə qeyd etmək istərdim ki, səhiyyə sektoru artıq ən həssas informasiya sistemlərindən biridir. Elektron xəstəlik tarixçəsi, laborator məlumatlar, tibbi sığorta sistemləri və teletibb xidmətləri kibertəhlükəsizliyin yüksək səviyyədə təmin olunmasını zəruri edir. Tibb müəssisələrinə yönələn kiberhücumlar yalnız məlumat itkisi deyil, bəzən insanların həyat və sağlamlığı üçün də real təhlükə yarada bilər. Bu baxımdan layihənin müddəaları səhiyyə sisteminin rəqəmsal dayanıqlığını gücləndirmək baxımından da xüsusi əhəmiyyət daşıyır.

Digər mühüm yenilik rəqəmsal inkişaf layihələrinin əlaqələndirilməsinə və maliyyələşdirilməsinə dair vahid yanaşmanın tətbiq edilməsidir. Bu yanaşma dövlət vəsaitlərinin daha səmərəli istifadəsinə, layihələrin təkrarlanmasının qarşısının alınmasına və rəqəmsal inkişaf sahəsində vahid dövlət siyasətinin formalaşmasına xidmət edəcək.

Layihədə tənzimləyici test mühitinin, yəni “regulatory sandbox” mexanizminin nəzərdə tutulmasını da müsbət dəyərləndirirəm. Bu mexanizm innovativ rəqəmsal həllərin və süni intellekt texnologiyalarının təhlükəsiz şəkildə sınaqdan keçirilməsinə, yeni texnologiyaların daha çevik tətbiqinə imkan yaradacaqdır. Eyni zamanda, Milli CERT – Milli Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzinin yaradılması və onun səlahiyyətlərinin dəqiq müəyyənləşdirilməsi, informasiya mübadiləsinin vahid platforma üzərindən həyata keçirilməsi və kiberinsidentlərə operativ reaksiya mexanizmlərinin formalaşdırılması ölkəmizin kibermüdafiə imkanlarını əhəmiyyətli dərəcədə gücləndirəcəkdir.

Hesab edirəm ki, bu qanun layihəsi Azərbaycanın inkişaf strategiyasına, milli kibertəhlükəsizlik siyasətinə və dövlət idarəçiliyinin müasirləşdirilməsi istiqamətində həyata keçirilən islahatlara tam uyğun gəlir.

Biz birinci oxunuşda layihənin konsepsiyasını müzakirə edirik. Mən layihənin ümumi fəlsəfəsini, məqsədini, strateji istiqamətlərini tam dəstəkləyirəm. Hesab edirəm ki, ikinci oxunuşa qədər hüquqi-texniki xarakterli bəzi müddəalar daha da təkmilləşdirilə bilər. Lakin konseptual baxımdan bu layihə ölkəmizin informasiya və kibertəhlükəsizlik sisteminin yeni mərhələyə yüksəldilməsi üçün mühüm hüquqi baza yaradıb.

Fürsətdən istifadə edərək tam əminliyimi bildirmək istəyirəm ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Rəqəmsal İnkişaf Şurasında müəyyənləşdirilən prioritetlər Azərbaycanın rəqəmsal inkişafını yeni mərhələyə yüksəldəcək, ölkəmizi regionun süni intellekt və kibertəhlükəsizlik mərkəzlərindən birinə çevirəcək, iqtisadiyyatımızın rəqabət qabiliyyətini daha da gücləndirəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Bu məsələ ilə bağlı sonuncu çıxış. Sevil Mikayılova. Buyurun.

**Sevil Mikayılova.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, millət vəkilləri və media nümayəndələri. Müasir dövrdə rəqəmsallaşma artıq yalnız texnologiyaların tətbiqi deyil, dövlət idarəçiliyinin səmərəliliyinin artırılması, iqtisadi inkişafın sürətləndirilməsi, milli təhlükəsizliyin möhkəmləndirilməsi və vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi deməkdir. İyunun 29-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurasının ilk iclası

keçirildi. Birinci vitse-prezident vurğuladı ki, məqsəd Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir.

Azərbaycan Prezidenti İlham Əliyevin fərmanı ilə Rəqəmsal İnkişaf Şurası yaradıldıqdan sonra rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik sahələrində qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində sistemli fəaliyyət müşahidə olunmağa başlayıbdır. Son aylar Milli Məclisdə bu istiqamətdə bir sıra mühüm qanun layihələri qəbul edilib və ya müzakirəyə çıxarılıbdır. Bu gün müzakirəyə təqdim olunan "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa təklif edilən dəyişikliklər kibertəhlükəsizliyin hüquqi tənzimlənməsini ayrıca istiqamət kimi müəyyən edir və bu sahədə mövcud qanunvericiliyi beynəlxalq təcrübəyə uyğunlaşdırır. Bu dəyişikliklər kibерməkanda münasibətlərin daha səmərəli təşkilinə kömək edəcək. Çünki hazırda təhlükəsizlik anlayışı əvvəlki dövrlərdən fərqli məzmun daşıyır. Əvvəllər təhlükəsizlik, əsasən, fiziki sərhədlərin qorunması ilə əlaqələndirilirdisə, bu gün dövlətlərin enerji sistemləri, bank sektoru, rabitə şəbəkələri, nəqliyyat infrastrukturu – hamısı rəqəmsal mühitdə fəaliyyət göstərir.

Bu sistemlərə qarşı həyata keçirilən kiberhücumlar artıq milli təhlükəsizlik üçün real risk hesab olunur. Kibercinayətlərin isə fiziki sərhədləri yoxdur. Onlar dövlət sərhədlərini asanlıqla aşır və transmilli xarakter daşıyır. Buna görə də hüquqi tənzimlənmənin beynəlxalq standartlara uyğun qurulması xüsusi əhəmiyyət kəsb edir.

Qanun layihəsində mühüm yeniliklər var. Onlardan biri hüquqi anlayışların daxil edilməsi, digəri isə test mühitinin hüquqi əsaslarının

yaradılmasıdır. Düşünürük ki, dünyanın bir çox ölkələrində uğurla tətbiq olunan tənzimləyici test mühiti modeli Azərbaycanda da rəqəmsal iqtisadiyyatın və süni intellekt ekosisteminin təhlükəsiz inkişafı üçün mühüm hüquqi alət rolunu oynayacaq. Eyni zamanda, digər aidiyyəti qanunlarda uyğunlaşdırılacaq yeni dəyişikliklər informasiya münasibətlərinin kompleks hüquqi tənzimlənməsinə xidmət edir.

Beləliklə, kibertəhlükəsizlik ayrıca sahə kimi deyil, informasiya hüququnun digər institutları ilə qarşılıqlı əlaqədə inkişaf etdirilir. Təsadüfi deyil ki, informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik məsələləri bu gün dünyanın da əsas prioritetləri sırasında yer alır. Məhz bunun göstəricisidir ki, iyulun 6–10-da İsveçrənin  Cenevrə şəhəri süni intellekt və onun idarə olunması sahəsində qlobal müzakirələrin mərkəzinə çevriləcək. İlk dəfə düzənlənən bu dialoq çərçivəsində dövlət rəhbərləri, siyasətçilər, alimlər, texnologiya şirkətlərinin nümayəndələri və beynəlxalq təşkilatlar süni intellektin təhlükəsiz, məsuliyyətli və etik inkişafı, kibertəhlükəsizlik, standartlar və rəqəmsal idarəetmə məsələlərini müzakirə edəcəklər. Bu isə göstərir ki, informasiya və kibertəhlükəsizliyin hüquqi bazasının gücləndirilməsi qlobal çağırışlara uyğun və vaxtında atılan addımdır.

Nəticə etibarilə hesab edirəm ki, təqdim olunan qanun layihəsi Azərbaycanın kibertəhlükəsizlik sahəsində hüquqi bazasının formalaşdırılmasında mühüm mərhələdir. Layihə təkcə yeni anlayışlar və institutlar yaratmır, həm də informasiya təhlükəsizliyi ilə bağlı müxtəlif qanunvericilik aktlarını vahid hüquqi sistem çərçivəsində əlaqələndirir. Bu dəyişikliklər informasiya infrastrukturunun etibarlı qorunmasına, dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsinə, kiberinsidentlərə

qarşı operativ cavab verilməsinə və ölkənin milli kiberdavamlılığının artırılmasına xidmət edəcək.

Bununla yanaşı, təbii ki, kibertəhlükəsizlik daim inkişaf edən və dəyişən sahə olduğundan gələcəkdə texnoloji yeniliklər və yeni risklər nəzərə alınmaqla qanunvericiliyin mütəmadi şəkildə təkmilləşdirilməsi zərurəti yaranacaq. Bu baxımdan hazırkı dəyişikliklər gələcək hüquqi inkişaf üçün də möhkəm normativ bazadır.

Layihəni dəstəkləyirəm və lehinə səs verəcəyəm. Diqqətiniz üçün çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, yazılanların hamısı çıxış etdi. İndi mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Mən qonaqlarımıza təşəkkür edirəm. Sizi hörmətlə yola salırıq. Sağ olun.

Hörmətli həmkarlar, biz işimizə davam edirik. 14-cü məsələyə keçirik. Bu, Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Komitənin sədri Azər Əmiraslanova söz verirəm. Buyurun.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, birinci oxunuşda təqdim olunan qanun layihəsi Vergi Məcəlləsinə iki vacib dəyişikliyin edilməsini nəzərdə tutur. Əsas məqsəd neft-qaz sahəsində fəaliyyət göstərməyən özəl sektor sahibkarlarına ƏDV depozit hesabındakı vəsaitlərindən daha çevik istifadə imkanı yaratmaqdan ibarətdir.

Uzun müddət idi ki, sahibkarlar tərəfindən qaldırılan bu məsələnin həlli, nəhayət, bu gün təqdim etdiyimiz layihədə öz əksini tapır. Hazırda ƏDV depozit hesabı yalnız ƏDV-nin uçotu, hərəkəti və dövlət büdcəsinə köçürülməsi üçün nəzərdə tutulub. Bu hesabda toplanan vəsaitlər faktiki olaraq tək bir istiqamətdə istifadə edilə bilir. Təqdim olunan layihə bu imkanı genişləndirir.

Birinci dəyişiklik "ƏDV depozit hesabı" anlayışına aiddir. Həmin hesabdan dövlət büdcəsi ilə yanaşı, qeyri-dövlət sektoruna aid edilən vergi ödəyiciləri tərəfindən Dövlət Sosial Müdafiə Fonduna da vəsait köçürülməsi imkanı nəzərdə tutulur.

İkinci dəyişiklik isə bunun icra mexanizmini müəyyən edir. 2027-ci il yanvarın 1-dən başlayaraq 4 il müddətinə həmin sahibkarlar ƏDV depozit hesabından Dövlət Sosial Müdafiə Fonduna ödənişlər edə biləcəklər. Bunun konkret qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən təsdiqlənəcək.

ƏDV depozit hesabı cari kommersiya hesabı deyil, vergi inzibatçılığı alətidir. Ona görə də həmin vəsaitdən istifadənin istiqaməti də dövlət maliyyə öhdəlikləri ilə məhdudlaşdırılır. Sosial sığorta haqları da dövlət qarşısında qanunla müəyyən edilmiş icbari öhdəlikdir.

Hörmətli həmkarlar, bu qanunun qəbul edilməsi sahibkarlara ƏDV depozit hesabındakı vəsaitlərdən səmərəli istifadə etməyə imkan verəcək. Sosial sığorta öhdəliklərinin vaxtında yerinə yetirilməsinə şərait yaradılacaq. Beləliklə, sosial öhdəliklərin icrası üçün əlavə maliyyə mənbəyi təmin ediləcək. Bütövlükdə qeyri-neft-qaz özəl sektoru dolayı şəkildə dəstəklənəcəkdir.

Bir sözlə, müzakirə etdiyimiz layihə dövlətin fiskal və sosial maraqları ilə sahibkarın maliyyə çevikliyi arasında balanslı bir yanaşma təqdim edir.

Qeyd edilənləri nəzərə alaraq, layihəni dəstəkləməyinizi xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, müzakirəyə keçirik. Ancaq görürəm, heç kim yazılmayıb. Çıxış etmək istəyən yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda səsverməyə keçirik. Xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Bu, gündəlikdəki 15-ci məsələdir. Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Azər müəllim, bu layihəyə də sizin komitənizdə baxılıb. Xahiş edirəm, məlumat verin.

**Azər Əmiraslanov.** Çox sağ olun. Hörmətli həmkarlar, diqqətinizə təqdim olunan qanun layihəsi Gömrük Məcəlləsində dəyişikliklər edilməsini nəzərdə tutur. Bu dəyişikliklərin əsas məqsədi ölkəyə idxal olunan qeyri-qida istehlak mallarının təhlükəsizlik tələblərinə uyğunluğuna sərhəddə nəzarəti təmin etməkdən ibarətdir. Məsələnin mahiyyəti barədə qeyd etmək istərdim ki, “Texniki tənzimləmə haqqında” Qanuna əsasən texniki reqlamentlərin tələblərinə uyğun olmayan malların idxalı qadağandır. Bundan əlavə, Prezidentin müvafiq sərəncamı ilə təsdiq edilmiş dövlət proqramında idxaldan əvvəl malların milli texniki reqlamentə uyğunluğunu yoxlayan mexanizmin yaradılması nəzərdə tutulub. Lakin hazırda Gömrük Məcəlləsi bu uyğunluq sənədlərini gömrük mərhələsində yoxlamaq üçün birbaşa hüquqi əsas vermir. Təqdim etdiyimiz layihə məhz bu boşluğu aradan qaldırır. Bunun üçün məcəllənin iki maddəsinə paralel dəyişiklik edilir. Gömrük orqanlarının yoxladığı sənədlər sırasına baytarlıq, fitosanitar, qida təhlükəsizliyi sənədləri ilə yanaşı, uyğunluq sertifikatı, uyğunluq bəyannaməsi və tanınmış xarici mənşəli uyğunluq sənədləri də əlavə olunur. Yəni gömrük sistemi texniki reqlamentə tabe olan malların bu sənədlərlə müşayiət olunmasını yoxlaya biləcək.

Hörmətli həmkarlar, xüsusi vurğulamaq istərdik ki, layihədə sahibkarların maraqları nəzərə alınıb, tələblərin idxal mallarına faktiki tətbiqi üçün ikiillik keçid dövrü nəzərdə tutulub ki, sahibkarlar fəaliyyətlərini yeni qaydalara uyğunlaşdıra bilsinlər. Tələb yalnız barəsində texniki reqlament və standartlar qəbul edilmiş qeyri-qida mallarına aiddir.

Layihənin qəbulu hansı nəticələrə gətirib çıxaracaqdır?

1. Təhlükəsizlik tələblərinə cavab verməyən mallar ölkəyə buraxılmayacaq. Bu, insanların sağlamlığına və ətraf mühitin qorunmasına xidmət edir.

2. İdxal mallarına yerli mallarla eyni rejim tətbiq olunmaqla ədalətli rəqabət təmin ediləcək və yerli istehsal dəstəklənəcək.

3. Ölkəmizin standartlaşma sistemi beynəlxalq tələblərə uyğunlaşdırılacaq.

Layihəni dəstəkləməyinizi xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, ətraflı məlumat verdiniz. Görürəm, çıxış etmək istəyən yoxdur. Heç kimin sözü, sualı yoxdur. Səsverməyə keçirik. Xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Bu, "Dövlət satınalmaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Mən sözü yenə də komitə sədri Azər müəllimə verirəm. Buyurun.

**Azər Əmiraslanov.** Çox sağ olun. Hörmətli həmkarlar, diqqətinizə təqdim olunan qanun layihəsi "Dövlət satınalmaları haqqında" Qanuna dəyişiklikləri nəzərdə tutur və bir konkret praktiki problemi həll edir. Məsələnin mahiyyəti nədən ibarətdir?

Dövlət xəzinədarlığı büdcə təşkilatlarının xarici təchizatçılardan aldığı mal, iş və xidmətlərə görə ödənişlər edərkən bir sıra hallarda müqavilə üzrə icra və ya avans təminatı tələb olunur. Lakin praktikada xarici təchizatçılar bu təminatları çox vaxt təqdim edə bilmirlər. Qüvvədə olan qanunda isə belə hallar üçün heç bir istisna yoxdur. Nəticədə təminat verilmədikdə xəzinədarlıq ödənişi edə bilmir və mal, iş və ya xidmət alışı faktiki olaraq baş tutmur.

Təqdim etdiyimiz layihə məhz bu boşluğu aradan qaldırır. Bunun üçün 49-cu maddəyə, yəni bir mənbədən satınalma bölməsinə konkret mexanizm əlavə olunur. Belə ki, qeyri-rezident təchizatçı təklifi ilə birlikdə təminat öhdəliyindən azad edilməsi barədə əsaslandırılmış müraciət təqdim edə bilər. Satınalma komissiyası nəzarət orqanının razılığını aldıqdan sonra təminatın verilməsinin mümkünsüzlüyünü müəyyən etdikdə satınalan təşkilat 10 iş günü ərzində müvafiq quruma müraciət edir. Həmin qurum isə 20 iş günü ərzində azadetmə və ya imtina barədə qərar qəbul edir.

Layihədə səmərəli bir qayda da nəzərdə tutulub. Azadetmə qərarından sonra 12 ay ərzində eyni təşkilat eyni təchizatçıdan eyni predmeti yenidən alarsa, təkrar qərar tələb olunmur.

Hörmətli həmkarlar, qeyd etmək istərdik ki, layihənin əhatə dairəsi məqsədli şəkildə məhduddur, yəni yalnız bir mənbədən satınalmaya və yalnız xarici təchizatçılara aiddir. Azadetmə avtomatik deyil, hər bir halda ayrıca əsaslandırma və nəzarət orqanının iştirakı ilə qərar qəbul edilir.

Qanunun mətnindəki digər düzəlişlər isə texniki xarakter daşıyır və bu istisnanın bütün maddələrdə uzlaşmasını təmin edir. Nəticədə layihə xarici təchizatçıların təminat verə bilmədiyi hallarda büdcə təşkilatlarının

öhdəliklərinin icrasında və xəzinədarlıqda yaranan çətinlikləri aradan qaldıracaq.

Layihənin birinci oxunuşda dəstəklənməsini xahiş edirəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Çıxış etmək üçün Rəşad müəllim yazılıb. Rəşad Mahmudov. Buyurun.

**Rəşad Mahmudov.** Çox hörmətli xanım sədr, hörmətli həmkarlar. Təqdim olunan qanun layihəsi xarici təchizatçılarla bağlı mövcud bir problemin aradan qaldırılmasına xidmət edir və mən bu dəyişikliyi müsbət qiymətləndirirəm.

Ümumiyyətlə, son illərdə dövlət satınalmaları haqqında aparılan islahatlar və bu yolda görülən işlər təqdirəlayiqdir. Lakin praktik səhiyyənin içərisində çalışan bir həkim kimi hesab edirəm ki, dövlət satınalmaları sahəsində, xüsusi ilə tibbi məhsulların, dərman vasitələrinin və yüksək texnologiyalı tibbi avadanlıqların satınalma mexanizmlərinin səhiyyənin spesifik xüsusiyyətlərinə uyğunlaşdırılması artıq zərurətə çevrilmişdir.

Son illər ölkəmizdə icbari tibbi sığortanın tətbiqi ilə səhiyyə sistemində yeni maliyyələşmə modeli formalaşıb ki, bu modelin də əsas fəlsəfəsi nəticəyə və performansa əsaslanan rəqabət mühitinin yaradılmasıdır. Xəstəxanalar göstərdikləri xidmətin keyfiyyətinə görə maliyyələşirlər və daha yaxşı nəticələr əldə etmək üçün daha səmərəli idarə olunmalıdırlar. Lakin praktikada dövlət satınalmaları mexanizmlərində bu məqsədlə səhiyyə sistemində bəzi uyğunsuzluqlar var.

Bu gün dövlət tibb müəssisələri, demək olar ki, hamısı eyni problemlə üzləşir. Satınalma prosesləri bəzən üç ay müddətində planlaşdırıldığı

halda, 6-8, hətta 9 aya qədər uzanır. Nəticədə xəstəxanaların gündəlik fəaliyyəti çətinləşir, tibbi xidmətlərin fasiləsizliyi risk altına düşür.

Digər mühüm məsələ isə ondan ibarətdir ki, tibbi məhsullar və dərman vasitələri adi istehlak malları deyil. Onların keyfiyyəti yalnız sənədlərlə deyil, klinik nəticələrlə qiymətləndirilir. Bəzən uzunmüddətli satınalma prosedurlarından sonra alınmış məhsullar praktik istifadədə gözlənilən nəticəni vermir və xəstəxanalar üçün külli miqdarda illik alınan bu mallar bəzən geri qaytarılması mümkün olmadığına, alternativ çevik mexanizmləri olmadığına görə çətinliklər yaradır. Bu isə həm həkimin peşəkar seçim imkanını məhdudlaşdırır, həm də nəticədə xəstə dövlət vəsaiti üçün ciddi risklər yaradır.

Əslində isə icbari tibbi sığortanın mahiyyəti xəstəxanalara ən optimal qiymətə ən yüksək keyfiyyətli məhsul seçmək imkanı verməkdir. Çünki səhiyyədə əsas rəqabət qiymət uğrunda deyil, müalicənin nəticəsi uğrundadır.

Hesab edirəm ki, tibbi məhsullar, dərman vasitələri və yüksək texnologiyalı tibbi avadanlıqlar üzrə satınalma mexanizmlərinə ayrıca yanaşılmalıdır. Burada çeviklik, keyfiyyət, klinik effektivlik və xəstə təhlükəsizliyi meyarları daha geniş nəzərə alınmalıdır. Əminliklə deyə bilərəm ki, bu problemin ayrı-ayrı qurumlara bağlı olduğunu düşünmürük. Bu, müxtəlif dövlət qurumlarının səlahiyyətlərinin kəsişdiyi və koordinasiyalı yanaşma tələb edən sistem xarakterli bir məsələdir. Satınalmaların təşkili, maliyyələşmə, xəzinədarlıq nəzarəti və tibb müəssisələrinin idarə olunması müxtəlif dövlət institutlarının səlahiyyətlərinə aid olduğundan bu istiqamətdə aparılacaq islahatların da

yalnız qarşılıqlı əməkdaşlıq və vahid yanaşma əsasında uğurlu nəticə verəcəyinə inanırıq.

Ümid edirəm ki, gələcəkdə aidiyyəti dövlət qurumları, Milli Məclisin müvafiq komitələri və səhiyyə ictimaiyyəti birlikdə bu istiqamətdə daha çevik, daha səmərəli və səhiyyənin xüsusiyyətlərinə uyğun hüquqi mexanizmlərin hazırlanmasına nail olacaqdır.

Mən qanun layihəsini dəstəkləyirəm və ona səs verəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Rəşad müəllim. Mənim yadımdadır, Siz bir dəfə də bu məsələ ilə bağlı çıxış etmişdiniz.

Fərid müəllim, keçən dəfəki məsələ, bax, onda yazılmışdı. Sonra Siz Məhəmməd Bazıqovla yanıma gələrsiniz. Azər müəllim, Sizinlə də bu barədə danışacağam. Sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz 17-ci məsələyə keçirik. Bu məsələ "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Qanunda

dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Musa müəllimə söz verirəm. Musa Quliyev. Buyurun.

**Musa Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, qanuna təklif edilən dəyişikliklər mahiyyətcə və konseptual olaraq ölkəmizdə sığorta sisteminin inkişafına, sığorta haqqında qanunvericiliyin təkmilləşdirilməsinə və beynəlxalq normalara uyğunlaşdırılmasına xidmət edir. Layihədə könüllü fəaliyyətin iştirakçısı olan könüllülərin, habelə istehsalat təcrübəsi keçən tələbə və şagirdlərin bədbəxt hadisələrdən icbari sığortalanması və onlara münasibətdə sığorta haqqının ödənilməsi mexanizmi müəyyən edilir. Bu məqsədlə təklif olunan 14.2-1-ci maddədə könüllülərə münasibətdə sığorta haqqının bağlanmış müqavilənin qüvvəyə mindiyi gündən, istehsalat təcrübəsi keçən tələbə və şagirdlərə münasibətdə isə istehsalat təcrübəsinin başlandığı tarixdən 15 iş günü müddətində ödənilməsi müəyyən edilmişdir.

Layihədə növbəti dəyişiklik “Sığorta ödənişi” adlanan 16-cı maddə ilə bağlıdır. 16.3.1-ci maddəyə edilməsi nəzərdə tutulan dəyişikliyə əsasən, sığorta ödənişlərinin sığortaolunanın əlilliyinin müəyyən edilməsi ilə deyil, peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinə uyğun olaraq ödənilməsi təklif edilir. Qeyd olunan dəyişiklik həmçinin Beynəlxalq Əmək Təşkilatının “Əməyin təhlükəsizliyi və gigiyenasının təşviq edilməsinin əsasları haqqında” 187 nömrəli Konvensiyasının 4-cü maddəsinin tələblərinə uyğundur.

Layihəyə yeni 17.4-1-ci maddənin əlavə edilməsi təklif olunur. Bu normaya əsasən sığorta fondunun sabitliyinin qorunması, sistemin

proqnozlaşdırıla bilən olması çox yüksək gəlirli şəxslərlə orta gəlirli şəxslər arasındakı ödəniş balansının qorunması məqsədi ilə birdəfəlik sığorta ödənişinin verilməsi, nəzərdə tutulan hallarda hesablanmış sığorta ödənişinin məbləğinin minimum aylıq əməkhaqqının min mislindən artıq olmamaqla təyin edilərək ödənilməsi təklif olunur.

Qanun layihəsi Əmək və sosial siyasət komitəsində ətraflı müzakirə olunmuş və birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir. Layihəni səsə qoymağı və dəstəkləməyi Sizdən xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim.

Çıxışa bir nəfər yazılıb. Elçin Mirzəbəyli. Buyurun.

**Elçin Mirzəbəyli.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media mənsubları. Müzakirəyə təqdim olunan qanun layihəsi sosial müdafiə sisteminin təkmilləşdirilməsinə xidmət edən növbəti təşəbbüslərdən biri kimi qəbul oluna bilər. Layihənin əsas üstünlüyü ondan ibarətdir ki, burada istehsalatda bədbəxt hadisələr nəticəsində zərər çəkmiş şəxslərin hüquqlarının müdafiəsi daha aydın və daha obyektiv meyarlar üzərində qurulur. Xüsusilə sığorta ödənişlərinin əlillik anlayışından daha geniş və daha dəqiq kateqoriya olan peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsi ilə əlaqələndirilməsi müasir beynəlxalq təcrübəyə uyğun yanaşmadır.

Həmçinin birdəfəlik sığorta ödənişlərinin hesablanmasına yuxarı hədd müəyyən edilməsi də sığorta fondunun maliyyə dayanıqlılığının qorunması və risklərin idarə olunması baxımından başa düşüləndir. Bununla yanaşı, hesab edirəm ki, qanunun tətbiqi prosesində bu normanın sosial ədalət prinsipi ilə necə uzlaşacağı, sığortanın təyin edilməsi zamanı subyektiv

dəyərləndirmələrə və digər neqativ hallara yol açıb-açmayacağı da diqqətlə izlənilməlidir.

Eyni zamanda, qanun layihəsinin mahiyyətini əsas götürərək sığorta sektorunun ümumi vəziyyətinə diqqət çəkmək istəyirəm. Təəssüf ki, ölkəmizdə sığorta sektorunun əsas problemi təkcə normativ hüquqi bazanın təkmilləşdirilməsi deyil, həm də vətəndaşların bu instituta etimadının ciddi müzakirə predmeti olması ilə bağlıdır. Vətəndaşlarımız sığortaya müdafiə mexanizmi kimi deyil, əksər hallarda məcburi rüsumverici öhdəlik kimi yanaşırlar. Bunun da obyektiv səbəbləri var. Sığorta bazarı iştirakçılarının tez-tez dəyişməsi, bu və ya digər sığorta hadisəsi baş verdikdə vətəndaşların bəzən süründürməçiliklə qarşılaşmaları, zərərin süni şəkildə aşağı qiymətləndirilməsi və təbii ki, sığorta mədəniyyətinin tam formalaşmaması etimad mühitini ciddi şəkildə zədələyir.

Bu baxımdan düşünürəm ki, zərərin qiymətləndirilməsi tamamilə Müstəqil Ekspertiza Mərkəzinə həvalə olunmalıdır. Etimad şəffaflıq olan yerdə yaranır. Vətəndaşa sığorta işinin gedişatını, sənədlərin qəbulu prosesindən ödənişin təsdiqinə qədər hər bir mərhələni ayrı-ayrılıqda onlayn qaydada şəffaf izləmək imkanı verilməlidir. Yəni ölkəmizdə rəqəmsallaşma istiqamətində həyata keçirilən zəruri tədbirlərin məhz bu sektora da tam şəkildə tətbiq olunmasına böyük ehtiyac var.

Eyni zamanda, sığorta müqavilələrindəki kiçik, bəzən görünməsi belə çətin olan şriftlərlə yazılmış, vətəndaşın başa düşmədiyi qəliz hüquqi terminlərdə sığorta ödənişindən imtina üçün nəzərdə tutulan qapalı, gizli istisnalar da aradan qaldırılmalı, müqavilələr unifikasiya olunmalı, sadə,

aydın dildə yazılmalı, vahid standart müəyyənləşməli və tətbiqi məcburi xarakter daşımalıdır.

Bu baxımdan qənaətimə görə, qarşıdakı dövrdə sığorta hadisələrinin qiymətləndirilməsi mexanizmlərinin daha şəffaf qurulmasına, Müstəqil Ekspertiza Mərkəzinin inkişafına, vətəndaş müraciətlərinə baxılmasında operativliyin artırılmasına və sığorta mübahisələrinin məhkəməyə çatmadan həlli mexanizmlərinin ölçülə bilən meyarlarla genişləndirilməsinə ehtiyac var.

Digər mühüm məsələ sığorta mədəniyyətinin inkişafı ilə bağlıdır. Sığorta mədəniyyətinin formalaşdığı ölkələrdə sığorta yalnız hüquqi öhdəlik deyil, həm də ailənin, sahibkarlığın və insan kapitalının təhlükəsizliyinin vacib elementi hesab olunur.

Bu baxımdan maliyyə savadlılığının artırılması, rəqəmsal sığorta xidmətlərinin genişləndirilməsi, sığorta məhsullarının daha əlçatan və anlaşılan formada təqdim edilməsi bu sahənin də inkişafına ciddi təkan verə bilər.

Hörmətli həmkarlar, sosial dövlətin əsas göstəricilərindən biri vətəndaşın risk qarşısında özünü müdafiədə hiss etməsidir. Təqdim olunan qanun layihəsi məhz bu məqsədə xidmət edir və istehsalatda çalışan insanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan mühüm addımlardan biri kimi qiymətləndirilə bilər. Bu baxımdan qanun layihəsini dəstəkləyirəm, eyni zamanda, qeyd etdiyim təkliflərin də gələcəkdə nəzərdən keçirilməsinin faydalı olacağını düşünürəm.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Verdiyiniz təkliflər ikinci oxunuşa aiddir, mən düşünürəm ki, şöbə bunların hamısını nəzərə alacaq.

Fərid müəllim, ikinci oxunuşa aid verilən təkliflər protokola da düşsün. Çox sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Növbəti iclas ayın 10-da olacaq. Nəzərə alın. Sağ olun.

## EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

*7 iyul 2026-cı il*

**Afət Həsənova.** Müzakirəyə təqdim olunan qanun layihəsini hüquqi və strateji baxımdan aktual hesab edir, dəstəkləyir və dəyərli həmkarlarımı da bu layihənin lehinə səs verməyə çağırıram.

Mahiyyət etibarilə bu qanun ölkəmizin rəqəmsal memarlığının, dövlət informasiya ehtiyatlarının idarə olunmasının və kibərməkanımızın suverenliyinin hüquqi fundamentidir. Qanunvericilikdə nəzərdə tutulan bu son tənzimləmələr dövlət strukturlarının vahid rəqəmsal platformada inteqrasiyasını sürətləndirmək və informasiya proseslərinin idarə edilməsini müasir çağırışlara uyğunlaşdırmaq məqsədi daşıyır. Biz bu addımla milli informasiya resurslarımızın mərkəzləşdirilmiş təhlükəsizliyini təmin edir, dövlətimizin texnoloji müstəqilliyini hüquqi cəhətdən daha da möhkəmləndiririk.

Sözügedən qanunun 5-ci və 6-cı maddələrinə diqqət yetirsək, dövlət informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılması, habelə qanunun 14-cü maddəsində təsbit olunmuş informasiyanın mühafizəsi prinsipləri birbaşa dövlət orqanlarının və sistem operatorlarının üzərinə çox ciddi hüquqi öhdəliklər qoyur. Layihədə nəzərdə tutulan cari tənzimləmələr sistem operatorlarının məsuliyyətini və təhlükəsizlik mexanizmlərini daha da dəqiqləşdirir.

Bununla belə, hər zaman qanunun ali fəlsəfəsinə, yəni onun insan amilinə, vətəndaşın gündəlik rəqəmsal təhlükəsizliyinə necə xidmət etdiyinə də diqqət yetirməliyik. Bu gün rəqəmsallaşma və kommersiyalaşma o dərəcədə sürətlənib ki, vətəndaşlarımız real həyatda

kütləvi reklam mesajlarının bombardmanına məruz qalır, bəzən isə rəqəmsal platformalarda tam fərqində olmadan, ehtiyatsızlıqdan hansısa şərtləri qəbul edərək öz fərdi məlumatlarının sızmasına şərait yaradırlar. Bu cür halların, yəni vətəndaşların istəmədən etdiyi səhvlərin nəticəsində məlumat sızmalarının qarşısının alınması, onların kiberməkanda müdafiə olunması olduqca vacibdir. Düşünürəm ki, informasiya mülkiyyətçilərinin və operatorlarının vəzifələri vətəndaşlarımızın fərdi məlumatlarının mühafizəsi mexanizmlərini daha da gücləndirmək, bu sahədəki nəzarət tədbirlərini təkmilləşdirməkdir. Çünki rəqəmsal məkanda vətəndaşın datası onun şəxsi toxunulmazlıq hüququnun ayrılmaz bir parçasıdır.

Fikrimcə, bu qanun çərçivəsində fəaliyyət göstərən informasiya təhlükəsizliyi strukturları, sadəcə, texniki kiberhücumları dəf edən qurumlar olmamalıdırlar. Bu strukturlar həm də süni intellekt əsrində məlumat manipulyasiyasının qarşısını alan, milli proqram təminatlarının elmi əsaslarla təhlükəsizliyini yoxlayan və ən əsası vətəndaşın rəqəmsal hüquqlarını qoruyan, cəmiyyətdə rəqəmsal savadlılığı artıran effektiv bir “beyin mərkəzi”nə çevrilməlidirlər. Biz qlobal rəqəmsal standartlara inteqrasiya edərkən ilk növbədə öz vətəndaşımızın rəqəmsal məkanda təhlükəsizliyini, hüquqlarını və rahatlığını təmin etməliyik.

Mən bir daha müasir dövrdə mühüm əhəmiyyət daşıyan bu qanun layihəsini dəstəkləyir, dövlətimizin rəqəmsal suverenliyi və vətəndaşlarımızın hüquqi müdafiəsi naminə hər birinizi bu dəyişikliklərin lehinə səs verməyə çağırıram.

**Asif Əsgərov.** Dövlətimizin həm beynəlxalq arenada, həm də daxili quruculuq işlərində əldə etdiyi hər bir müvəffəqiyyət Azərbaycan Respublikasının Prezidenti, möhtərəm cənab İlham Əliyevin misilsiz

xidmətlərinin, onun sarsılmaz siyasi iradəsinin və uzaqgörən strateji zəkasının bəhrəsidir. Bu müdrik siyasət sayəsində Azərbaycan qlobal miqyasda söz sahibi olan güclü bir dövlətə, daxildə isə intellektual inkişafın mərkəzinə çevrilmişdir.

Avropa Komissiyasının Prezidenti xanım Ursula fon der Lyayenin ölkəmizə reallaşan tarixi səfəri dövlətimizin dünya miqyasında artan geosiyasi çəkisinin və ali səviyyəli etimadın parlaq təzahürüdür. Ən yüksək rütbəli rəhbərlərin ardıcıl olaraq Bakıya gəlməsi Azərbaycanın beynəlxalq münasibətlər sistemində mühüm qərar qəbuledici mərkəzlərdən birinə çevrildiyini təsdiq edir.

Həyata keçirilən uzaqgörən enerji və nəqliyyat diplomatiyası bu gün beynəlxalq miqyasda resurs təminatını şaxələndirir və onun gələcək taleyini müəyyən edir. Bu gün Azərbaycan, sadəcə, bir coğrafi məkan deyil, həm də şaxələnmiş infrastruktur arteriyaları ilə qitələri birləşdirən qlobal bir qovşaq halını almışdır. Biz qlobal ekoloji çağırışlara və yaşıl enerji strategiyasına verdiyimiz töhfələrlə gələcəyin tərəfdaşlıq modelini diktə edirik.

Ən əsası, cənab Prezidentin hərbi-siyasi dühası sayəsində Cənubi Qafqazda ədalət təməlləri üzərində qurulmuş dayanıqlı bir sülh mühiti bərqərar olmuşdur. Ölkəmiz bu sülhü real və humanist addımlarla qoruyur, regionu rifah və sabitlik məkanına çevirir.

Dövlət rəhbərimizin xarici siyasətdə ucaltdığı bu möhtəşəm zirvə daxili idarəçilikdə qlobal elmi-texniki tərəqqinin ali hədəfləri ilə mükəmməl şəkildə tamamlanır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Rəqəmsal İnkişaf Şurasının fəaliyyətə başlaması dövlətçilik tariximizdə tərəqqi və modernləşmənin yeni bir elmi

mərkəzini formalaşdırdı. Mehriban xanımın yüksək idarəçilik məharəti və intellektual baxışı ilə idarə olunan bu strateji gedişat dövlət strukturlarının çevikliyini artırır və dövlət–vətəndaş münasibətlərində şəffaflığa əsaslanan tamamilə yeni bir mədəniyyət formalaşdırır.

Qanunvericilik sistemində reallaşan köklü islahatlar ölkəmizi mütərəqqi ideyalar, innovativ sərmayələr və yaradıcı beyinlər üçün unikal bir mərkəzə çevirməkdədir. Təhsil mühitinin tamamilə yenilənməsi və gənc nəslin qlobal rəqabətə davamlı biliklərlə silahlandırılması isə dövlətimizin insan kapitalına verdiyi ali dəyərin təzahürüdür.

Avropa Komissiyası Prezidentinin ölkəmizə reallaşan bu mühüm səfəri ilə Rəqəmsal İnkişaf Şurasının ilk tarixi iclası müstəqil dövlətimizin xarici və daxili strateji xəttinin nə qədər monolit bir vəhdət təşkil etdiyini göstərir. Əvəzedilməz strateji tərəfdaşlığımızı təsdiq edən bu diplomatik zəfər möhtərəm Prezidentimiz İlham Əliyevin qlobal miqyaslı xidmətlərinin və uzaqgörən dühasının bəhrəsidir.

Bu beynəlxalq nüfuzumuzu daxildə yeni dövrün texnoloji və elmi tələbləri ilə mükəmməl şəkildə uzlaşdıran Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi isə Azərbaycanı gələcəyin ən mütərəqqi innovasiya məkanına çevirməkdədir. Xarici siyasətdəki qlobal qüdrətimizlə daxili idarəçilikdəki bu intellektual tərəqqinin harmoniyası dövlət rəhbərliyimizin xalqımıza bəxş etdiyi ən böyük töhfədir və müasir Azərbaycanın gələcəyinin sarsılmaz təminatıdır.

**Bədəl Bədəlov.** Müasir dövrdə rəqəmsal transformasiya dövlətlərin iqtisadi gücünü, idarəetmə səmərəliliyini və beynəlxalq rəqabət qabiliyyətini müəyyən edən əsas amillərdən biri hesab olunur. Dördüncü Sənaye İnqilabının yaratdığı yeni reallıqlar fonunda rəqəmsal texnologiyalar, süni

intellekt, böyük verilənlər, bulud texnologiyaları və kibertəhlükəsizlik artıq təkcə texnoloji inkişaf göstəricisi deyil, həm də milli təhlükəsizliyin, iqtisadi dayanıqlığın və sosial rifahın vacib elementinə çevrilib. Bu baxımdan Azərbaycanda son illərdə həyata keçirilən ardıcıl islahatlar ölkənin rəqəmsal gələcəyinin formalaşdırılmasına xidmət edən strateji kursun əsasını təşkil edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətində rəqəmsallaşma iqtisadiyyatın şaxələndirilməsi, dövlət idarəçiliyinin müasirləşdirilməsi, vətəndaş məmnunluğunun artırılması və innovasiya əsaslı inkişaf modelinin qurulmasının mühüm istiqaməti kimi müəyyən olunub. Cari ilin fevral ayında dövlət başçısının sədrliyi ilə keçirilən müşavirədə qəbul edilən qərarlar da məhz bu strateji yanaşmanın davamı olub. Həmin qərarlar rəqəmsal inkişafın yeni mərhələsinin hüquqi və institusional əsaslarını formalaşdırmaqla yanaşı, qarşıdakı illər üçün konkret hədəfləri də müəyyənləşdirib.

Bu istiqamətdə atılan ən mühüm addımlardan biri Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının yaradılmasıdır. Şuranın təsis edilməsi rəqəmsallaşma, süni intellekt, innovasiya və kibertəhlükəsizlik sahələrində dövlət siyasətinin vahid mərkəzdən əlaqələndirilməsinə, dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsinə və həyata keçirilən layihələrin səmərəliliyinin artırılmasına xidmət edir. Bu yanaşma rəqəmsal transformasiyanın sistemli şəkildə idarə olunmasına imkan yaradır.

Eyni zamanda, Prezident İlham Əliyevin 2026-cı il 27 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı" bu sahədə dövlət siyasətinin əsas yol xəritəsi kimi çıxış edir. Fəaliyyət planı

dövlət xidmətlərinin tam rəqəmsallaşdırılmasını, iqtisadiyyatın rəqəmsal sektorunun genişləndirilməsini, beynəlxalq rəqabət qabiliyyətinin artırılmasını, süni intellekt texnologiyalarının tətbiqini, innovasiya ekosisteminin gücləndirilməsini və kibertəhlükəsizlik sisteminin müasir tələblərə uyğun qurulmasını nəzərdə tutur.

Bu sənədin əsas üstünlüklərindən biri müxtəlif strateji proqramların vahid konsepsiya çərçivəsində uzlaşdırılmasıdır. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair strategiya, Rəqəmsal İnkişaf Konsepsiyası və Süni İntellekt Strategiyası arasında qarşılıqlı əlaqənin təmin olunması qarşıya qoyulan məqsədlərin daha səmərəli icrasına şərait yaradır.

Rəqəmsal inkişaf siyasətinin həyata keçirilməsində Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclası xüsusi əhəmiyyət daşıyır. 2026-cı il iyunun 29-da keçirilən bu iclas rəqəmsal transformasiya prosesinin praktiki mərhələyə keçdiyini nümayiş etdirir. İclasda fəaliyyət planının icra vəziyyəti, qanunvericilik islahatları, təhsilin rəqəmsallaşdırılması, süni intellekt texnologiyalarının tətbiqi və kibertəhlükəsizlik sisteminin gücləndirilməsi kimi mühüm məsələlər müzakirə olunub.

Rəqəmsal İnkişaf Şurasının sədri Mehriban Əliyeva bildirib ki, “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı”nın icrası şuranın əsas fəaliyyət istiqamətidir. O qeyd edib ki, şuranın prioritetləri dövlət idarəçiliyində rəqəmsallaşmanın, süni intellektin, kibertəhlükəsizliyin və innovasiya ekosisteminin inkişafı, eləcə də investisiyaların və startapların dəstəklənməsidir. Mehriban Əliyeva süni intellektin strateji əhəmiyyətini

vurğulayaraq bütün qərarların Azərbaycanın milli maraqlarına uyğun qəbul edilməsinin vacibliyini bildirib.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən həyata keçirilən layihələr də bu strategiyanın real nəticələrini göstərir. “Mygov” platformasının genişləndirilməsi, Milli Məlumat Hövzəsinin yaradılması, dövlət informasiya sistemlərinin “Hökumət buludu”na köçürülməsi, süni intellekt həllərinin tətbiqi və Milli Kibertəhlükəsizlik Agentliyinin fəaliyyətə başlaması rəqəmsal transformasiyanın əsas komponentlərini təşkil edir.

Xüsusilə “Mygov” platformasının inkişafı dövlət xidmətlərinin vətəndaşlara daha rahat, sürətli və şəffaf şəkildə təqdim edilməsinə imkan yaradır. Ayrı-ayrı dövlət qurumlarının xidmətlərinin vahid platformada birləşdirilməsi və “Yalnız bir dəfə” prinsipinin tətbiqi vətəndaş–məmur təmasını minimuma endirir, bürokratik prosedurları azaldır və xidmət keyfiyyətini yüksəldir. Proaktiv xidmətlərin tətbiqi isə dövlət idarəçiliyində tamamilə yeni yanaşmanın formalaşdığını göstərir.

İnnovasiya sahəsində hazırlanmış geniş qanunvericilik paketi Azərbaycanın texnologiya mərkəzinə çevrilməsi məqsədini daşıyır. Vençur kapitalı, “mələk investorlar”, kraudfandinq, startapların dəstəklənməsi, “Rəqəmsal Səyyah Vizası”, yüksək texnologiyalar üzrə uzunmüddətli vergi güzəştləri və tədqiqat fəaliyyətinin stimullaşdırılması ölkədə innovasiya ekosisteminin inkişafına güclü təkan verəcək.

Süni intellektin dövlət idarəçiliyində tətbiqi də qarşıdakı dövrün əsas prioritetlərindən biridir. “Mygov” platformasında virtual vətəndaş köməkçisinin istifadəyə verilməsi, müxtəlif dövlət qurumlarında süni intellekt əsaslı qərarvermə sistemlərinin hazırlanması, milli GPU infrastrukturunun yaradılması və “Regulatory Sandbox” mexanizminin

tətbiqi bu istiqamətdə mühüm addımlar hesab olunur. Bu yanaşma dövlət xidmətlərinin daha operativ, dəqiq və səmərəli təşkilinə imkan yaradacaq.

Rəqəmsal transformasiyanın ayrılmaz hissəsi olan kibertəhlükəsizlik sahəsində həyata keçirilən islahatlar da xüsusi ilə diqqətəlayiqdir. Milli Kibertəhlükəsizlik Agentliyinin yaradılması, Milli CERT və Təhlükəsizlik Əməliyyatları Mərkəzinin formalaşdırılması, kritik informasiya infrastrukturunun mühafizəsinin gücləndirilməsi və süni intellekt əsaslı kibermüdafiə sistemlərinin qurulması rəqəmsal təhlükəsizliyin təmin edilməsinə xidmət edir. Bu tədbirlər dövlət informasiya sistemlərinin dayanıqlığını artırmaqla yanaşı, beynəlxalq kibertəhlükəsizlik reytinqlərində mövqelərin möhkəmlənməsinə də şərait yaradacaq.

Təhsil sahəsində aparılan rəqəmsallaşma prosesi də insan kapitalının inkişafında mühüm rol oynayır. “Rəqəmsal məktəb”, “Rəqəmsal bacarıqlar” və “STEAM Azərbaycan” layihələri yeni nəslin müasir texnologiyalarla işləmək bacarıqlarını inkişaf etdirir. Elektron təhsil xidmətlərinin genişləndirilməsi, elektron attestat və diplomların tətbiqi, süni intellekt əsaslı fərdiləşdirilmiş təhsil modelinin hazırlanması gələcəyin bilik iqtisadiyyatı üçün peşəkar kadrların yetişdirilməsinə xidmət edir.

Prezident İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf kursu nəticəsində Azərbaycan rəqəmsal transformasiyanın yeni mərhələsinə daxil olub. Həyata keçirilən islahatlar yalnız texnologiyaların tətbiqi ilə məhdudlaşmır. Bu proses dövlət idarəçiliyinin modernləşdirilməsini, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasını, innovativ sahibkarlığın inkişafını, insan kapitalının gücləndirilməsini və milli kibertəhlükəsizlik sisteminin formalaşdırılmasını özündə birləşdirən kompleks inkişaf modelidir. Məhz bu ardıcıl siyasət sayəsində Azərbaycan regionun

rəqəmsal inkişaf, innovasiya və yüksək texnologiyalar mərkəzlərindən birinə çevrilmək istiqamətində inamla irəliləyir və rəqəmsal iqtisadiyyatın imkanlarından maksimum səmərə ilə istifadə etməyə hazır olduğunu nümayiş etdirir.

**Ceyhun Məmmədov.** Azərbaycanda rəqəmsal inkişaf, innovasiya, süni intellekt və kibertəhlükəsizlik sahələrində həyata keçirilən islahatlar ölkəmizin gələcək inkişaf strategiyasının əsas istiqamətlərindən birini təşkil edir. Bu istiqamətdə dövlət tərəfindən ardıcıl və sistemli addımlar atılır, müasir texnologiyaların tətbiqi genişləndirilir və rəqəmsal transformasiya prosesi sürətlə davam etdirilir.

Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə qəbul edilmiş qərarlar və təsdiq olunmuş "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı" ölkəmizdə rəqəmsallaşmanın, innovasiya ekosisteminin, süni intellekt texnologiyalarının və kibertəhlükəsizliyin inkişafı üçün yeni mərhələnin əsasını qoyur.

Məlum olduğu kimi, bu istiqamətdə yaradılmış Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının 2026-cı il iyunun 29-da keçirilən ilk iclasına Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva sədrlik etdi. İclasda fəaliyyət planının icra vəziyyəti, rəqəmsal inkişaf sahəsində qanunvericilik islahatları, təhsilin rəqəmsallaşdırılması, süni intellekt və kibertəhlükəsizlik istiqamətində görülən işlər geniş müzakirə olundu.

Bu islahatların mühüm istiqamətlərindən biri dövlət xidmətlərinin daha əlçatan, şəffaf və operativ formada vətəndaşlara təqdim edilməsidir. "Mygov" platformasının genişləndirilməsi, müxtəlif dövlət xidmətlərinin

vahid rəqəmsal mühitdə birləşdirilməsi, proaktiv xidmətlərin tətbiqi və rəqəmsal sənədləşmə sisteminin inkişafı vətəndaş məmnuniyyətinin artırılmasına mühüm töhfə verir.

Eyni zamanda, süni intellekt texnologiyalarının dövlət idarəçiliyində tətbiqi, innovativ layihələrin dəstəklənməsi, startap ekosisteminin inkişaf etdirilməsi və kibertəhlükəsizliyin gücləndirilməsi Azərbaycanın rəqəmsal iqtisadiyyatının formalaşdırılması baxımından da xüsusi əhəmiyyət daşıyır.

Onu da xüsusi qeyd etmək lazımdır ki, təhsil sahəsində həyata keçirilən rəqəmsal transformasiya da xüsusi önəm kəsb edir. “Rəqəmsal məktəb”, “Rəqəmsal bacarıqlar” və “STEAM Azərbaycan” kimi layihələr gənc nəslin müasir bilik və bacarıqlara yiyələnməsinə, rəqabətqabiliyyətli insan kapitalının formalaşmasına və ölkəmizin texnoloji inkişafına mühüm töhfə verir.

Rəqəmsal inkişaf istiqamətində həyata keçirilən bu genişmiqyaslı islahatlar dövlət idarəçiliyinin daha səmərəli təşkilinə, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasına, innovativ biznes mühitinin formalaşdırılmasına və tezliklə Azərbaycanın regionun aparıcı rəqəmsal və texnologiya mərkəzlərindən birinə çevrilməsinə mühüm töhfə verəcək.

**Heydər Əsədov.** Azərbaycanda rəqəmsal inkişaf sahəsində həyata keçirilən islahatlar ölkəmizin sosial-iqtisadi inkişaf strategiyasının ən mühüm istiqamətlərindən birinə çevrilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə müəyyən edilmiş yeni inkişaf prioritetləri dövlət idarəçiliyinin müasirləşdirilməsi, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, innovasiya əsaslı inkişaf modelinin formalaşdırılması və vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli təşkili üçün möhkəm zəmin yaradıb. Bu baxımdan “Azərbaycan Respublikasında rəqəmsal inkişafın

sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı” ölkənin rəqəmsal transformasiyasını vahid strateji yanaşma əsasında həyata keçirməyə imkan verən mühüm sənəddir. Rəqəmsal İnkişaf Şurasının yaradılması isə dövlət qurumlarının fəaliyyətinin əlaqələndirilməsi, rəqəmsallaşma proseslərinin sürətləndirilməsi və innovasiya ekosisteminin inkişafı baxımından mühüm institusional addımdır. Xüsusi ilə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə fəaliyyət göstərən Rəqəmsal İnkişaf Şurası ölkənin rəqəmsal transformasiyasının koordinasiyasında mühüm rol oynayır. Şuranın ilk iclasında fəaliyyət planının icra vəziyyətinin, qanunvericilik islahatlarının, süni intellekt, kibertəhlükəsizlik və təhsilin rəqəmsallaşdırılması istiqamətində görülən işlərin geniş şəkildə müzakirə olunması, qarşıya konkret hədəflərin qoyulması göstərir ki, bu sahədə həyata keçirilən islahatlar sistemli və ardıcıl xarakter daşıyır. Mehriban Əliyevanın rəhbərliyi ilə formalaşdırılan koordinasiya mexanizmi dövlət qurumlarının fəaliyyətinin uzlaşdırılmasına, innovasiya və texnologiya siyasətinin vahid platformada idarə olunmasına, investisiyaların təşviqinə və rəqəmsal inkişaf strategiyasının effektiv icrasına mühüm töhfə verir. Rəqəmsallaşma istiqamətində həyata keçirilən islahatların mərkəzində vətəndaş məmnuniyyətinin artırılması dayanır. “Mygov” və “Mygov Biznes” platformalarının inkişaf etdirilməsi nəticəsində dövlət xidmətləri vahid rəqəmsal mühitdə təqdim olunur, müxtəlif dövlət qurumlarının informasiya sistemləri mərhələli şəkildə inteqrasiya edilir. Bu yanaşma vətəndaş–məmur təmasını minimuma endirməklə yanaşı, xidmətlərin daha operativ, şəffaf və rahat şəkildə göstərilməsini təmin edir. Proaktiv xidmətlərin genişləndirilməsi və “Yalnız bir dəfə” prinsipinin tətbiqi dövlət idarəçiliyində

keyfiyyətcə yeni mərhələnin başlanğıcıdır. Artıq bir sıra sosial xidmətlər vətəndaşın əlavə müraciəti olmadan təqdim edilir, yaxın perspektivdə bu yanaşmanın daha geniş sahələri əhatə etməsi nəzərdə tutulur. Son aylarda “Mygov” platformasının istifadəçi sayının 30 faiz artaraq 3,5 milyona çatması cəmiyyətin rəqəmsal xidmətlərə artan etimadının və islahatların real nəticələrinin göstəricisidir.

Mühüm istiqamətlərdən biri də Milli Məlumat Hövzəsinin yaradılmasıdır. Dövlət informasiya sistemlərində mövcud məlumatların vahid platformada toplanması, onların analitik emalı və süni intellekt texnologiyalarının tətbiqi gələcəkdə vətəndaşlara daha fərdiləşdirilmiş və qabaqlayıcı dövlət xidmətlərinin göstərilməsinə imkan verəcək. Bu, dünyanın qabaqcıl rəqəmsal dövlət idarəçiliyi modellərinə uyğun yanaşmadır. İnnovasiya sahəsində nəzərdə tutulan qanunvericilik islahatları Azərbaycanın texnologiya və innovasiya mərkəzinə çevrilməsi istiqamətində mühüm əhəmiyyət daşıyır. Vençur kapitalı fondlarının fəaliyyətinin hüquqi əsaslarının yaradılması, “mələk investorlar” institutunun formalaşdırılması, texnologiya şirkətləri üçün uzunmüddətli vergi güzəştlərinin tətbiqi, tədqiqat və inkişaf fəaliyyətinin stimullaşdırılması, startapların dövlət satınalmalarında iştirak imkanlarının genişləndirilməsi və “Rəqəmsal Səyyah Vizası”nın tətbiqi ölkəmizin innovasiya potensialını daha da gücləndirəcək. Bu islahatlar həm yerli sahibkarlar, həm də xarici investorlar üçün daha əlverişli biznes mühitinin formalaşmasına xidmət edir.

Süni intellekt artıq bütün dünyada inkişafın əsas hərəkətverici qüvvələrindən biri hesab olunur və Azərbaycan da bu istiqamətdə mühüm addımlar atır. “Mygov” platformasında virtual vətəndaş köməkçisinin

istifadəyə verilməsi, müxtəlif dövlət qurumlarında süni intellekt əsaslı həllərin tətbiqi, milli hesablama infrastrukturunun yaradılması və tənzimləyici test mühitinin formalaşdırılması ölkəmizin bu sahədə qlobal texnoloji çağırışlara adekvat cavab verdiyini göstərir.

Ən vacib məqamlardan biri isə süni intellekt texnologiyalarının tətbiqində milli maraqların, məlumat təhlükəsizliyinin və rəqəmsal suverenliyin əsas prinsip kimi götürülməsidir. Rəqəmsal transformasiyanın uğuru güclü kibertəhlükəsizlik sistemi olmadan mümkün deyil. Milli Kibertəhlükəsizlik Agentliyinin yaradılması, Milli Təhlükəsizlik Əməliyyatları Mərkəzinin və Milli CERT-in fəaliyyətə başlaması, kritik informasiya infrastrukturunun mühafizəsinin gücləndirilməsi, dövlət informasiya sistemlərinin “Hökumət buludu” platformasına köçürülməsi və süni intellekt əsaslı kibermüdafiə mexanizmlərinin tətbiqi ölkəmizin rəqəmsal təhlükəsizlik imkanlarını əhəmiyyətli dərəcədə gücləndirəcək. Bu tədbirlər həm dövlət qurumlarının, həm də vətəndaşların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunmasına xidmət edir.

Təhsil sahəsində həyata keçirilən rəqəmsal transformasiya da xüsusi əhəmiyyət daşıyır. “Rəqəmsal məktəb”, “Rəqəmsal bacarıqlar” və “STEAM Azərbaycan” layihələri yüz minlərcə şagirdin müasir bilik və bacarıqlara yiyələnməsinə imkan yaradır. Elektron təhsil xidmətlərinin genişləndirilməsi, təhsil sənədlərinin rəqəmsallaşdırılması və gələcəkdə süni intellekt əsaslı fərdiləşdirilmiş öyrənmə imkanlarının tətbiqi insan kapitalının inkişafına verilən önəmin göstəricisidir. Çünki rəqəmsal iqtisadiyyatın əsas resursu məhz yüksək ixtisaslı insan kapitalıdır. Bu gün həyata keçirilən islahatlar göstərir ki, Azərbaycan rəqəmsal transformasiyanı yalnız texnoloji yenilənmə kimi deyil, dövlət idarəçiliyinin

yeni inkişaf modeli kimi qəbul edir. Dövlət xidmətlərinin daha əlçatan olması, innovasiya mühitinin gücləndirilməsi, süni intellekt texnologiyalarının geniş tətbiqi, kibertəhlükəsizliyin möhkəmləndirilməsi və insan kapitalına yönəlmiş siyasət ölkəmizin rəqəmsal gələcəyinin etibarlı təməlini formalaşdırır. Əminik ki, Prezident İlham Əliyevin müəyyən etdiyi strateji kursun və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən koordinasiyalı fəaliyyətin nəticəsində bu islahatlar Azərbaycanın rəqəmsal suverenliyinin daha da möhkəmlənməsinə, beynəlxalq rəqabət qabiliyyətinin yüksəlməsinə və ölkəmizin regionun aparıcı rəqəmsal inkişaf və innovasiya mərkəzlərindən birinə çevrilməsinə mühüm töhfə verəcək.

**Xanlar Fətiyev.** Azərbaycan Respublikasının Cənubi Qafqazdakı liderliyi, yaratdığı yeni reallıqlar, ərsəyə gətirdiyi kommunikasiya bağlantılarının Avropa ilə Asiya arasındakı əlaqələrə verdiyi töhfələr dünyanın aparıcı siyasi dairələri tərəfindən diqqətlə izlənilir. Beynəlxalq münasibətlər sistemində xüsusi çəkisi və yeri olan Avropa İttifaqının Azərbaycanla münasibətlərin genişlənməsinə son dövrlərdə ayrıca maraq və diqqəti bunun göstəricisi hesab oluna bilər.

Bu baxımdan ötən həftənin əsas siyasi hadisələrindən olan Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin ölkəmizə etdiyi səfər Azərbaycan–Avropa İttifaqı münasibətlərinin gələcəyinə və inkişaf perspektivlərinə yeni işıq saldı. Cənab Prezident İlham Əliyevin və Ursula fon der Lyayenin mətbuata bəyanatlarında səsləndirdikləri fikirlər və toxunduqları məsələlər göstərdi ki, Azərbaycan–Avropa İttifaqı əlaqələrində qarşılıqlı və bərabərhüquqlu prinsiplər əsasında yeni səhifə açılır.

Avropa İttifaqı uzun illərdir ki, Azərbaycanın əsas ticarət tərəfdaşıdır. O cümlədən Azərbaycan Avropa İttifaqının Cənubi Qafqazdakı əsas ticarət tərəfdaşıdır. Bu tərəfdaşlığın əsas çəkisi enerji sferasını əhatə edir. Avropa İttifaqı bu əməkdaşlıqla bağlı Azərbaycanın etibarlı tərəfdaş olmasının fərqindədir. Avropanın qaz təchizatında ciddi böhranların yaşandığı son illərdə Avropa İttifaqı üzvləri Azərbaycanın etibarlı tərəfdaş olmasına şahidlik ediblər. Ursula fon der Lyayenin Bakıda respublikamızın enerji tərəfdaşı olmasını, Cənub Qaz Dəhlizinin Avropanın enerji təhlükəsizliyini gücləndirdiyini bəyan etməsi və buna görə Prezident İlham Əliyevə təşəkkür bildirməsi ölkəmizin həyata keçirdiyi uzaqgörən enerji siyasətinin, etibarlı tərəfdaş imicinin və beynəlxalq nüfuzunun ən yüksək səviyyədə etiraf olunduğunu bir daha nümayiş etdirdi.

Lakin Azərbaycanla Avropa İttifaqının enerji təhlükəsizliyi əməkdaşlığı yalnız neft və təbii qazla məhdudlaşmır. Bu sahədə əməkdaşlıq Azərbaycanın müasir çağırışlara cavab verən enerji strategiyasının nəticəsi olaraq bərpaolunan enerji sferasını da əhatə edir. Beləliklə, Azərbaycanın bərpaolunan enerji infrastrukturunu inkişaf etdirməsi ölkəmizlə Avropa İttifaqı arasında yeni əməkdaşlıq istiqamətinin əsasını qoyub. Prezident İlham Əliyevin Ursula fon der Lyayenlə görüşündə bu məsələ də müzakirə olundu və dövlətimizin başçısının qeyd etdiyi kimi, Azərbaycanla Avropa Komissiyası bu baxımdan strateji tərəfdaş ola bilərlər.

Bu gün rəsmi Bakının prioritetlərindən biri Azərbaycanla Ermənistan arasındakı sülh prosesinin uğurla özünün məntiqi sonluğuna çatdırılması, regionda möhkəm və əbədi sülhün təmin olunmasıdır. Respublikamızın bu istiqamətdə beynəlxalq hüquq prinsipləri çərçivəsində atdığı addımlar,

Ermənistana daşınan yüklərin tranzitinə məhdudiyyətləri aradan qaldırması sülhü artıq reallığa çevirib. Lakin Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, sülhü gücləndirmək, uzunmüddətli və əbədi etmək üçün ürəkdən çalışmalıyıq və bu prosesdə respublikamız Avropa Komissiyasının dəstəyini çox yüksək dəyərləndirir. Bu mənada Ursula fon der Lyayenin ölkəmizə səfərinin əsas siyasi nəticələrindən biri budur ki, Avropa İttifaqı Azərbaycanın yaratdığı reallıqlara dəstək verir.

Avropa İttifaqının bu reallıqlarla bağlı mühüm siyasi yanaşmalarından biri də sülhün təmin olunmasında Prezident İlham Əliyevin şəxsi liderlik keyfiyyətlərini qəbul etməsi və yüksək dəyərləndirməsidir. Ursula fon der Lyayenin mətbuata bəyanatında "İcazə verin, Ermənistanla tarixi sülh müqaviləsini başlatmağınız münasibətilə Sizi təbrik edim. Siz regionda sülhün və əməkdaşlığın təşviq olunmasında şəxsi liderlik keyfiyyətlərini nümayiş etdirdiniz" deməsi cənab Prezident İlham Əliyevin liderliyi ilə formalaşan sülh gündəliyinin beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini, Avropa İttifaqının regionda davamlı sülhün və əməkdaşlığın təmin olunmasında ölkəmizin aparıcı rolunu qəbul etdiyini bir daha nümayiş etdirir.

Diqqətinizi bir məqama da yönəltmək istəyirəm. Məlumdur ki, Avropa Komissiyasının Azərbaycanla əməkdaşlığa verdiyi önəmə rəğmən Avropa İttifaqının digər strukturu olan Avropa Parlamenti Azərbaycana münasibətdə qərəzli mövqe nümayiş etdirərək ölkəmizə qarşı davamlı şəkildə böhtan və şantaj xarakterli qətnamələr qəbul edib. Düzdür, bu qətnamələrin Azərbaycan üçün heç bir əhəmiyyəti yoxdur. Çünki ölkəmizi öz yolundan çəkindirmək, dövlətimizin siyasi iradəsinə təsir göstərmək mümkün deyil. Bununla belə, Azərbaycan ictimaiyyəti Avropa

Parlamentinin respublikamıza qarşı bu münasibətini hiddətlə qarşılayır. Təsadüfi deyil ki, bu ilin may ayından Milli Məclisin Avropa Parlamenti ilə bütün istiqamətlər üzrə əməkdaşlıq əlaqələri dayandırılıb. Milli Məclisin bu əlaqələri dayandırmaq barədə qərarı həm Avropa Parlamentinə, həm də bu qurumun ölkəmizə qarşı qəbul etdiyi qərəzli qətnamələrə görə sevinən antimilli qruplaşmaya, öz dövləti və xalqı əleyhinə fəaliyyətlə məşğul olan ünsürlərə verilən layiqli cavabdır.

Ursula fon der Lyayenin səfəri zamanı səsləndirdiyi fikirlər, əməkdaşlıq barədə təklifləri göstərdi ki, Avropa Komissiyası qərəzli siyasi yanaşmalardan uzaqdır. Bu səfər isə göstərdi ki, Azərbaycanın regional liderliyi Avropa İttifaqı ilə münasibətləri yeni mərhələyə daşıyır. Bu münasibətlər qarşıdakı dövrdə enerji təhlükəsizliyi, nəqliyyat və rəqəmsal bağlantılarla yanaşı, regional sabitliyin və dayanıqlı inkişafın təmin edilməsində də mühüm rol oynayacaq.

**Jalə Əliyeva.** Azərbaycan son illər yalnız iqtisadi, siyasi və hərbi sahələrdə deyil, dövlət idarəçiliyinin müasirləşdirilməsi istiqamətində də mühüm uğurlar əldə edib. Bu prosesin əsas istiqamətlərindən biri rəqəmsal dövlət modelinin qurulmasıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların mühüm tərkib hissəsinə çevrilən rəqəmsallaşma siyasəti artıq yeni inkişaf mərhələsinə qədəm qoyur.

Ötən həftə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sədrliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclası da məhz bu strateji kursun davamı kimi xüsusi əhəmiyyət daşıyır.

İclasda qəbul olunan qərarlar göstərir ki, Azərbaycan artıq elektron xidmətlərin, sadəcə, sayını artırmaq deyil, onları vahid, çevik və vətəndaşyönümlü idarəetmə modelinə çevirmək mərhələsinə keçib. Bu isə

rəqəmsal dövlət quruculuğunda keyfiyyətcə yeni mərhələ deməkdir. Yeni mərhələnin əsas məqsədi isə ayrı-ayrı informasiya sistemlərini vahid ekosistemdə birləşdirmək və vətəndaşa “bir pəncərə” prinsipi əsasında xidmət göstərmək, bütün xidmətləri bir platformada təqdim etməkdir.

Rəqəmsal İnkişaf Şurasının qərarları arasında ən diqqətçəkən istiqamətlərdən biri proaktiv dövlət xidmətlərinin genişləndirilməsidir. Bu yanaşmaya əsasən, dövlət informasiya sistemlərində bütün zəruri məlumatlar mövcud olduqda vətəndaşın ayrıca müraciət etməsinə ehtiyac qalmayacaq.

İclasda qəbul olunan digər mühüm qərar sənədlərin etibarlılıq müddəti ilə bağlı avtomatik xəbərdarlıq sisteminin tətbiqidir. İlk baxışdan sadə görünən bu xidmət, əslində, minlərcə insanın qarşılaşdığı problemlərin qarşısını alacaq.

Şuranın ilk iclasında qəbul edilən qərarlardan doğan yeniliklər təkcə texniki xarakter daşımır. Bunlar dövlət–vətəndaş münasibətlərinin mahiyyətini ortaya qoyan mühüm islahatlardır.

Bəli, müasir rəqəmsal dövlət məhz belə işləyir. Dövlət yalnız xidmət göstərmir, eyni zamanda, vətəndaşı əvvəlcədən məlumatlandırır, riskləri azaldır, gündəlik həyatı asanlaşdırır, beləcə, xidmətləri daha sürətli, daha şəffaf və daha əlçatan edir.

Lakin rəqəmsallaşma yalnız rahatlıq demək deyil. Bu, həm də dövlət idarəçiliyində şəffaflığın gücləndirilməsi, insan amilindən asılılığın minimuma endirilməsi, korrupsiya risklərinin azaldılması və bürokratik maneələrin aradan qaldırılması deməkdir. Digər tərəfdən, vahid rəqəmsal platformalar dövlət qurumları arasında məlumat mübadiləsini sürətləndirir, qərarların qəbulunu operativləşdirir və xidmətlərin keyfiyyətini artırır.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının iclasının qəbul etdiyi qərarlar Prezident İlham Əliyevin müəyyən etdiyi müasir idarəçilik modelinin əsas prinsipləri ilə tam uzlaşır və gələcəyin dövlət modelinin formalaşdırılmasına xidmət edir. Ən başlıcası isə odur ki, bütün bu islahatların mərkəzində insan amili, insan kapitalı dayanır.

Şuranın qəbul etdiyi qərarlar Azərbaycanın rəqəmsal inkişaf tarixində yeni uğurlu mərhələnin başlanğıcıdır. Əminik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji islahatlar və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın koordinasiya etdiyi bu yeni mərhələ dövlət idarəçiliyinin daha müasir, çevik və səmərəli modelinin formalaşmasına, ölkənin dayanıqlı inkişafına və vətəndaş məmnunluğunun daha da yüksəldilməsinə mühüm töhfə verəcək.

**Kamal Cəfərov.** Bu gün müzakirəyə təqdim edilən qanun layihəsi dövlət satınalmaları sahəsində mövcud olan mühüm bir praktiki problemin həllinə və xəzinədarlıq əməliyyatlarının fasiləsizliyinin təmin edilməsinə xidmət edir.

Bildiyiniz kimi, dövlət büdcəsindən maliyyələşən təşkilatlar mütəmadi olaraq xarici təchizatçılardan, yəni qeyri-rezident hüquqi və fiziki şəxslərdən mal, iş və xidmətlər satın alırlar. Lakin hazırkı təcrübədə ciddi bir inzibati maneə ilə üzləşirik: dövlət xəzinədarlığı vasitəsilə ödənişlər həyata keçirilərkən bəzi xarici təchizatçılardan icra və ya avans təminatı tələb olunur. Lakin onların bu təminatları təqdim etməsi də bəzən mümkünsüz olur.

“Dövlət satınalmaları haqqında” Qanunda hazırda hər hansı bir istisna hal nəzərdə tutulmadığına görə, həmin təminat sənədlərinin olmaması

xəzinədarlıq orqanları tərəfindən ödənişlərin icrasını qeyri-mümkün edir. Nəticə etibarilə dövlət təşkilatları üçün həyati vacib olan satınalmalar baş tutmur və büdcə təşkilatları xarici tərəfdaşlar qarşısında çətin vəziyyətdə qalırlar.

Təqdim olunan qanun layihəsinin əsas məqsədi bu hüquqi boşluğu aradan qaldırmaqdır. Layihəyə əsasən əgər təminatın ödənilməsinin mümkünsüzlüyü müəyyən edilərsə, müvafiq nəzarət orqanının təklifi və icra hakimiyyəti orqanının qərarı əsasında xarici təchizatçılar icra və ya avans təminatı təqdim etmək öhdəliyindən azad edilə biləcəklər.

Bu mexanizm xüsusi ilə "bir mənbədən satınalma" metodunun tətbiq edildiyi hallarda dövlət büdcə təşkilatlarının götürdüyü öhdəliklərin icrasını asanlaşdıracaq və xəzinədarlıqda yaranan süni ləngimələri aradan qaldıracaqdır. Dəyişiklik dövlət vəsaitinin idarə edilməsində həm çevikliyi artıracaq, həm də beynəlxalq satınalmaların problemsiz yekunlaşmasına xidmət edəcəkdir.

**Malik Həsənov.** Azərbaycanın hər dövrün çağırışlarını yüksək səviyyədə yerinə yetirməsinin uğurlu nəticələri göz önündədir. Dayanıqlı inkişafı təmin etmək üçün bütün zəruri addımlar atılır. Bu günümüzün əsas çağırışı rəqəmsal inkişaf və süni intellektin tətbiqidir. Bu ilin fevral ayında Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə ölkənin rəqəmsal gələcəyini müəyyən edən mühüm qərarların qəbul edilməsini, həmçinin dövlət başçısının Sərəncamı ilə "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı"nın təsdiqlənməsini, "Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində

fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanın imzalanmasını, bu sənədə əsasən Rəqəmsal İnkişaf Şurasının yaradılmasını və tərkibinin təsdiqlənməsini özündə ehtiva edir. İslahatlar ardıcıllığı ilə diqqətdədir. Məqsəd ölkəmizdə rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində prioritet istiqamətlərin müəyyənləşdirilməsi, milli texnoloji potensialın gücləndirilməsi, rəqəmsal suverenliyin möhkəmləndirilməsi, innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi, həmçinin bu sahədə dövlət siyasətinin vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsidir. Atılan addımlar Azərbaycanın regionda rəqəmsal mərkəzə çevrilməsinə xidmət edir.

Dövlət başçısı İlham Əliyev həmin müşavirədə diqqətə çatdırdı ki, bu gün süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması, rəqəmsallaşma ilə bağlı islahatlar faktiki olaraq ölkələrin gələcək inkişafını müəyyən edir. Təsdiqlənən fəaliyyət planının əsas hədəfləri dövlət idarəetməsinin optimallaşdırılması, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin yüksəldilməsi və iqtisadiyyatın rəqəmsal sektorunun ÜDM-də payının artırılmasıdır. Rəqəmsal inkişaf sahəsində strateji baxış, prioritetlər və icra mexanizmləri vahid idarəetmə modeli çərçivəsində əlaqələndirilir.

İyunun 29-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclasında "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı"nın icra vəziyyəti, rəqəmsal inkişaf sahəsində qanunvericilik islahatları, təhsilin rəqəmsallaşdırılması istiqamətində görülən işlər geniş müzakirə edildi. Şuranın əsas vəzifəsinin müxtəlif dövlət qurumlarının fəaliyyətini əlaqələndirmək, vahid yanaşma formalaşdırmaq və qəbul edilən qərarların

vaxtında və səmərəli həyata keçirilməsinin icra olunmasını təmin etmək olduğunu vurğulayan Mehriban xanım Əliyeva bildirdi ki, məqsədimiz yalnız yeni texnologiyaları tətbiq etmək deyil, eyni zamanda, ölkə iqtisadiyyatına güclü təkan verilməsi, yeni müasir innovasiya ekosisteminin formalaşdırılması, yerli və xarici investisiyaların ölkəyə cəlb olunması, yerli startaplara dəstək göstərilməsi və daha səmərəli dövlət idarəetmə sisteminin yaradılmasıdır. Süni intellekt artıq gələcəyin deyil, bu günün əsas inkişaf amilidir.

Süni intellektin dövlətlərin təhlükəsizliyinin təmin edilməsində rolu artmaqdadır. Rəqəmsal İnkişaf Şurasının ilk iclasında o da qeyd edildi ki, dünyanın aparıcı dövlətlərində süni intellektin inkişafı gözlənilən proqnozlardan daha sürətli gedir və bu, öz növbəsində həm yeni imkanlar, eyni zamanda, yeni təhlükələr yaradır. Biz yeni çağırışlara, xüsusi ilə kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi sahəsində olan və yaranan risklərə hazır olmalıyıq.

Bütün dövlət qurumlarının birgə fəal və səmərəli işinin təşkili əsas hədəflər sırasında qeyd edildi.

Dövlət xidmətlərini vətəndaşlara və bizneslərə daha yaxın etmək, proseslərin şəffaflığını və vətəndaş məmnuniyyətini təmin etmək məqsədi ilə “Mygov” və “Mygov Biznes” platformaları üzərində işlər davam etdirilir. Belə ki, ayrı-ayrı dövlət qurumlarının fərdi portal və mobil tətbiqləri mərhələli şəkildə vahid ekosistemə inteqrasiya ediləcək ki, bu da xidmət keyfiyyətinin yüksəldilməsinə və istifadəçi təcrübəsinin yaxşılaşdırılmasına xidmət edəcək.

Vətəndaşlara münasibətdə dövlət xidmətlərinin təqdim edilməsində əsas hədəf pərakəndəliyin aradan qaldırılması və vahid mərkəzləşdirilmiş

ekosistemə keçiddir. Artıq bu prosesə başlanılmışdır. Qısa müddət ərzində “e-Sosial”, “e-Təbib” və “e-Su” tətbiqləri tam şəkildə platformaya inteqrasiya olunub. Bundan əlavə, “e-Polis”, “Mobil notariat”, “Azərişıq”, “Reseptim”, “e-Səhiyyə”, “MigAz” və “ASAN müraciət” tətbiqlərinin bir çox xidmətləri də artıq inteqrasiya edilib. İlin sonunadək onların bütün xidmətlərinin tam şəkildə “Mygov” üzərindən təqdim olunması planlaşdırılır. Məqsəd Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir.

Mehriban xanım Əliyeva bu hədəfi qarşıya qoydu ki, biz beynəlxalq təcrübəni öyrənməli, uğurlu modellərdən istifadə etməliyik. Lakin bütün qərarlar Azərbaycanın milli maraqlarına və ehtiyaclarına cavab verən amillərə əsasən qəbul olunmalıdır.

Strateji istiqamətlərdən biri innovasiya ekosisteminin maliyyə dayanıqlığının gücləndirilməsi, İKT ixracının artırılması və Azərbaycanın regional texnologiya mərkəzinə çevrilməsidir. Hədəflərə nail olmaq üçün hazırlanmış qanunvericilik paketi Azərbaycanın yaxın illərdə texnoloji inkişafının hüquqi təməlini formalaşdıran ən əhatəli islahatlardan biridir. Qanunvericiliyə təklif edilən dəyişikliklər Azərbaycanın texnoloji inkişafının hüquqi əsaslarını formalaşdıran, 34 qanuna, 9 Prezident fərmanına və 3 Nazirlər Kabineti qərarına dəyişiklikləri nəzərdə tutan kompleks islahat paketidir. İslahatların əsas məqsədi Azərbaycanı texnologiya şirkətləri, innovativ bizneslər və investorlar üçün regionun ən cəlbedici mərkəzlərindən biri kimi diqqətdə saxlamaqdır.

Azərbaycan cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Rəqəmsal İnkişaf Şurasının fəaliyyətinin, dövlət qurumlarının birgə fəal və

səmərəli işinin nəticəsi olaraq rəqəmsal inkişaf sahəsində yeni mərhələyə qədəm qoyur. Ölkəmiz dayanıqlı inkişafın təkmil modeli ilə daim dünyanın diqqətindədir. Atılan hər bir addımın əsasında Azərbaycanın daha da güclənməsi, qüdrətlənməsi, vətəndaş məmnunluğunun artırılması dayanır.

**Nizami Səfərov.** 2026-cı il fevralın 10-da “Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası”nın imzalanması iki dövlət arasında münasibətlərin yeni iqtisadi, siyasi, diplomatik və hüquqi konfiqurasiya üzrə inkişafını əyani şəkildə təsdiq etdi. Bundan əvvəl də 2025-ci il avqustun 8-də Amerika Birləşmiş Ştatları Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan Respublikası Prezidentinin və Ermənistan Respublikası Baş nazirinin Vaşinqton şəhərində keçirilmiş görüşünə dair tarixi Birgə Bəyannamənin imzalanması regionda uzunmüddətli münaqişənin başa çatması və dayanıqlı sülhün təmin edilməsi istiqamətində fundamental addım olmuşdur. Bu hadisələrin fonunda heç bir məna daşımayan 907-ci düzəlişin ləğv edilməsi siyasi gündəliyin ən mühüm məsələlərindən biridir.

Xatırlatmaq istərdim ki, ABŞ-nin “Azadlığa Dəstək Aktı”na 907-ci düzəliş 1992-ci ildə Qarabağ münaqişəsi fonunda Azərbaycanın Ermənistana qarşı guya “blokada” tətbiq etdiyi bəhanəsi ilə qəbul olunmuşdu. Dövlət başçısının sülh gündəliyini uğurla həyata keçirməsi Cənubi Qafqazda sabit təhlükəsizlik rejiminin bərqərar olunması üçün tarixi şans yaradıb və Azərbaycanın Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətlərin aradan qaldırılması bunun bariz nümunələrindən biridir. Cənab Prezidentin dediyi kimi, bu fakt Azərbaycan ilə Ermənistan arasında sülhün artıq kağız üzərində deyil, həm də praktikada olduğunun göstəricisidir.

Burada xüsusi olaraq qeyd etmək istərdim ki, Ümummilli Lider Heydər Əliyev 1997-ci ildə ABŞ-yə rəsmi səfəri zamanı iki dövlət arasında münasibətlərə böyük zərbə vuran 907-ci düzəlişin ləğvinin zəruriliyini Prezident Klintona və Nümayəndələr Palatası üzvlərinin diqqətinə çatdırmışdı. Təəssüf ki, düzəliş hələ də ləğv olunmayıb və hər il ABŞ Prezidenti xüsusi fərmanla onun qüvvəsini dayandırır. Keçən ilin dekabr ayında Konqres üzvü Anna Paulina Luna 907-ci düzəlişin ləğv edilməsi ilə bağlı təşəbbüslə çıxış edib və Respublikaçılar partiyasının bir sıra üzvləri də bu təşəbbüsə qoşulublar.

Möhtərəm cənab Prezidentin BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı zamanı qeyd etdiyi kimi, ABŞ Konqresinin 907-ci düzəlişi birdəfəlik ləğv etməsi ikili standartların mirasına son qoymaqla, Azərbaycanın qlobal təhlükəsizlik və sabitliyə töhfə verdiyi bir dövrdə etimad və əməkdaşlığı möhkəmləndirərdi.

Azərbaycanla ABŞ arasında münasibətlərin yeni inkişaf mərhələsində 907-ci düzəlişin ləğvi tarixi zərurətdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi haqqında qanun layihəsi konseptual baxımdan informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi, kritik informasiya infrastrukturunun kibertəhdidlərdən etibarlı şəkildə qorunması, kibertəhlükəsizlik sahəsində müasir dövrün tələblərinə cavab verən

institusional mexanizmlərin formalaşması və səmərəli fəaliyyətin təmin edilməsi məqsədi ilə hazırlanmışdır.

İlk növbədə qeyd etmək istərdim ki, kibertəhlükəsizliyin təmin edilməsi Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən biridir və bu istiqamətdə həyata keçirilən tədbirlər rəqəmsal suverenliyin təmin edilməsində həlledici rol oynayır.

Kiberməkanda həyata keçirilən irimiqyaslı, ardıcıl işlərin əsasını 2023-cü il avqustun 28-də dövlət başçısının müvafiq fərmanı ilə təsdiq olunan "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiya" təşkil edir. Strategiyada müəyyən edilən prioritetlər sırasında informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair normativ hüquqi bazanın müasir çağırışlara uyğun təkmilləşdirilməsi və institusional bazanın inkişaf etdirilməsi xüsusi olaraq qeyd edilmişdir. Təqdim olunan layihə bu yanaşmanı əyani formada təsdiq edir.

Ayrıca olaraq Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli Fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nda hazırlanması və qəbulu nəzərdə tutulan Azərbaycan Respublikasının Rəqəmsal Məcəlləsini də qeyd etmək istərdim.

Ölkəmizdə həyata keçirilən mühüm institusional tədbirlər sırasında Azərbaycan Respublikası Prezidentinin 2026-cı il iyunun 2-də imzaladığı Fərmana əsasən kibertəhlükəsizlik sahəsində tənzimləməni və nəzarəti həyata keçirən Milli Kibertəhlükəsizlik Agentliyinin yaradılmasının xüsusi əhəmiyyəti vurğulanmalıdır.

Müzakirəyə təqdim edilən layihə Azərbaycanda informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində həyata keçirilən islahatları davam etdirir və ölkəmizin hüquq sisteminə bir sıra yeni anlayışlar – “informasiya infrastrukturu”, “informasiya infrastrukturu subyekti”, “kibertəhlükəsizlik”, “kiberməkan”, “kibergigiyena”, “rəqəmsal dəlil”, “rəqəmsal tədqiqat” daxil edir.

Qanun layihəsində dövlət orqanlarının, informasiya infrastrukturu subyektlərinin, yeni institusional mexanizmlərin – Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzinin (CERT), Təhlükəsizlik Əməliyyatları Mərkəzinin (SOC) hüquqları və vəzifələri müəyyən olunur, informasiya infrastrukturunun kibertəhlükəsizliyinin təmin edilməsi, kibertəhlükəsizlik üzrə monitorinq və auditin aparılması və bir sıra digər mühüm məsələlər həllini tapır.

Qanun layihəsinin qəbulu əhəmiyyətli xarakter daşıyır. Bütün həmkarları qanun layihəsinə birinci oxunuşda səs verməyə dəvət edirəm.

**Şahin Seyidzadə.** Azərbaycan Respublikasında həyata keçirilən ardıcıl islahatlar göstərir ki, rəqəmsal inkişaf artıq ölkəmizin dövlət siyasətinin əsas prioritet istiqamətlərindən birinə çevrilmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə müəyyən edilmiş strateji kursa uyğun olaraq yaradılan Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurası və təsdiq edilmiş “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı” dövlət idarəçiliyinin müasir çağırışlara uyğun transformasiyasını, innovativ iqtisadiyyatın formalaşdırılmasını və rəqəmsal suverenliyin daha da möhkəmləndirilməsini təmin edən mühüm yol xəritəsidir.

Bu strategiya 2026-cı il iyunun 29-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclasının mövzusu olmuşdur. İclasda rəqəmsal inkişaf, süni intellekt, innovasiya və kibertəhlükəsizlik sahələrində gələcək dövlət siyasətinin prioritetləri müəyyən edilib. Bu prioritetlərin 4 istiqamət üzrə əhəmiyyətini göstərməyi vacib hesab edirəm.

1. Rəqəmsal idarəetməyə.

Ənənəvi dövlət idarəetmə sistemi inzibati prosedurlar ətrafında qurulub. Müasir rəqəmsal transformasiya bu fəlsəfəni dəyişdirir. Dövlət xidmətləri proaktiv, məlumatlara əsaslanan və vətəndaşların həyati ehtiyaclarına yönəlmiş hala gəlir. Onların ortaq bir məqsədi var: hökuməti daha əlçatan, mobil, şəffaf, məsuliyyətli və insanlara yönəlmiş etmək.

2. Resurslardan biliyə və innovasiyaya.

Sənaye iqtisadiyyatı maddi resurslara əsaslanırdısa, müasir iqtisadiyyat bilik, texnologiya, intellektual mülkiyyət və innovasiya ətrafında inkişaf edir. Bu şəraitdə dövlət iqtisadi proseslərin birbaşa iştirakçısından innovasiya ekosisteminin inkişafı, vençur kapitalı, rəqəmsal sahibkarlıq və yüksək texnologiyalı investisiyaların cəlb edilməsi üçün şərait yaratmağa keçir. Onun əsas prinsipləri açıqlıq, sürət, çeviklik, beynəlxalq inteqrasiya, inzibati maneələrin azaldılması və innovativ fəaliyyətin stimullaşdırılmasıdır.

3. İnsan resurslarından insan kapitalına keçid.

Rəqəmsal dövr fərdin dəyərini dəyişdirib. Əvvəllər əsas üstünlük böyük işçi qüvvəsinin mövcudluğu hesab olunurdusa, bu gün bilik, rəqəmsal səriştələr, süni intellektlə işləmək, dəyişikliklərə tez uyğunlaşmaq və innovasiya yaratmaq qabiliyyəti həlledici hala gəlir. Buna görə də insan

kapitalına investisiya qoymaq ölkənin gələcəyi üçün strateji investisiyaya çevrilir.

4. Ərazi müdafiəsindən rəqəmsal suverenliyə.

Dövlət rəqəmsallaşdıqca təkcə ərazi və maddi sərvətlər deyil, həm də məlumatlar, rəqəmsal infrastruktur, dövlət informasiya sistemləri və vətəndaşların rəqəmsal xidmətlərə etimadı qorunma obyektlərinə çevrilir. Rəqəmsal suverenlik milli təhlükəsizliyin vacib elementi, davamlı inkişafın ilkin şərtidir.

Beləliklə, rəqəmsal transformasiya artıq elektron xidmətlərin və ya rəqəmsal platformaların istifadəçilərinin sayı ilə ölçülmür. Onun əsas nəticəsi dövlət idarəçiliyi modelində, iqtisadiyyatda, insan kapitalında və milli təhlükəsizlikdə keyfiyyət dəyişikliyidir. Məhz bu, ölkənin rəqəmsallaşmasından dövlətin rəqəmsallaşmasına keçidi təşkil edir.

Əminik ki, fəaliyyət planında nəzərdə tutulan tədbirlərin ardıcıl icrası nəticəsində dövlət xidmətləri daha əlçatan olacaq, vətəndaş məmnunluğu yüksələcək, innovasiya mühiti daha da inkişaf edəcək, rəqəmsal iqtisadiyyatın imkanları genişlənəcək və Azərbaycan regionun aparıcı rəqəmsal inkişaf mərkəzlərindən birinə çevriləcək.